

*Gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq.*


AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

9 İYUN 2023-cü il CÜMƏ № 121 (7591) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ


# Laçının yeni növrağı

*Ən böyük qələbə, uğur insanın doğma torpağına qovuşması, ona sahib çıxmasıdır. Şükürlər olsun ki, 2020-ci ilin payızında işğal altında olan ərazilərimizi azad edib, torpaqlarımıza qovuşmuşuq. Böyük Qayıdış Proqramı çərçivəsində mərhələli şəkildə kəndlərimiz, şəhərlərimiz yenidən qurulur, abadlaşır. Torpağın üzü gülür desək, heç də yanılmarıq. İndi Qarabağda günəş daha parlaq çıxır, dağlar daha əzəmətli görünür, çiçəklər daha gözəl açır. Çaylarımız daha çoşqun, şaqraq axır. Bulaq sularının zümzüməsində bir rahatlıq, sakitlik var. Çünki bu yerlər azaddır. İnsan əlinin sığalı, nəvazişi rövnəqləndirir bu torpağı. İndi yurd yerlərimiz öz sahiblərini səbirsizliklə gözləyir. Artıq torpağına, yurduna qovuşanlar da az deyil, getdikcə sayları daha da çoxalır. İndi təkcə Ağalıda deyil, Talışda, Laçında da sakinlər doğma yurdlarına qovuşublar.*



Bir zamanlar məcburi şəkildə köçkün düşdükləri doğma obalarına böyük fərəh hissi ilə dönürlər. İlkin mərhələdə ərazilər minalardan təmizlənir. Bütün infrastruktur daxil olmaqla yaşayış məskənləri yenidən tikilib bərpa olunur. Yaşayış binaları, fərdi evlərlə yanaşı, lazımi iaşə obyektləri də tikilib istifadəyə verilir.

Bu günlərdə Laçın şəhərinə sakinlərin köçürülməsi prosesinin ilkin mərhələsi həyata keçirildi. May ayının 28-də bayram bayrama qarışdı. Laçın şəhərinə köç karvanı yola düşdü. Qaradağ rayonunda məskunlaşmış "Qobu park 3" yaşayış kompleksindən 20 məcburi köçkün ailəsi doğma yurdlarına qovuşdu. 97 nəfərdən ibarət yerli sakinin uzun illər çəkdiyi yurd həsrətinə son qoyuldu. Laçına qayıdan sakinləri doğma yurdda məhz ölkə başçısı özü qarşıladı.

(davamı 2-ci səhifədə)

# Azərbaycan-Pakistan münasibətləri yüksək inkişaf mərhələsində

**Ötən əsrin sonlarında ikinci dəfə müstəqilliyinə qovuşan ölkəmiz dünya dövlətləri ilə yeni əlaqələr yaratmaq, tarixən mövcud olan səmimi dostluq münasibətlərini genişləndirmək, bütün sahələrdə davamlı inkişafa nail olmaq üçün strateji məqsədlərə xidmət edən xarici siyasət həyata keçirmişdir. Müstəqilliyinin bərpasının ilk illərində iqtisadi cəhətdən geridə qalan, Ermənistan tərəfindən əraziləri işğal edilən, 1 milyondan artıq vətəndaşı qaçqın, məcburi köçkün vəziyyətinə düşən Azərbaycan üçün dövlətlərlə diplomatik əlaqələr qurmaq, beynəlxalq aləmdə təmsil olunmaq sözün əsl mənasında çətin idi. Bütün bu çətinliklərə baxmayaraq, ölkəmizlə dostluq, tərəfdaşlıq münasibətləri qurmaq istəyən, elə ilk vaxtlardan dövlətimizin müstəqilliyini tanıyan ölkələrin də sayı az deyildi.**



Belə ki, Türkiyə qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında müstəqillyimizin bərpasının ilk illərindən hərtərəfli əlaqələrin inkişafına böyük yardım göstərmiş, ölkəmizin dünya birliyinə inteqrasiyasında, regional təhlükəsizliyin qorunmasında, ümumiyyətlə, siyasi-iqtisadi və elmi-mədəni maraqların reallaşmasında mühüm rol oynamışdır. Türkiyə Respublikasından sonra isə müstəqilliyimizi Azərbaycana dost, qardaş ölkə olan Pakistan tanımışdır.

Beynəlxalq əməkdaşlığın təşviqi və qlobal tərəfdaşlığın möhkəmləndirilməsində diplomatik münasibətlər əsas rol oynayır. Bu baxımdan, Azərbaycan ilə Pakistan arasında diplomatik əlaqələrin qurulması sonrakı mərhələlərdə iki ölkə arasında əməkdaşlığın inkişafına şərait yaratmışdır. 1991-ci ildə Pakistan Azərbaycanın müstəqilliyini tanımış, iki ölkə arasında diplomatik münasibətlər 1992-ci il iyunun 9-da qurulmuş, qısa zaman kəsiyində Bakıda Pakistanın, İslamabadda isə Azərbaycanın daimi nümayəndəliyi açılmışdır.

*İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il iyunun 9-da qurulmuşdur*

Bundan sonra hər iki ölkə qarşılıqlı faydalı əlaqələrin inkişafına ciddi səy göstərmişdir. 1996-cı ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Pakistana rəsmi səfəri münasibətlərin inkişafına xüsusi təkan vermiş və səfər çərçivəsində 9 sənəd imzalanmışdır. Ulu öndər Heydər Əliyevin 1997-ci ildə İslam Konfransı Təşkilatına üzv ölkələrin dövlət və hökumət başçılarının Tehranda keçirilən VIII Zirvə görüşündə Pakistanın Baş naziri Nəvaz Şəriflə, 2000-ci ildə İqtisadi Əməkdaşlıq Təşkilatının Tehranda keçirilən Sammitində və 2002-ci ildə Təşkilatın İstanbulda baş tutan Sammitində Pakistan Prezidenti Pərviz Müşərrəflə görüşü iki ölkə arasında əlaqələrin dərinləşməsində mühüm rol oynamışdır.

Azərbaycanda səfirliyini açmış ilk dövlətlərdən biri olan Pakistan Ermənistanın Azərbaycana qarşı təcavüzünə hər zaman birmənalı münasibət bildirmiş, erməni işğalına etiraz əlaməti olaraq bütün beynəlxalq təşkilatlarda Azərbaycanın mənafeyini müdafiə etmişdir. Ermənistan-Azərbaycan münaqişəsinin həllində daim Azərbaycanın mövqeyindən çıxış edən, münaqişənin ölkəmizin ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı çərçivəsində həllinə tərəfdar çıxan Pakistan da Türkiyə kimi Ermənistan ilə diplomatik münasibətlər qurmamış və yüksək tribunalardan işğalçı Ermənistan ordusunun Azərbaycan ərazilərindən çıxarılmasını tələb etmişdir.

(davamı 4-cü səhifədə)

# Qaçılmaz fürsət

## *Qarabağdakı separatçılara amnistiyanın mümkünlüyü məsələsini ABŞ da dəstəkləyir*

**"Mənim nümayəndəm gedib onlarla birinci görüş keçirib və ondan sonra onları dəvət etmişik Bakıya ki, gəlin danışaq. Onlar bundan imtina etdilər. Bundan sonra ikinci dəfə biz onları dəvət etmişik Bakıya. Yəni Qarabağda yaşayan erməni azlığının nümayəndələrini. Ondan da imtina etdilər. Daha üçüncü dəvət olmayacaq. Ya özləri boyunlarını büküb gələcəklər, ya da ki indi hadisələr başqa cür inkişaf edəcək". Bu fikirləri mayın 28-də Laçında sakinlərlə görüşdə bildirən Prezident İlham Əliyev deyib: "Sadəcə olaraq, bizə gələn son mesajlar belədir ki, bəs orada dırnaqarası rəhbərliyin aqibəti necə olacaq? Onlara amnistiya düşürmü, düşmürmü? Mən isə deyirəm ki, buna baxmaq lazımdır. Birincisi, biz oraya heyət göndərmişdik. Onlara ancaq o halda amnistiya düşə bilər, özləri könüllü olaraq bütün saxta vəzifələrini kənara qoyub Azərbaycan vətəndaşlığı üçün müraciət etsinlər".**

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev Qarabağdakı erməni separatçıların təslim olacaqları təqdirdə amnistiya tətbiq oluna biləcəyini demişdir. Azərbaycanın səbir kasası hədsiz deyil. Rusiyanın sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi ərazilərdə məskunlaşmış ermənilərin seçim zamanı sürətlə yaxınlaşır. Onlar ya Azərbaycan Konstitusiyası çərçivəsində cəmiyyətimizə reinteqrasiya olmalı, ölkənin digər vətəndaşlarından heç nə ilə fərqlənməyən hüquq və təhlükəsizlik təminatı reallığını qəbul etməli, ya da ölkəni tərk etməlidirlər.

Prezident İlham Əliyev Laçın şəhərinə qayıdan əhali ilə görüşü zamanı Qarabağda fəaliyyət göstərən qondarma rejimin üzvlərinə edilə biləcək güzəştdən, amnistiyadan və bunun şərtlərindən danışıb. Ölkə başçısı vurğulayıb ki, ona da biz hələ baxacağıq: "Mənim sözüm qətidir, bunu hər kəs bilir, həm Azərbaycanda, həm dünyada, o cümlədən Ermənistanda. Nəyi deyiriksə, onu da edirik".

Bakı hələ ki, Qarabağın erməni əhalisinin illüziyalardan əl çəkərək, reallıqları əxz, formalaşmış vəziyyəti dərk etmələrini gözləyir. Ermənistanın hakimiyyət dairələri və ermənilər isə tam əksinə, hələ də kimlərəsə güvənir, nələrəsə bel bağlayır, hansısa dövlətin və ya dövlətlərin Azərbaycana qarşı müharibə edərək "qarabağlı erməniləri xilas edəcəkləri"ni düşünür. Bununla bağlı Azərbaycanın dövlət başçısı Laçın rayonunda olarkən söylədikləri ermənilərə son xəbərdarlıq sayıla bilər: "Buradan - uzun illər istismar etdikləri, qanunsuz məskunlaşdıqları Laçın diyarından onlara bir daha deyirəm ki, sizin kitabınız bağlandı". Azərbaycan Prezidenti İlham Əliyev Dağlıq Qarabağın de-fakto hakimiyyətini "saxta dövlət atributlarını" zibil qutusuna atmağa çağırıb. Dövlət başçımız separatizmə son qoyulduğunu bəyan edib.

(davamı 10-cu səhifədə)


Möhtəşəm Qayıdış




səh. 6



səh. 7

"Türk əsri"nin yeni yüksəliş mərhələsi

Ermənistan yeni ekoloji terrora hazırlaşır



səh. 10

## "ASAN Kommunal" mərkəzlərinin yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 may tarixli 890 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"ASAN Kommunal" mərkəzlərinin yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 may tarixli 890 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 5, maddə 851) 3-cü hissəsinə "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti," sözlərindən sonra "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyəti," sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 8 iyun 2023-cü il.**

## Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 iyul tarixli 1732 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İdxalı əlavə dəyər vergisindən azad edilən xammal və materialların siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 iyul tarixli 1732 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 721; 2023, № 2, maddə 252) ilə təsdiq edilmiş "İdxalı əlavə dəyər vergisindən azad edilən xammal və materialların siyahısı"na aşağıdakı məzmunda 61-ci hissə əlavə edilsin:

| | | |
|---|---|---|
| 61 | 8523 52 900 0 | Xaricdə çap olunmuş pasport və yeni nəsil şəxsiyyət vəsiqəsi blankları |

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 8 iyun 2023-cü il.**

## "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238, № 10, maddə 1991, № 11, maddə 2287; 2019, № 3, maddə 411, № 4, maddə 619, № 5, maddələr 839, 855, № 6, maddə 1027, № 12, maddə 1921; 2020, № 1, maddə 5, № 2, maddə 100, № 8, maddə 1039, № 11, maddə 1357; 2021, № 1, maddə 30, № 6 (I kitab), maddələr 579, 593, № 8, maddə 908, № 12, maddələr 1369, 1416; 2022, № 4, maddələr 305, 306, № 5, maddələr 443, 448, № 10, maddə 1136, № 12, maddə 1438; 2023, № 1, maddə 89, № 2, maddə 245, № 3, maddə 359; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 2 iyul tarixli 766 nömrəli və 2023-cü il 8 aprel tarixli 2089 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nın 26-cı hissəsinin "Dövlət orqanının (qurumunun) adı" sütununda "Azərişıq" ASC," sözlərindən sonra "Azəristiliktəchizat" ASC," sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 8 iyun 2023-cü il.**



# Laçının yeni növrağı

**(əvvəli 1-ci səhifədə)**

Evlərin açarlarını laçınlılara təqdim edən İlham Əliyev çıxışı zamanı bildirdi ki, 20 ailə artıq Laçındadır. İyun ayının sonuna kimi isə əlavə bir çox ailələr gələcək. Bütövlükdə 7-8 ay ərzində 700 bina inşa edilib, onlardan 620-si fərdi yaşayış binası, 9-u çoxmənzilli binadır. Beləliklə, artıq 764 ailə Laçın şəhərində yaşaya bilər.

Onu da qeyd edək ki, işğaldan öncə Laçın şəhərində 2020 fərdi, 28 ümumi yaşayış evi olub. İşğal dövründə isə evlərin 1500-dən çoxu ermənilər tərəfindən dağıdılıb, qalanları isə yararsız hala salınıb. Torpaqlarımız işğaldan azad edildikdən sonra hər bir kəndin, şəhərin yenidən tikilib-qurulması üçün ciddi işlərə başlandı. İndi demək olar ki, Qarabağın hər yerində tikinti-quruculuq işləri aparılır. Laçında da yaşayış binaları ilə yanaşı, bütün infrastruktur yenidən qurulur. İnsanların rahat yaşayışı üçün bütün lazımi şərait yaradılır. Şəhərin ərazisində yeraltı kommunikasiya qovşaqlarının, magistral xətlərin salınması işləri artıq yekunlaşıb. Mərkəzdəki bərpaya yararlı evlər təmir olunub. Şəhərin görünüşü daha gözəl, müasir və modern üslubda qurulub. Şəhərin içməli su ilə təchiz olunması üçün 9 ədəd su anbarı, 3 ədəd yağış sularının toplanması anbarı, 1 ədəd isə təmizləyici qurğunun tikintisi aparılır.

Eyni zamanda, gələcəkdə şəhərdə 30-dan çox ictimai bina olacaq. 2 və 4 mərtəbədən ibarət 8 yaşayış binasının kommunal infrastrukturu artıq hazırdır. Maraqlı məqamlardan biri də odur ki, Laçın şəhərində indiyə kimi məscid olmayıb. Elə bu səbəbdən də, yaxın zamanlarda Laçında Heydər Əliyev Fondunun dəstəyi ilə məscid inşa ediləcək. Dövlət Böyük Qayıdış Proqramı çərçivəsində əhalinin şəhərə köçürülməsi və məskunlaşdırılması ilə yanaşı, həm də onların müvafiq işlərlə təmin edilməsini də nəzərdə tutur. Sakinlərin işlə təmin edilməsi üçün şəhərdə idman sağlamlıq kompleksləri, uşaq bağçaları, məktəblər, xəstəxanalar və digər inzibati binaların tikintisi həyata keçirilir. Dövlət tərəfindən laçınlıların işlə təmin olunması üçün iri və xırda müəssisələrin, aqroparkın açılması nəzərdə tutulur. Məktəb binası yeni tədris ilində öz qapılarını şagirdlərin üzünə açacaq. Aqro və Sənaye Parkı yaradılmaqdadır. Burada 1100-dən çox sakin işlə təmin ediləcək.

Verilən məlumata görə, artıq Laçına qayıdacaq 200 nəfərdən çox sakin işlə təmin olunub. Laçın şəhərinin füsunkar təbiəti ərazinin turizm potensialının zənginliyindən xəbər verir. Gələcəkdə bu yöndə də mühüm addımlar atılacaq. Bütün bunları nəzərə alan dövlətimiz bölgənin turizm məkanı kimi rahatlığını təmin etmək məqsədilə 2025-ci ilin sonunda Laçın Beynəlxalq Hava Limanını istifadəyə verəcək. Şəhər Həkəri çayının kənarında yerləşdiyi üçün balıqçılığın inkişafı vacib məsələlərdən biridir. Gələcəkdə ərazidə balıqçılıq təsərrüfatının yaradılması ilə sakinlərin bir qismi işlə təmin olunacaq.

Yaxın gələcəkdə Laçın şəhəri ilə bərabər, Zabux və Sus kəndlərinə də köçürülmə prosesi həyata keçiriləcək.

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**









## Baş nazir Əli Əsədov Soçidə Rusiya Hökumətinin sədri Mixail Mişustinlə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 8-də Soçiyə işgüzar səfəri çərçivəsində Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustinlə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə iki ölkənin qarşılıqlı münasibətlərinin Azərbaycan və Rusiya prezidentlərinin səyləri ilə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi məmnunluqla vurğulanıb.

Qarşılıqlı ticarətin və sərmayələrin davamlı artması ikitərəfli münasibətlərin dinamik inkişafının əyani sübutu kimi qiymətləndirilib.

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın cari ayın sonunda Moskvada keçirilməsi planlaşdırılan növbəti iclasının əhəmiyyəti qeyd edilib.

Kənd təsərrüfatı sahəsində əməkdaşlığın yaxşı nəticələri vurğulanıb.

Nəqliyyat və logistika sektoru əməkdaşlığın mühüm istiqaməti kimi səciyyələndirilib. Bununla əlaqədar Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin tam gücü ilə fəaliyyətinin təmin edilməsi üçün birgə səylərin davam etdirilməsinə qarşılıqlı hazırlıq ifadə olunub.

Tərəflər sənaye sahəsində uğurlu əməkdaşlığın zəngin təcrübəsini qeyd etdilər, birgə istehsal istiqamətində işbirliyini müsbət qiymətləndirdilər.

Hökumət başçıları Azərbaycan-Rusiya ticarət-iqtisadi əməkdaşlığının aktual məsələlərini və müxtəlif sahələrdə birgə layihələrin reallaşdırılmasını da nəzərdən keçirdilər. ■

## Baş nazir Əli Əsədov Soçidə kubalı həmkarı ilə görüşüb

**Rusiya Federasiyasının Soçi şəhərində işgüzar səfərdə olan Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 8-də Kuba Respublikasının Baş naziri Manuel Marrero Krus ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə iki ölkə arasında fəal siyasi dialoqun qurulduğu qeyd olunub, yüksək səviyyəli qarşılıqlı səfərlərin və görüşlərin vacibliyi vurğulanıb.



Azərbaycanın və Kubanın beynəlxalq təşkilatlarda, o cümlədən BMT və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığından məmnunluq ifadə olunub.

Hökumət başçıları iki ölkə arasında iqtisadi-ticari və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi məsələlərini də müzakirə ediblər. ■




**Əli ƏSƏDOV:**

# Azərbaycan III MDB Oyunlarının bütün iştirakçılarına və nümayəndələrinə tam təhlükəsizlik zəmanəti verəcək

*İyunun 8-də Rusiya Federasiyasının Soçi şəhərində MDB Hökumət Başçıları Şurasının iclası keçirilib. Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iclasda iştirak edib.*

*Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasdan əvvəl Ə.Əsədov və digər nümayəndə heyətlərinin başçıları "Sirius" Elm və İncəsənət Parkında "Avrasiya bizim evimizdir" adlı sərgi ilə tanış olublar.*

Ə.Əsədov Şuranın məhdud tərkibli iclasında çıxış edərək MDB-nin iştirakçı-dövlətlərinin hökumət başçılarına onların ölkələrində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş yüksək səviyyəli çoxsaylı tədbirlərin təşkilinə görə minnətdarlığını bildirib.

Qeyd olunub ki, Azərbaycan Respublikası MDB çərçivəsində hökumətlər səviyyəsində qarşılıqlı faydalı tərəfdaşlığa və səmərəli əlaqələrin davam etdirilməsinə böyük əhəmiyyət verir.

Birliyə üzv dövlətlər arasında qarşılıqlı anlaşmanın və mehriban qonşuluğun möhkəmləndirilməsində humanitar sahənin başlıca rolu vurğulanıb.

Bununla bağlı MDB Oyunlarına toxunan Ə.Əsədov bildirib ki, bu Oyunlar humanitar sahədə mühüm idman layihəsi kimi iştirakçı-ölkələrin xalqları arasında ənənəvi dostluq əlaqələrinin möhkəmlənməsinə kömək edir.

Üçüncü MDB Oyunlarının 2025-ci ildə ölkəmizdə keçiriləcəyini xatırladan Baş nazir Azərbaycanın birinci Avropa Oyunları (2015), IV İslam Həmrəyliyi Oyunları (2017), Avropa Gənclər Yay Olimpiya Festivalı (2019), UEFA çərçivəsində klub və milli yarışların, Formula 1 Qran-priləri kimi nüfuzlu idman yarışlarının keçirilməsi təcrübəsindən danışıb.

"Biz müasir idman, logistika və turizm infrastrukturuna, kifayət qədər kadr potensialına sahibik. Bütün bu resurslar Azərbaycan dövlətinin bütün iştirakçılara və nümayəndələrə verdiyi tam təhlükəsizlik zəmanəti ilə birlikdə yarışların uğurla və yüksək səviyyədə keçəcəyini deməyə əsas verir", - deyə Ə.Əsədov əlavə edib.

Qeyd olunub ki, Azərbaycan MDB-nin iştirakçı-dövlətlərinin demək olar ki, hamısı ilə ikitərəfli əsasda sıx iqtisadi-ticari əlaqələr saxlayır və bu əlaqələr getdikcə genişlənir.

Baş nazir deyib: "2022-ci ilin yekunlarına görə, Azərbaycanın MDB-yə üzv ölkələrlə ticarət dövriyyəsinin ümumi həcmi 28 faizdən çox artıb. Müsbət dinamika cari ildə də müşahidə olunur. İlk dörd ayda biz qarşılıqlı ticarəti 22 faiz artırmağa nail olmuşuq".

Mövcud qlobal geosiyasi çağırışlar fonunda nəqliyyat-tranzit sahəsində əməkdaşlığın aktuallığının artdığı qeyd olunub. "Azərbaycan regionda əsas nəqliyyat qovşağı kimi, nəqliyyat-logistika infrastrukturunu daim təkmilləşdirir və MDB üzrə tərəfdaşlarının ehtiyacları üçün yükdaşımaların artan həcmini təmin etməkdən ötrü öz potensialından daha intensiv istifadə etməyə hazırdır", - deyə Ə.Əsədov bildirib.

Cənubi Qafqazda nəqliyyat və iqtisadi əlaqələrin açılmasının mühümlüyü qeyd edilib.

MDB dövlətlərinin alternativ enerji mənbələrinin inkişafında əməkdaşlığa artan marağı nəzərə alınmaqla, Hökumət Başçıları Şurasının diqqəti Azərbaycanda bu sahədə görülmüş işlərə yönəldilib.

"Bu istiqamətdə aparılan işlər çərçivəsində dünyanın aparıcı şirkətləri ilə birgə artıq bir sıra iri layihələr icra olunur", - deyə Ə.Əsədov əlavə edib.

Eyni zamanda, Azərbaycanın "yaşıl" enerji gündəliyi məsələləri üzrə qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi imkanlarını nəzərdən keçirməyə hazır olduğu bildirilib.

İclas iştirakçıları regionda münaqişədən sonrakı vəziyyət barədə də məlumatlandırılıb. Qeyd olunub ki, sülh gündəliyinə sadiq qalan Azərbaycan regionda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi üzrə səyləri davam etdirmək əzmindədir.

Vurğulanıb ki, Azərbaycan Hökuməti işğaldan azad olunan ərazilərin bərpası və inkişafı istiqamətində genişmiqyaslı işlər həyata keçirir.

Nümayəndə heyətləri rəhbərlərinin çıxışlarından sonra MDB Hökumət Başçıları Şurası işini geniş tərkibdə davam etdirib.

İclasın yekunlarına əsasən, Birlik çərçivəsində əməkdaşlığın gələcəkdə genişləndirilməsi ilə bağlı bir sıra sənədlər imzalanıb. ■









# Baş nazir Əli Əsədov Soçidə Avrasiya Hökumətlərarası Şurasının iclasında qonaq qismində iştirak edib

*Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 8-də Rusiya Federasiyasının Soçi şəhərində Avrasiya Hökumətlərarası Şurasının geniş tərkibdə iclasında qonaq qismində iştirak edib.*




Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir iclasda çıxış edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ötən ayın sonunda Moskvada Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdə iclasında qonaq qismində iştirakının əhəmiyyətini vurğulayıb.

Ə.Əsədov deyib ki, Avrasiya İqtisadi Birliyi üzrə tərəfdaşlarla ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafı Azərbaycanın xarici siyasət prioritetlərindən biridir.

Vurğulanıb ki, iqtisadi-ticari əlaqələr qarşılıqlı münasibətlərin əsas vektorudur.

"Ötən ilin yekunlarına görə, Azərbaycanın Avrasiya İqtisadi Birliyinə üzv ölkələrlə əmtəə dövriyyəsi 31 faiz artaraq 4,7 milyard dollar təşkil edib. Azərbaycanın xarici ticarət dövriyyəsində Avrasiya İqtisadi Birliyinə üzv ölkələrin payı təqribən 9 faiz təşkil edib. Cari ilin yanvar-aprel aylarında əmtəə dövriyyəsinin artımı 38 faizə bərabər olub", - deyə Baş nazir diqqətə çatdırıb.

Avrasiya İqtisadi Birliyinə üzv ölkələrlə investisiya sahəsində əməkdaşlığın müsbət dinamikasını qeyd edən Ə.Əsədov iclas iştirakçılarını ölkəmizdəki əlverişli investisiya mühiti barədə məlumatlandırıb.

"Biz xarici sərmayədarların Azərbaycanda özünü rahat hiss etməsi üçün hər cür şərait yaratmışıq", - deyə Baş nazir əlavə edib.

Nəqliyyat sahəsində tərəfdaşlığa toxunan Ə.Əsədov qeyd edib ki, qlobal geosiyasi mənzərədə mühüm dəyişikliklər bir çox ölkələr tərəfindən logistika zəncirlərinin və axınlarının məcburi şəkildə yenidən təşkili ilə nəticələnib.

"Bu fonda dövlətlərimizin ərazisindən keçən nəqliyyat-tranzit dəhlizlərinin aktuallığı artır. Azərbaycan ərazisi ilə yük axını sabit sürətlə artır. "2022-ci ilin yekunlarına görə, artım 75 faiz təşkil edib. Cari ilin yanvar-aprel aylarında tranzit daşımaların həcmi 26 faiz artıb", - deyə Baş nazir diqqətə çatdırıb.

Qeyd olunub ki, Azərbaycan Şərq-Qərb, Şimal-Cənub nəqliyyat marşrutlarının vacib halqası kimi çıxış edir.

Baş nazir Avrasiya İqtisadi Birliyinin Hökumətlərarası Şurasının üzvlərinin diqqətini Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafı üzrə gördüyü işlərə çəkərək bildirib ki, ölkədə son 20 ildə minlərlə kilometr uzunluğunda avtomobil və dəmir yolları tikilib və ya əsaslı təmir olunub.

Ə.Əsədov deyib: "Bu gün biz Şimal nəqliyyat şəbəkəsini Cənub və Şərq şəbəkələri ilə birləşdirərək, azad olunmuş Qarabağda avtomobil və dəmir yollarının şaxələndirilmiş şəbəkəsinin yaradılmasına sərmayə yatırırıq".

Qeyd olunub ki, Azərbaycan ərazisində - Laçında artıq 2025-ci ildə istismara veriləcək 9-cu beynəlxalq hava limanının tikintisi yüksək sürətlə gedir, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının potensialının artırılması üzrə işlər davam etdirilir.

"Bütün bu tədbirlər yükdaşımaların artan həcminin öhdəsindən gəlmək və beynəlxalq nəqliyyat dəhlizlərinin fasiləsiz işini təmin etmək məqsədilə Azərbaycanın tranzit potensialını əhəmiyyətli şəkildə artırmağa imkan verəcək", - deyə Ə.Əsədov vurğulayıb.

Baş nazir bildirib ki, Avrasiya İqtisadi Birliyinin tərəfdaş üzvləri ilə ikitərəfli formatda dövlətlərarası münasibətlərin geniş gündəliyi nəzərə alınmaqla, Azərbaycan bundan sonra da bütün istiqamətlər üzrə əlaqələrin artırılması üçün ciddi səylərini davam etdirəcək. ■

## Azərbaycan və Rusiya arasında səmərəli əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib

**İyunun 8-də xarici işlər naziri Ceyhun Bayramov Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovu ölkəmizdəki diplomatik fəaliyyətinin bitməsi münasibətilə qəbul edib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı tərəflər Azərbaycan və Rusiya arasında səmərəli əməkdaşlığı və onların inkişaf perspektivlərini məmnunluqla vurğulayıblar. Müttəfiqlik qarşılıqlı fəaliyyət səviyyəsinə yüksələn münasibətlərin dinamik şəkildə inkişaf etdiyi diqqətə çatdırılıb.

Nazir Ceyhun Bayramov səfir Mixail Boçarnikova fəaliyyəti dövründə Azərbaycan-Rusiya münasibətlərinin inkişafına verdiyi töhfəyə, peşəkar fəaliyyətə və meydana gələn məsələlərin effektiv həllinə göstərdiyi dəstəyə görə dərin minnətdarlığını bildirib və ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Səfir Mixail Boçarnikov öz növbəsində Azərbaycandakı fəaliyyəti dövründə ona göstərilmiş dostluq və əməkdaşlıq münasibətlərinə görə öz minnətdarlığını bildirib.

Görüş zamanı, həmçinin ikitərəfli münasibətlərlə bağlı qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib. ■

# Azərbaycan QHT-ləri Ermənistanın Arazdəyəndə yeni ekoloji fəlakətə yol açacaq layihəsi əleyhinə bəyanat yayıb

**Ermənistanın Azərbaycanla, Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd ərazisində - Arazdəyən kəndində illik istehsal gücü 180 min ton olan iri metallurgiya zavodunun inşasının layihəsi ilə əlaqədar iyunun 8-də Bakıda ekoloji yönümlü QHT-lər yeni ekoloji fəlakətə yol açacaq bu layihə əleyhinə birgə bəyanat səsləndiriblər.**

**AZƏRTAC xəbər verir ki, tədbirdə azərbaycanlı ekoloqlar ABŞ dövlətinə və Ermənistan ekoloqlarına da çağırış ünvanlayıblar.**

**Azərbaycanda fəaliyyət göstərən ekoloji yönümlü QHT-lərin bəyanatında deyilir:**

Ermənistan mətbuatında yayılan məlumatlara əsasən, Ermənistan Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd bölgəsində - Arazdəyəndə iri metallurgiya zavodunu inşa etməyə hazırlaşır. Tikintiyə 70 milyon dollar ABŞ sərmayəsi yatırılacaq, zavodun hündürlüyü 30 metr, sahəsi 16500 kvadratmetr olacaq.

Bu metallurgiya zavodunun zəhərli kimyəvi tullantıları bölgədəki ekosistemə böyük zərbə vura bilər. Onun tullantılarının Araz çayına axıdılması riski həm çaydakı canlı aləm, həm də Arazın suyundan suvarma üçün istifadə edilən geniş təsərrüfatlar üçün həyəcan siqnalıdır. Ermənistanın dağ-mədən sənayesində heç bir beynəlxalq standartlara əməl edilməməsi həm Azərbaycan, həm də ümumilikdə bölgə üçün ciddi ekoloji təhdid yaradır.

Azərbaycan tərəfi ilə razılaşdırmadan sərhəddə belə bir müəssisənin tikintisi "Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" 1991-ci il Espo Konvensiyanın kobud şəkildə pozulmasıdır. Azərbaycan və Ermənistan həmin Konvensiyanın tərəfləridir və Espo Konvensiyasından irəli gələrək, bu zavodun ətraf mühitə təsirinin qiymətləndirilməsi işi aparılmalı, tikinti ilə əlaqədar qiymətləndirmə sənədinə qonşu dövlət olan Azərbaycanın müvafiq qurumları baxmalı, eyni zamanda, bölgəyə yaxın yaşayan azərbaycanlıların rəyi nəzərə alınmalıdır.

Ermənistanın bu tələblərə riayət etməməsi bir daha onu göstərir ki, Ermənistan regionda destruktiv siyasət aparır, tərəf olduğu beynəlxalq sənədlərin müddəalarını, beynəlxalq öhdəliklərini kobud şəkildə pozur.

Ermənistan tərəfindən Azərbaycana qarşı ekoloji terror və ekosid siyasətinin aparılması yenilik deyil. "Metsamor"un uzun illər regionun ətraf mühitinə təhdid kimi qalması, işğal dövründə Qarabağda törədilmiş geniş miqyaslı ekoloji faciələr, yüksək kimyəvi tərkibli istehsalat sularının təmizlənmədən Oxçuçaya axıdılması buna əyani misaldır. Ermənistan Oxçuçayı kəskin şəkildə çirkləndirib. Bu isə çayın Azərbaycan ərazisi boyu keçdiyi hissənin ekoloji sistemini bərpa olunmaz deqradasiyaya məruz qoyub. Alman şirkəti "Cronimet" bu ekoloji cinayətdə Ermənistanla birgə iştirak edib. Təəssüflər olsun ki, bu günə qədər də Almaniya hökuməti bu istiqamətdə heç bir praktik addım atmayıb.

Törətdiyi ekoloji cinayətlərlə Ermənistan BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin, xüsusilə də hər kəsin sağlamlığının təmin edilməsinə dair 3-cü, təmiz su və sanitariya ilə bağlı 6-cı, iqlim dəyişikliyinin fəsadlarına qarşı mübarizəyə dair 13-cü, torpaq ekosisteminin mühafizəsi üzrə 15-ci məqsədlərinin tamamilə əleyhinə gedir.

Məlum olduğu kimi, 2022-ci ildə BMT təmiz, sağlam və davamlı ətraf mühiti insan hüququ kimi tanımışdır. Ermənistan ekologiyaya ciddi ziyan vurmaqla, Azərbaycan, o cümlədən region əhalisinin insan hüquqlarını kobud şəkildə pozur.

Bundan başqa, müxtəlif beynəlxalq sənədlər, o cümlədən biznes və insan hüquqları üzrə rəhbər prinsiplərə görə iqtisadi fəaliyyət insan hüquqlarına ziyan vurulmadan həyata keçirilməlidir. Bu halda da Ermənistan məsuliyyətsiz davranır, təmiz, sağlam və davamlı ətraf mühit hüququna məhəl qoymur və sırf özünün iqtisadi maraqlarını önə çəkir.

Biz Azərbaycanda fəaliyyət göstərən ekoloji yönümlü qeyri-hökumət təşkilatları olaraq, başda BMT-nin Ətraf Mühit Proqramı, Ümumdünya Səhiyyə Təşkilatı, BMT-nin ətraf mühit üzrə xüsusi məruzəçisi, BMT-nin zərərli maddələr və insan hüquqları üzrə xüsusi məruzəçisi olmaqla, müvafiq beynəlxalq təşkilatlara müraciət edərək, onları bu fakta reaksiya verməyə və Ermənistanın növbəti ekoloji terroruna son qoymağa çağırırıq.

Amerika Birləşmiş Ştatları hökumətinə müraciət edirik ki, Arazdəyəndə iri metallurgiya zavodu tikməyə hazırlaşan, ərazisində qeydiyyatda olan şirkəti məsuliyyətli davranışa dəvət etsin, onun qanunsuzluqlarına göz yummasın. Amerika Birləşmiş Ştatları rəsmiləri, o cümlədən ABŞ-ın Azərbaycandakı və Ermənistandakı səfirlikləri susmamalı, məsələyə münasibət bildirməlidirlər.

Biz buradan Ermənistandakı ekofəallara da müraciət edirik. Bu, ilk növbədə, Ermənistanın özünün də ekoloji vəziyyətinə mənfi təsir edəcək. Bölgəni təhlükəyə sürükləyən bu prosesi durdurmaq üçün hərəkət zamanıdır.

**1.** "Yaşıl Dünya" Ekoloji Maarifləndirmə İctimai Birliyinin sədri Elman Cəfərli;
**2.** "Ana Kür" Ekoloji Problemlərin Öyrənilməsinə Kömək İctimai Birliyinin sədri Rüstəm Məlikov;
**3.** "Ekoleks" Ekoloji Hüquq Mərkəzi İctimai Birliyinin sədri Sevil İsayeva;
**4.** "Sudan İstifadə sahəsində Mütəxəssislər" İctimai Birliyinin sədr müavini Amin Məmmədov;
**5.** "Biosfer" İctimai Birliyinin sədri Qorxmaz İbrahimli;
**6.** "Eko Aləm" İB-nin sədri Sevil Yüzbaşova;
**7.** "Sağlam Həyata Doğru" Ekoloji İctimai Birliyinin sədri Sadiq Həsənov;
**8.** "Ekoloji Maarifçilik və Monitorinq" İctimai Birliyinin sədri Qəmzə Yusubova;
**9.** "Sosial-İqtisadi və Ekoloji İnkişaf" İctimai Birliyinin sədri Rahilə Mehtiyeva;
**10.** "Səma və Eko" Sosial İqtisadi İnkişafa Yardım İctimai Birliyinin sədri İradə Həsənova;
**11.** "Ekoloq-2010" Ekoloji Maarifləndirmə İctimai Birliyinin sədri Səlim Balayev;
**12.** "Ekoloq Ətraf Mühitin Qorunmasına Yardım" İctimai Birliyinin sədri Rübabə Hüseynli;
**13.** "Səyyahlar" Təbii Sərvətlərin və Ətraf Mühitin Araşdırılması və Tanıdılması İctimai Birliyinin nümayəndəsi Jalə Qəribova;
**14.** "Ekoloji Maarifçiliyə Yardım" İctimai Birliyinin sədri Tarverdi Hüseynov;
**15.** "Sağlam Mühit" Gənclərin İnkişafına Kömək İctimai Birliyinin sədri Əli Mirzəyev;
**16.** "Feniks" Sağlam Həyat Təbliği İctimai Birliyinin sədri Şahin Hüseynov;
**17.** "Təbiət Dostları" Gənclərin Ekoloji Maariflənməsinə Kömək İctimai Birliyinin sədri Elman Əsgərov;
**18.** "Ekoloji Təmiz Məhsul İstehsalçıları və İxracatçıları" İctimai Birliyinin sədri Emin Əliyev;
**19.** "Şəfəq" Ekoturizm İctimai Birliyinin sədri Vamiq Babayev;
**20.** "Dalğa" Ekologiya və Təbiətin Qorunması İctimai Birliyinin sədri Natiq Hətəmov;
**21.** "Eko-TES" Ekoloji Tədqiqatlar və Maarifçilik İctimai Birliyinin sədri Çingiz Nəzərov;
**22.** "Aran" Ekoloji Maarifləndirmə İctimai Birliyinin sədri Nəsrəddin Kərəmov;
**23.** "Pragma" Sosial İnkişafa və Ekologiyanın Qorunmasına Dəstək İctimai Birliyinin sədri Taleh Şahsuvarov;
**24.** "Ailə və Ətraf Mühit" İctimai Birliyinin sədri İlhamə Qurbanova;
**25.** "Ruzgar" Ekoloji İctimai Birliyinin sədri İslam Mustafayev.





# Bakıda MDB-nin Sərhəd Qoşunlarının Komandanları Şurasının 86-cı iclası keçirilib

**İyunun 8-də Bakı şəhərində Müstəqil Dövlətlər Birliyinin (MDB) Sərhəd Qoşunlarının Komandanları Şurasının (SQKŞ) 86-cı iclası keçirilib.**

**AZƏRTAC xəbər verir ki, tədbirdə ölkəmizlə yanaşı, Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan, Türkmənistan və Ermənistanın sərhəd xidmətləri, SQKŞ-nin Əlaqələndirici Xidməti, MDB-nin İcraiyyə Komitəsi, MDB-nin Antiterror Mərkəzi, MDB-yə üzv ölkələrin ərazisində mütəşəkkil cinayətkarlığa və cinayətin digər təhlükəli növlərinə qarşı mübarizənin əlaqələndirilməsi Bürosu, Sərhəd xidməti veteranlarının Beynəlxalq İctimai Birliklər İttifaqının Əlaqələndirici Şurasının nümayəndə heyətləri və fəxri qonaqlar iştirak ediblər.**

Qeyd edək ki, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti 1992-ci ildən fəaliyyət göstərən və Müstəqil Dövlətlər Birliyinin üzv ölkələri arasında sərhəd təhlükəsizliyinin təmin olunması sahəsində əməkdaşlıq məsələlərinin əlaqələndirilməsini həyata keçirən SQKŞ-nin iclaslarında müşahidəçi qismində iştirak edib.

Sərhəd Qoşunları Komandanlar Şurasının 2001-ci ildə 40-cı, 2008-ci ildə 60-cı, 2013-cü ildə 70-ci və 2017-ci ildə 78-ci iclasları Bakı şəhərində keçirilib.

İclasdan öncə Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarı önünə əklil qoyulub, Ulu Öndərin ruhuna hörmət və ehtiram bildirilib.

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri general-polkovnik Məhərrəm Əliyev, Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev, Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidməti direktorunun birinci müavini - Sərhəd Xidmətinin rəhbəri Vladimir Kulişov və digərləri çıxış edərək öz fikirlərini bölüşüblər.



Tədbirdə MDB iştirakçısı olan dövlətlərin xarici sərhədlərində vəziyyət və onun inkişaf tendensiyaları, MDB üzv dövlətlərinin xarici sərhədlərindən qanunsuz fəaliyyətlərin qarşısının alınması məqsədilə 2023-cü ildə keçirilən və 2024-cü il üçün planlaşdırılan birgə əməliyyatlar, SQKŞ-nin 87-ci iclasının təşkili və gündəliyinin layihəsi nəzərdən keçirilib, eləcə də tədbirin gündəliyinə uyğun olaraq digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb, aidiyyəti nümayəndə heyətləri arasında ikitərəfli formatda görüşlər keçirilib, qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

Sərhəd idarələrinin beynəlxalq hüquq strukturlarının rəhbərlərinin işgüzar görüşü keçirilib. Görüşdə MDB iştirakçısı olan dövlətlərin 2026-2030-cu illər üçün xarici sərhədlərdə sərhəd təhlükəsizliyinin möhkəmləndirilməsində əməkdaşlıq Proqramının hazırlanması ilə bağlı ən aktual məsələlər müzakirə olunub.

Tədbir çərçivəsində iştirakçılar Dövlət Sərhəd Xidmətinin struktur bölmələrinin fəaliyyəti ilə tanış ediliblər.

SQKŞ-nin növbəti iclasının Ermənistanda keçirilməsi planlaşdırılır. ■

## Cənubi Qafqazda nəqliyyat kommunikasiyalarının açılması region dövlətlərinə ticarət əlaqələrini qaydaya salmaq imkanı verəcək

**Cənubi Qafqazda nəqliyyat kommunikasiyalarının açılması regionun bütün dövlətlərinə ticarət əlaqələrini qaydaya salmaq imkanı verəcək.**



AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə müsahibəsində Bakıda keçirilən Müstəqil Dövlətlər Birliyinin (MDB) Sərhəd Qoşunlarının Komandanları Şurasının (SQKŞ) 86-cı iclasının iştirakçısı, Sərhəd Qoşunlarının Komandanları Şurası sədrinin müavini - Koordinasiya Xidmətinin sədri, general-polkovnik Aleksandr Manilov deyib.

"Belə olan halda ticarət sahmana salınacaq, insanlar həm ticarət, həm də ünsiyyət imkanı qazanacaq. Avtomatın nişangahına baxmaq əvəzinə, bir-biri ilə ünsiyyət qurmaq və ticarət etmək daha yaxşıdır", - deyə Aleksandr Manilov bildirib. ■

*XİN:*

## Qriqoryanın guya Azərbaycanın sərhəddə vəziyyəti gərginləşdirdiyi barədə iddialarının heç bir əsası yoxdur

**İyunun 8-də Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın Minskdə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının iclasında çıxışı zamanı guya Azərbaycanın Ermənistanla sərhəddə və Laçın yolunda vəziyyəti gərginləşdirdiyi, güc tətbiqi siyasəti yürütdüyü, Qarabağ bölgəsində yaşayan erməni sakinlərə qarşı etnik təmizləmə həyata keçirmək niyyətində olduğu barədə səsləndirdiyi iddiaların heç bir əsası yoxdur və bu Ermənistan tərəfinin növbəti manipulyasiyasıdır.**

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib.

Qeyd edilib ki, Ermənistan tərəfinin öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmək, eləcə də Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmət etmək əvəzinə erməni sakinlərin reinteqrasiyası kimi daxili məsələlərə müdaxilə cəhdlərinə hələ də son qoymaması bu ölkənin bölgədə sülh və sabitlikdə maraqlı olmadığını göstərir. Misal olaraq, Ermənistan Təhlükəsizlik Şurasının katibinə xatırladırıq ki, Ermənistan üçtərəfli Bəyanat çərçivəsində öhdəliklərinə zidd olaraq erməni silahlı qüvvələrini Azərbaycan ərazisindən tam olaraq hələ də çıxarmayıb və bu qüvvələrin Azərbaycan ərazisində mövcudluğu beynəlxalq hüququn bütün norma və prinsiplərinin pozuntusu olmaqla yanaşı, ciddi təhdid mənbəyidir.

"Azərbaycanın Laçın sərhəd-buraxılış məntəqəsindən gün ərzində onlarla erməni sakinlərin Azərbaycan qanunvericiliyinə və müvafiq prosedurlara əməl etməklə hər iki istiqamətdə sərbəst şəkildə keçməsi bir daha göstərir ki, Ermənistanın reinteqrasiya prosesinə maneçilik cəhdləri uğursuzluğa düçar olub.

Ermənistanı bölgədə sülh və təhlükəsizliyin təmin olunmasına xələl gətirən təhlükəli ritorikadan çəkinməyə çağırır, əsassız yerə Azərbaycanı ittiham etmək, beynəlxalq ictimaiyyəti yayındırmaq cəhdlərini davam etdirmək əvəzinə, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyi tələb edirik", - deyə məlumatda vurğulanıb. ■

## Azərbaycan-Pakistan münasibətləri yüksək inkişaf mərhələsində

**(əvvəli 1-ci səhifədə)**

Qarşılıqlı münasibətlər zəminində Azərbaycan da beynəlxalq platformalarda Kəşmir problemində İslamabadın mövqeyini dəstəkləmiş, beynəlxalq hüquqa uyğun olaraq problemin sülh yolu ilə həllinin vacibliyini vurğulamışdır.

Azərbaycan və Pakistanın ikitərəfli münasibətlərinin əsasında siyasi fəaliyyət dayanır. Ölkə liderlərinin yüksək səviyyəli səfərləri və görüşlər bu fəaliyyəti daha da möhkəmləndirir. Pakistan Prezidenti Pərviz Müşərrəf 2004-cü ildə Azərbaycanda rəsmi səfərdə olmuş, bir sıra mühüm görüşlər keçirmişdir. Pərviz Müşərrəflə görüşündə ölkə başçımız Ermənistan-Azərbaycan münaqişəsində Azərbaycanın ədalətli mövqeyinin rəsmi İslamabad tərəfindən daim dəstəklənməsini xüsusi vurğulamışdır. Ölkələr arasında diplomatik münasibətlərin formalaşmasında Prezident İlham Əliyevin mühüm rolu olmuşdur. Pakistan Prezidentinin dəvəti ilə 2005-ci ildə bu ölkəyə rəsmi səfərdə olan Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində dost ölkə ilə müxtəlif sahələr üzrə əlaqələrin dərinləşməsi, regional təhlükəsizliyə və sabitliyə verdiyi töhfələr Azərbaycan və Pakistanın müdafiə sahəsində əməkdaşlığını daha da möhkəmləndirmişdir. Belə ki, 2020-ci ildə İkinci Qarabağ müharibəsi zamanı Pakistanın Azərbaycana diplomatik və mənəvi dəstəyi həmrəyliyə, birliyə zəmin yaratmışdır.

44 günlük İkinci Qarabağ müharibəsində dost, qardaş ölkələrimiz sarsılmaz, möhkəm təməllər əsasında qurulmuş əlaqələrini bütün dünyaya nümayiş etdirdilər. Bütün dünyanın gözü qarşısında Azərbaycana ən böyük dəstəyi Türkiyə ilə bərabər, Pakistan da göstərdi. Regionun və dünyanın ən aparıcı, söz sahibi olan ölkələri- Azərbaycan,Türkiyə və Pakistan bir-biri ilə əməkdaşlığa, müttəfiqliyə böyük önəm verərərək ölkələrinin problemlərinin həllində birlik, həmrəylik nümayiş etdirirlər. Dost, qardaş ölkələr arasında mövcud əlaqələr bu gün Qarabağ müharibəsindən sonrakı dövrdə problemlərin həllində, Zəngəzur dəhlizinin açılmasında, Türkiyənin antiterror mübarizəsində, Kipr və Kəşmir problemlərinin həlli istiqamətində də mühüm rol oynayır. Azərbaycan Respublikası Milli Məclisində ilk dəfə olaraq Azərbaycan, Pakistan və Türkiyə parlament sədrlərinin üçtərəfli görüşü keçirilmiş və Bakı Bəyannaməsi imzalanmışdır. Azərbaycan-Türkiyə və Pakistan parlamentinin sədrlərinin imzaladığı Bakı Bəyannaməsi üç dost ölkənin birliyinin, güclü ittifaqının, həmrəyliyinin göstəricisi, Azərbaycan, Türkiyə və Pakistan strateji tərəfdaşlığının yeni mərhələsi və eyni zamanda hər üç dövlətin gündən-günə möhkəmlənən münasibətlərinin təzahürüdür. Nəqliyyat, ticarət, energetika, xalqlararası təmas, təhsil, sosial və mədəniyyət mübadiləsi, turizm, informasiya və kommunikasiya texnologiyaları sahəsində regional əməkdaşlıqdan tutmuş hibrid müharibələr və islamafobiyaya meyilli ölkələrə görə ortaya çıxan təhdidlərə qarşı mübarizə, regional və qlobal mövzularda yaxından fəaliyyət göstərmək haqqında əməkdaşlığın qeyd olunduğu Bəyannaməyə əsasən ölkələr xaricdən dəstəklənən terror hücumları, kiber hücumlar, dezinformasiya kampaniyalarına qarşı və digər sahələr üzrə əməkdaşlığı genişləndirməyə razılaşmışlar. Bu baxımdan, Bakı Bəyannaməsi regionda yeni üçtərəfli formatın və üç ölkə arasında milli, mənəvi səviyyədə olan qardaşlığın əsasını qoymuşdur.

Bakı Bəyannaməsinin imzalanmasından sonra Bakıda Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin nümayəndələrinin iştirakı ilə dostluq, qardaşlıq və hərbi-siyasi tərəfdaşlıq münasibətlərinin bariz nümunəsi olan "Üç Qardaş - 2021" birgə beynəlxalq təlimi başlamış və birgə təlimin əsas

***İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il iyunun 9-da qurulmuşdur***



məqsədi döyüş əməliyyatlarının aparılması zamanı dost və tərəfdaş ölkələrin xüsusi təyinatlı bölmələrinin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi, sülh və müharibə dövründə əməliyyatlara hazırlanması, bilik və təcrübə mübadiləsinin aparılması olmuşdur. Regional sülhün qorunması baxımından da böyük önəm kəsb edən bu beynəlxalq təlim həm də üç ölkə arasında mövcud olan hərbi-siyasi formatda münasibətlərin yeni mərhələsinin başlanğıcının göstəricisi olmuşdur.

Bu gün Pakistan Türkiyədən sonra Azərbaycanın ikinci əsas strateji müttəfiqidir. Həm ikitərəfli, həm də çoxtərəfli əlaqələrə sahib olan ölkələr hər zaman BMT, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq, regional qurumlarda bir-birinə dəstək olmuş, Kəşmir və Ermənistan-Azərbaycan münaqişələrinə eyni mövqedən yanaşmış və beynəlxalq hüquq normaları çərçivəsində həllinə səy göstərmişlər. Bütün bunlar Azərbaycan-Pakistan münasibətlərinin ən yüksək inkişaf mərhələsinə yüksəldiyinin göstəricisidir.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

## Milli Məclisin sədri Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin yeni sədrini təbrik edib

**Milli Məclisin sədri Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin yeni sədri Numan Kurtulmuşa təbrik məktubu ünvanlayıb.**




Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, məktubda Sahibə Qafarova Numan Kurtulmuşu Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri vəzifəsinə seçilməsi münasibətilə təbrik edərək ona ən xoş arzularını çatdırıb.

Məktubda deyilir ki, "Bir millət, iki dövlət" şüarını rəhbər tutan ölkələrimiz arasındakı strateji müttəfiqlik bütün sahələrdə olduğu kimi, parlamentlərarası əlaqələr sahəsində də uğurla inkişaf edir. Sahibə Qafarova Numan Kurtulmuşu ölkəmizə rəsmi səfərə dəvət edib.

Parlamentin sədri Sahibə Qafarovanın, həmçinin Numan Kurtulmuşla telefon danışığı olub. Telefon danışığı zamanı Milli Məclisin sədri türkiyəli həmkarını bir daha təbrik edərək, xalqlarımızın mənafeyi və rifahı naminə gələcək fəaliyyətində ona uğurlar arzulayıb.

Türkiyə Böyük Millət Məclisinin sədri təbriklərə və xoş sözlərə görə təşəkkürünü bildirərək, TBMM ilə Milli Məclis arasında əlaqələrin bundan sonra da yüksələn xətlə inkişaf etməsi üçün səylərini əsirgəməyəcəyini söyləyib. ■

*MN:*

## Ordumuzun mövqeləri atəşə tutulub

**İyunun 8-i saat 11:25-dən 18:40-dək Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri Ordumuzun Füzuli, Xocalı və Şuşa rayonları istiqamətlərində yerləşən mövqelərini fasilələrlə atəşə tutub.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən qeyd olunan istiqamətlərdə adekvat cavab tədbirləri görülüb.

Bundan başqa, qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri kənd təsərrüfatı işləri adı altında Ordumuzun Ağdam, Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonları istiqamətlərində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər.

Bölmələrimiz tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb. ■

## Ombudsman İsveç Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfirini qəbul edib

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva İsveç Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Tobias Lorentzsonu qəbul edib.**

Qurumun mətbuat xidmətinin məlumatında deyilir ki, görüşdə S.Əliyeva Ombudsmanın mandatı, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsindəki fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib. Ombudsman müvafiq sahədə fəaliyyət göstərən beynəlxalq təşkilatlarla, habelə İsveçin və digər ölkələrin ombudsmanları ilə ikitərəfli əməkdaşlıq əlaqələrindən bəhs edib. Müvəkkil Beynəlxalq Ombudsmanlar İnstitutu və regional ombudsman institutları şəbəkələri çərçivəsində sıx əməkdaşlıq əlaqələrinin davam etdirildiyini söyləyib.

Müvəkkil müharibə və postmüharibə dövründə Ermənistan tərəfindən beynəlxalq humanitar hüququn norma və prinsiplərinin pozulması ilə bağlı faktların araşdırılması məqsədilə faktaraşdırıcı missiyaların həyata keçirildiyini, yerində araşdırmaların aparıldığını və əldə edilən faktoloji materiallara əsaslanan hesabat və bəyanatlar hazırlanaraq aidiyyəti beynəlxalq insan hüquqları qurumlarına göndərildiyini bildirib. Ombudsman müharibə cinayətlərini törədən şəxslərin hələ də məsuliyyətə cəlb edilməməsinin bu kimi halların yenidən təkrarlanmasına zəmin yaratdığını diqqətə çatdırıb.

**"Respublika".**

# Ulu Öndərin ölməz ideyaları Prokurorluğun da uğurlarını şərtləndirmişdir

*Azərbaycan xalqının təkidli xahişi ilə 15 iyun 1993-cü il tarixdə ikinci dəfə siyasi hakimiyyətə qayıdan böyük tarixi şəxsiyyət Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilmiş köklü islahatlar, o cümlədən iqtisadi islahatlar, ölkəmizdə paralel olaraq bütün sahələrin, eləcə də hüquq sahəsinin tərəqqisinə zəmin yaratdı. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə sürətlə inkişaf etməyə başlayan ölkəmizdə hər şey müsbətə doğru dəyişdi və tərəqqi dövrü başladı.*

Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi müdrik dövlətçilik siyasətinin nəticəsi olaraq, bütün digər qurumlarla yanaşı, Azərbaycan Prokurorluğu da dövlət təsisatı kimi tamamilə yenidən quruldu, onun dövlətçiliyə və xalqa sədaqəti ilə seçilən peşəkar kadr korpusu formalaşdırıldı və prokurorluq dövlətin mühüm sütunlarından birinə çevrildi. Bununla da Azərbaycan Respublikasında reallaşdırılan mütərəqqi məhkəmə-hüquq islahatları çərçivəsində milli prokurorluq orqanları da müasir məzmunda yeniləşdirilməklə, cəmiyyətdə statusuna uyğun layiqli yerini tutdu.

Müdrik lider Heydər Əliyevin mütəmadi olaraq verdiyi səmərəli tövsiyələri və dəyərli göstərişləri əsasında Azərbaycan Respublikasının Prokurorluq orqanlarında müasir tələblərə uyğun və yüksək intensivliklə davam etdirilən hərtərəfli islahatlar nəticəsində prokurorluğun fəaliyyətinin təkmilləşməsi və bunun üçün zəruri normativ-hüquqi bazanın yaradılması, kadrların seçilməsinin yeni mütərəqqi formalarının tətbiqi təmin edilmiş, dövlətçiliyin, milli maraqların, insan hüquq və azadlıqlarının etibarlı qorunması, cinayətkarlığa və digər qanun pozuntularına qarşı mübarizə yüksək səviyyədə təşkil olunmuşdur. Həyata keçirilən möhtəşəm islahatlar çərçivəsində görülən nəhəng işlər sayəsində və təməl prinsiplərin mövcud tələblərlə uzlaşdırılması ilə hazırlanmış hüquqi baza əsasında Azərbaycan Prokurorluğu struktur və mahiyyət baxımından tamamilə yenidən qurularaq, yüksək nəzəri bilikli və peşəkar kadrlarla komplektləşdirilməklə, səlahiyyətləri, vəzifələri və fəaliyyəti beynəlxalq standartlara uyğun formalaşdırılmış müasir dövlət təsisatına çevrilmişdir.

Ulu Öndər Heydər Əliyevin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə"nin qəbul edilməsi və onun icraya yönəldilməsi Azərbaycan Respublikası Prokurorluğunda aparılan islahatların ən böyük uğurlarından olmaqla, prokurorluğun kadr tərkibinin yenidən formalaşdırılması kimi mühüm məsələnin əsasını təşkil etmişdir. Prokurorluq orqanlarına işə qəbulun demokratik prinsiplər əsasında, şəffaf prosedurlarla müsabiqə yolu ilə həyata keçirilməsinin nəticəsində prokurorluğun kadr tərkibi hərtərəfli inkişaf etmiş, zəngin biliyə malik, geniş dünyagörüşü olan, yüksək mənəvi keyfiyyətlərə malik, vətənpərvər, dövlətçilik prinsiplərinə sadiq gənc hüquqşünaslardan komplektləşdirilmiş və perspektivli kadrlarla mütəmadi olaraq yenilənmə təcrübəsi formalaşmışdır.

Xeyirxah rəhbər Heydər Əliyevin prokurorluq işçilərinin rifahına xidmət edən "Azərbaycan Respublikası Prokurorluq orqanları işçilərinin maddi və sosial təminatı haqqında" 8 oktyabr 2002-ci il tarixli Sərəncamı isə hər bir prokurorluq işçisini fərəhləndirməklə, onlarda böyük ruh yüksəkliyinin yaranmasına səbəb olmuşdur.

Qürurvericidir ki, Ulu Öndərin müəyyən etdiyi strateji inkişaf konsepsiyasını uğurla reallaşdıran və yeni müstəvidə inkişaf etdirən dövlət başçısı cənab İlham Əliyevin Azərbaycanın daha da qüdrətlənməsinə, xalqın rifahının hərtərəfli yaxşılaşdırılmasına, eləcə də insan hüquqlarının və azadlıqlarının qorunmasına yönələn müdrik siyasəti öz bəhrəsini verməkdə davam edir. Ölkəmizdə aparılan ardıcıl və sistemli şəkildə həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində Azərbaycan daha da güclənmiş, beynəlxalq birliyin tamhüquqlu üzvü kimi layiqli yerini tutmuşdur.

Sonsuz təşəkkür hissləri ilə qeyd olunmalıdır ki, əsası müasir Azərbaycanın qurucusu Heydər Əliyev tərəfindən qoyulan prokurorluğa, o cümlədən hərbi prokurorluğa hərtərəfli diqqət və qayğı göstərilməsi ənənəsi möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən də davam etdirilir.

2020-ci ildə ölkə başçısı cənab İlham Əliyev Kamran Əliyevi Azərbaycan Respublikasının Baş prokuroru, Xanlar Vəliyevi isə yenidən Azərbaycan Respublikasının Hərbi prokuroru təyin etmişdir. Möhtərəm Prezident İlham Əliyevin 2020-ci ilin may ayının 1-də Azərbaycan Respublikasına yeni Baş prokuror təyin etməsi və Kamran Əliyevin elə həmin gün videoformatda qəbulu zamanı dövlət başçısının verdiyi dəyərli tapşırıq və tövsiyələrin prokurorluq, o cümlədən hərbi prokurorluq orqanlarında həyata keçirilməsi ilə prokurorluğun inkişafının yeni tərəqqi dövrü başlamışdır.

Belə ki, dövlət orqanlarında idarəetmənin təkmilləşdirilməsi, işin səmərəliliyinin artırılması istiqamətində ölkəmizdə aparılan islahatların davamı olaraq, ölkə Prezidentinin göstəriş və tövsiyələrinin icrası ilə bağlı prokurorluq orqanlarında, o cümlədən hərbi prokurorluqda əsaslı struktur və kadr islahatlarının həyata keçirilməsinə başlanılmış, ədalətli meyarlara və şəffaf prosedurlara əsaslanan mütərəqqi dəyişikliklərin reallaşdırılması istiqamətində mühüm işlər görülmüşdür. Vurğulamaq lazımdır ki, Prezident İlham Əliyevin rəhbərliyi və onun siyasi iradəsi ilə reallaşdırılan dövlət gənclər siyasətinin tələblərinə müvafiq olaraq şəffaf prosedurlar əsasında prokurorluğun kadr korpusunun da yeniləşdirilməsi istiqamətində məqsədyönlü işlər eyni intensivliklə davam etdirilir.

Prezident İlham Əliyev 2020-ci ildə ədliyyə general-leytenantı Xanlar Vəliyevi yenidən Azərbaycan Respublikasının Hərbi prokuroru vəzifəsinə təyin etməsi Hərbi Prokurorluğa, onun rəhbərliyinə və kollektivinin fəaliyyətinə verilən yüksək qiymətin təzahürü olmuşdur. Hərbi Prokurorluq orqanlarının işinin daha səmərəli təşkil olunması, cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizənin effektivliyinin artırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" 30 sentyabr 2005-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə Hərbi Prokurorluğa Silahlı Qüvvələrdə törədilən və hazırlanan cinayətlərin qarşısının alınmasında mühüm əhəmiyyətə malik əlavə səlahiyyətlərin verilməsi və buna uyğun olaraq mövcud strukturda müvafiq dəyişikliklər edilməklə yeni qurumların yaradılması Hərbi Prokurorluğun fəaliyyətinə verilən növbəti yüksək dəyərin təcəssümü olmuşdur.

Onu da qeyd etmək zəruridir ki, Prokurorluq orqanlarının müasir dövrün tələblərinə cavab verən dövlət orqanı səviyyəsinə uyğun təkmilləşdirilməsində möhtərəm Prezidentimizin 27 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı" mühüm əhəmiyyətə malik olmuşdur. Azərbaycan Prokurorluğunun tarixində yeni təkmilləşmə və inkişaf, hərtərəfli müasirləşdirmə dövrünün əsasını qoyan Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi hüquq sisteminin inkişafı prosesində prokurorluğun rolunun artırılması, cinayətkarlığa qarşı mübarizə və istintaq aparılmasında digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsi, prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə olunması, mərkəzləşdirilmiş informasiya-kommunikasiya sisteminin yaradılması, dövlət ittihamının müdafiəsində peşəkarlığın yüksəldilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, habelə prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması üzrə əlverişli şərait yaradılmışdır.

Prezident İlham Əliyev demişdir: "...Prokurorluq orqanlarının işçiləri bundan sonra da vətənə ləyaqətlə xidmət etsinlər və bütün hüquq-mühafizə orqanları elə çalışsınlar ki, həm vətəndaşlar, ictimaiyyət onların işindən razı olsun, eyni zamanda, dövlətin maraqları və qanunun aliliyi təmin edilsin...". Cənab Prezidentin dediyi bütün dəyərli tövsiyələri və ali tapşırıqları fəaliyyətində rəhbər tutan Azərbaycan Prokurorluğunun əməkdaşları bu gün Konstitusiya və qanunvericiliklə müəyyən olunmuş səlahiyyətlərini ləyaqətlə həyata keçirərək ölkəmizdə dövlətçiliyin və qanunçuluğun qorunmasına, eləcə də möhkəmləndirilməsinə xidmət edir, respublikamızda qanunun aliliyi təmin olunur və qanunlara ciddi riayət edilir. Həmçinin Azərbaycan vətəndaşlarının hüquq və azadlıqları daha etibarlı qorunur. Qeyd etmək lazımdır ki, prokurorluğun uğurlarının davamlılığını təmin etmək üçün son dövrlər bu orqanda daha əlverişli işgüzar mühitin yaradılması sayəsində işçilərin yüksək əhval-ruhiyyədə olması və bununla da işin səmərəliliyinin artması dövlət orqanları sırasında prokurorluğun nüfuzunun daha da yüksəlməsi ilə nəticələnmişdir. Prokurorluqda hüquqi islahatların sürətləndirilməsi, qısa zaman kəsiyi ərzində bu sahədə nailiyyətlər əldə olunmasında göstərilən prinsipiallıq hamı tərəfindən bəyənilmiş və yüksək qiymətləndirilmişdir. Cinayət hadisələri üzrə istintaqın aparılmasında, cinayətkarların müəyyən edilib məsuliyyətə cəlb olunmasında və layiq olduqları cəzalara məhkum edilməsində prokurorluq, o cümlədən hərbi prokurorluq əməkdaşlarının da xidmətləri danılmazdır. Xüsusi vurğulanmalıdır ki, Azərbaycan Prokurorluğu əməkdaşlarının müstəqil dövlətimiz və xalqımız qarşısındakı xidmətlərinə, Azərbaycan Respublikasında dövlətçiliyin qorunmasında, sabitliyin təmin edilməsindəki, mürəkkəb və çoxepizodlu cinayət işlərinin, eləcə də xüsusi təhlükəli dövləti cinayətlərin istintaqının yüksək peşəkarlıqla aparılmasındakı fəaliyyətlərinə cənab Prezident İlham Əliyev tərəfindən dəfələrlə yüksək qiymət verilmiş, prokurorluğun əməkdaşları orden və medallarla təltif edilmişdir.

Azərbaycan Prokurorluğu orqanları son dövrlər daxili işlər, ədliyyə və digər hüquq-mühafizə orqanları, həmçinin məhkəmə ilə birlikdə ölkədə ictimai-siyasi sabitliyin qorunması və cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahələrində zəruri tədbirlərin görülməsi məqsədilə işgüzar əlaqələri daha da intensivləşdirmişdir.

Göründüyü kimi, Ulu Öndərin hakimiyyətə qayıdışından bu günədək olan dövr ərzində prokurorluğa olan dövlət qayğısı hər zaman hiss edilmiş, bu da prokurorluq işçilərini həvəsləndirməklə bərabər, onların xidməti vəzifələrinin icrası zamanı daha məsuliyyətli olmaları ilə nəticələnmişdir. Eyni zamanda böyük tarixi şəxsiyyətin ölməz ideyaları prokurorluğun, o cümlədən hərbi prokurorluğun uğurlarını şərtləndirmiş və fəaliyyətlərində daim həmin ideyaları rəhbər tutan prokurorluq əməkdaşları ardıcıl nailiyyətlərə imza atmaqdadırlar.

**Hümmət MƏMMƏDOV,**
**Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Hərbi Prokurorluqlarda İstintaqa Nəzarət Şöbəsinin rəisi, ədliyyə polkovniki.**



# Ümumtürk dünyasının həmrəyliyi Heydər Əliyev siyasətinin uğurlu nəticəsidir

"Dövlətlərimizin sıx, bərabərhüquqlu və səmərəli əməkdaşlığı zamanın hökmüdür, bizim bütün əvvəlki tariximizdən və müasir siyasi və iqtisadi gedişindən irəli gələn obyektiv zərurətdir. Yeni minilliyin astanasında ölkələrimizi nəinki tarixi köklər, adət və ənənələr, həm də dövlətlərimizin müstəqilliyi və suverenliyinin möhkəmləndirilməsi, regionumuzda sülhün və sabitliyin bərqərar edilməsi, vətəndaşlarımızın həyatının, rifahının yaxşılaşdırılması kimi ümummilli mənafelər birləşdirir. Əminəm ki, dünya sivilizasiyasının inkişafına böyük töhfə vermiş olan xalqlarımız bu vəzifələri uğurla yerinə yetirəcək və XXI əsrə ulu əcdadlarımızın layiqli varisləri kimi qədəm qoyacaqlar". Ümummilli lider Heydər Əliyev bu fikirləri türkdilli dövlətlərin başçılarının V Zirvə görüşündə söyləmişdir.

## *Ümummilli Lider 1998-ci il iyunun 9-da Qazaxıstanın paytaxtı Astana şəhərində Türkdilli Dövlətlərin başçılarının V Zirvə görüşündə iştirak etmişdir*

Azərbaycanın beynəlxalq əlaqələrinin inkişafında, dünyada mövqeyinin möhkəmlənməsində ulu öndər Heydər Əliyevin əvəzolunmaz xidmətləri olmuşdur. Ümummilli lider respublikaya rəhbərliyinin ikinci dövründə müstəqilliyini yenicə bərpa etmiş dövlətimizin iqtisadiyyatını inkişaf etdirmək, ölkəni böhran vəziyyətindən çıxarmaq, 80-ci illərin sonu, 90-cı illərin əvvəllərindən başlayan Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinə nail olmaq istiqamətində məqsədyönlü fəaliyyət aparmışdır. Heydər Əliyevin diplomatik fəaliyyətində ortaq mədəni irsə, eyni soykökə malik olan ümumtürk dünyasının həmrəyliyi, türk dövlətləri arasında əlaqələrin qurulması və inkişaf etdirilməsi əsas strateji xətt təşkil etmişdir.

Türk dövlətləri arasında daha sıx əməkdaşlıq əlaqələri yaratmaq məqsədi daşıyan Türkdilli Dövlətlərin başçılarının V Zirvə Toplantısı 1998-ci il iyunun 9-da Qazaxıstanın paytaxtı Astana şəhərində keçirilmişdir. Azərbaycan Prezidenti Heydər Əliyevin Zirvə görüşündə iştirakı, onun diplomatik təcrübəsi iştirakçı ölkələr arasında əməkdaşlığın təbliğində də mühüm rol oynamışdır. Görüşdə ortaq problemləri həll etmək, daha geniş əməkdaşlıq imkanlarını araşdırmaq, bu istiqamətdə səyləri birləşdirmək və ticarət, enerji, nəqliyyat, mədəni mübadilə və təhlükəsizlik məsələləri ətrafında müzakirələr aparılmışdır. Görüş, həmçinin türk xalqları arasında gələcək əməkdaşlıq səyləri üçün zəmin, etibar və anlaşma mühiti yaratmışdır.

Müzakirələrdə fəal iştirak edən Heydər Əliyev türk xalqları arasında daha sıx iqtisadi əməkdaşlıq və enerji tərəfdaşlığı potensialını vurğulamış, infrastrukturun inkişafının, ticarətin asanlaşdırılmasının və regionda iqtisadi artımı və sabitliyi gücləndirə biləcək birgə layihələrin vacibliyini qeyd etmişdir. Türk xalqlarının zəngin mədəni sərvətlərini və tarixi əlaqələrini vurğulayan ulu öndər mədəni mübadilənin, təhsil sahəsində əməkdaşlığın və xalqlar arasında qarşılıqlı əlaqələrin şaxələndirilməsinin zəruriliyini diqqətə çatdırmışdır.

Türkdilli dövlətlərin başçılarının Zirvə görüşünün keçirilməsinin artıq bir ənənəyə çevrildiyini bildirən ulu öndər bu görüşlərin dünya iqtisadi sisteminə uğurlu inteqrasiyaya, yeni Avrasiya nəqliyyat dəhlizləri layihələrinin həyata keçirilməsinə, Transxəzər enerji magistrallarının çəkilməsinə, Böyük İpək yolunun dirçəldilməsinə böyük perspektivlər yaratdığını vurğulamışdır. Ümummilli lider, həmçinin 1996-cı ilin may ayında Türkmənistanın Səraxs şəhərində Transqafqaz nəqliyyat dəhlizi haqqında imzalanmış sazişin uğurla həyata keçirildiyini və bunun nəticəsində Avropadan Asiyaya daşınan yüklərin miqdarının xeyli artdığını, Bakı-Ceyhan boru kəmərinin çəkilişinin davam etdiyini bildirmişdir.

TRASEKA proqramı üzrə "Avropa-Qafqaz-Asiya" nəqliyyat dəhlizinin yaradılmasına dair Avropa Birliyinin layihəsinin həyata keçirilməsi üzrə işlərin sürətlə aparıldığını və sentyabr ayında layihədə iştirak edən ölkələrin dövlət və hökumət başçılarının Zirvə görüşünün keçirilməsinin nəzərdə tutulduğunu diqqətə çatdırmışdır.

Ulu öndər xalqlarımızın mənəvi irsinin qorunub saxlanmasında, təbliğində Zirvə görüşlərinin əhəmiyyətindən danışaraq qırğızların "Manas" eposunun minilliyinin, özbək xalqının böyük oğlu Əmir Teymurun 660 illiyinin, Şərqin görkəmli mütəfəkkiri, Azərbaycan şairi Füzulinin 500 illiyinin, böyük qazax şairi Abayın 150 illiyinin böyük təntənə ilə keçirilməsinin ümumtürk xalqlarının mədəni həyatında mühüm hadisə olduğunu bildirmiş və 1999-cu ildə türk dünyasının sərvəti hesab olunan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin Azərbaycanda UNESCO ilə birlikdə keçiriləcəyini qeyd etmişdir.

Təhlükəsizlik məsələlərinə toxunan ümummilli lider silahlı münaqişələrə, separatizm, təcavüzkar millətçilik təzahürlərinə, mövcud dövlət sərhədlərini zor gücünə dəyişdirmək, müstəqil dövlətlərin ərazi bütövlüyünü pozmaq cəhdlərinə yol verməmək üçün türk dövlətlərinin səylərinin birləşdirməsinin vacibliyini diqqətə çatdırmış və bu kontekstdə Ermənistanın təcavüzkarlıq siyasəti nəticəsində Azərbaycanın ərazilərinin 20 faizdən artıq hissəsinin işğal olunduğunu bildirmişdir. Prezident Heydər Əliyev ölkəsinin Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarı olduğunu bəyan etmiş və uzunmüddətli sülhə nail olunması üçün mühüm addımlar atıldığını diqqətə çatdırmışdır. Zirvə görüşündə çıxışı zamanı Azərbaycanın dövlət başçısı qətiyyətlə bildirmişdir ki, Ermənistan tərəfindən işğal olunmuş ərazilər azad edilməli, dinc sakinlər doğma yurd yerlərinə qayıtmalıdırlar.

Türkdilli dövlətlərin forumunun fəaliyyətini dəstəkləyən ulu öndər bu görüşlərin dövlətlərimizin müstəqilliyinin möhkəmləndirilməsində, siyasi və iqtisadi islahatların aparılmasında, xalqlarımızın rifah halının yaxşılaşdırılmasında rolunu və əhəmiyyətini yüksək qiymətləndirmişdir. Heydər Əliyevin sammitdə fəal iştirakı onun türk dünyasının inteqrasiyasının və regional birliyin təşviqində liderlik rolunu nümayiş etdirmişdir. Ulu öndərin vahid və firavan türk birliyi ilə bağlı tövsiyələri türk dövlətləri arasında gələcək əməkdaşlığın əsasını qoymuşdur.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

# Dövlətimizin və xalqımızın xilası missiyası

**Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyev 1993-cü il iyunun 9-da Bakıya qayıdışı ilə xalqımızın müstəqillik tarixinin ən mühüm səhifəsini yazdı.**

Tarixə nəzər saldıqda görərik ki, Azərbaycanın müstəqilliyinə təhlükə olan məqamlar çox olsa da, 1993-cü ilin Gəncə hadisələri daha mürəkkəb xarakteri ilə seçilir. Surət Hüseynovun qiyamçı dəstələri AXC-Müsavat iqtidarını devirmək üçün Bakıya üz tutdular. Həmin vaxt Naxçıvan MR Ali Məclisinin Sədri olan Ümummilli Lider Heydər Əliyev zəngin təcrübəsinə əsaslanaraq çox yaxşı dərk edirdi ki, paytaxt Bakıda yaranan xaosun, anarxiyanın, özbaşınalıqların davamı kimi Gəncədə baş verənlər Azərbaycanın hərtərəfli məhvinə yönəldilmiş cinayət, AXC-Müsavat iqtidarının yanlış əməllərinin, səriştəsizliyinin nəticəsidir.

Həmin dövrdə Ulu Öndər 91 nəfər ziyalının xalqın böyük əksəriyyətinin istəyini ifadə edərək bu gün ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının yaradılması ilə bağlı ona ünvanladıqları müraciətə cavabında müstəqilliyimizi tarixi nailiyyətimiz kimi önə çəkərək onun qorunmasını hər kəsin qarşısına vətəndaşlıq borcu kimi qoymuşdur. Ümummilli Lider bildirmişdir ki, iyun ayının 4-də Gəncə şəhərində başlanan və davam edən hadisələr zamanı şəhərdə qan tökülüb, normal həyat pozulub, faktiki olaraq vətəndaş müharibəsi başlanıb.

Cəmi 1 il qara qüvvələrin iqtidarda olduğu dövr Azərbaycanın yeni tarixinin ən faciəli illəri idi. AXC-Müsavat cütlüyünün hakimiyyəti ölkədə anarxiya, xaos, özbaşınalığın tüğyan etməsi, iqtisadiyyatın çökməsi, əhalinin sosial durumunun son dərəcə ağırlaşması, torpaqların işğalı ilə yadda qaldı. 1993-cü ildə Azərbaycan dövlət müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalanda xalq xilas yolunu axtardı.

Xalqın təkidli xahişi ilə 1993-cü il iyunun 9-da Bakıya qayıdan Ulu Öndər xilaskarlıq missiyasını yerinə yetirərək Azərbaycanı inkişaf, tərəqqi yoluna çıxardı. Vətəndaş qarşıdurmasının dayandırılması, dövlət müstəqilliyinin xilası bu tarixdən başlandı. İyunun 13-14-də ziyalılardan, ağsaqqallardan ibarət qrupla Gəncəyə gedən Ümummilli Lider Heydər Əliyev Surət Hüseynovla, sadə vətəndaşlarla, hərbçilərlə görüşərək siyasi böhranın, qarşıdurmanın aradan qaldırılması üçün söhbətlər apardı, çıxış yolları barədə faydalı, müdrik tövsiyələrini verdi. Zərərçəkən, əzizlərini itirən gəncəlilərə mənəvi dəstək oldu.

İyunun 15-də keçirilən Ali Sovetin fövqəladə sessiyasında deputatların yekdil səsverməsi ilə Ümummilli Lider Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bu seçim ilə müstəqilliyimizin əbədiliyinin təməli qoyuldu. Tarixə Milli Qurtuluş Günü kimi yazılan 15 iyundan başlanan yol 2020-ci ildə xalqımıza Zəfər sevincini yaşatdı. Düşünülmüş və məqsədyönlü siyasət nəticəsində Azərbaycana möhtəşəm uğurlar qazandıran Ulu Öndər Heydər Əliyevin söylədiyi "Azərbaycan dünyaya günəş kimi doğacaq" tezisi reallıqda öz əksini tapdı. Azərbaycanın müstəqilliyinin əbədiliyi təmin edildi. İmzalar arasında imzaları ilə seçilən müasir müstəqil Azərbaycan Ulu Öndər Heydər Əliyevin şah əsəri olaraq daim inkişaf edir, davamlı uğurlara imza atır.

Son 20 ildə Heydər Əliyev siyasətini bütün istiqamətlərdə məqsədyönlü şəkildə davam etdirən Prezident İlham Əliyevin gördüyü işlərin zirvəsində ata vəsiyyətini yerinə yetirərək Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, işğaldan azad edilmiş torpaqlarımızda üçrəngli bayrağımızı dalğalandırmaq dayanırdı. Şükürlər olsun ki, Müzəffər Ali Baş Komandanımız bu məqsədinə nail oldu. Şübhəsiz, Azərbaycan bundan sonra daha da inkişaf edəcək, regionda liderliyini qoruyacaq.

**İsrafil KƏRİMOV,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü.**

# Azərbaycan-Qazaxıstan münasibətlərinin təşəkkülünə dəyərli töhfə

*Türk xalqı tarix boyu bəşəriyyətə öndərlər, liderlər, görkəmli şəxsiyyətlər bəxş etmişdir. Məhz ulu öndər Heydər Əliyev də Azərbaycanın yetişdirdiyi dahi lider olaraq ehtiramla anılır. Ümummilli liderin şöhrəti bir xalq, bir ölkə, bir qitə ilə məhdudlaşmayıb, bütün dünyanı əhatə etmişdir. Heydər Əliyev 34 illik siyasi fəaliyyəti dövründə Azərbaycanın hərtərəfli inkişafına səy göstərmiş, müstəqilliyinin möhkəmləndirilməsinə, dünya birliyində layiqli yer tutmasına mühüm töhfələr vermişdir. Ulu öndər müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusudur.*

Türk Dünyası ilə əlaqələrin qurulmasında atılan uzaqgörən addımlar bu gün öz nəticələrini verir. Ulu öndər Heydər Əliyevi bütün türk dünyası öz doğma oğlu hesab edir. Zaman keçdikcə dahi liderə olan hörmət və ehtiram daha da artır. Bu səbəbdən də ümummilli lider yalnız Azərbaycanın deyil, həm də türk dünyasının əvəzolunmaz şəxsiyyətidir.

Xüsusi vurğulamaq lazımdır ki, Orta Asiyada Azərbaycanın ən yaxın müttəfiqi və strateji tərəfdaşlarından biri Qazaxıstan Respublikasıdır. Bu iki ölkə Avrasiyada həm coğrafi, həm də təbii ehtiyatlar baxımından mühüm önəm daşıyır. Bununla yanaşı, Azərbaycan və Qazaxıstan Xəzər dənizinin hüquqi statusu, enerji daşıyıcılarının hasilatına xarici kapitalın cəlb edilməsi və dünya bazarlarına çıxarılması məsələsində eyni mövqedən çıxış edirlər. 1991-2005-ci illərdə iki ölkə arasındakı əlaqələr ictimai, siyasi, iqtisadi, mədəni və beynəlxalq əməkdaşlığa əsaslanmış və ikili münasibətlər sağlam təməllər üzərində qurulmuşdur. Qeyd edək ki, həmin dövr ərzində Azərbaycan və Qazaxıstan arasında 83 sənəd imzalanmışdır. Bu müqavilələr əsasında iki ölkə arasında geniş hüquqi-normativ baza yaradılmışdır.

Qeyd edilən müddət ərzində öz tarixi önəmi ilə diqqətçəkən hadisə heç şübhəsiz, 9-10 iyun 1998-ci il tarixlərində Heydər Əliyevin Qazaxıstanın yeni paytaxtı Astana şəhərində türkdilli dövlət başçılarının V Zirvə toplantısında iştirak etməsidir. Mərasimdə ulu öndər demişdir: "Qazax xalqının ən xoşbəxt dövrü onun öz dövlət müstəqilliyini əldə etdiyi, milli azadlıq qazandığı və öz problemlərini özünün həll etmək, öz müqəddəratını özünün müəyyənləşdirmək imkanı tapdığı dövrdür. Elə bugünkü tarixi hadisə - Qazaxıstanın yeni paytaxtı Astana şəhərinin əsasının qoyulması hadisəsi də qazax xalqının, Qazaxıstanın dövlət müstəqilliyinin və Milli azadlığının nəticəsidir". Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin həmin dövrdə müasir standartlara cavab verən şəhəri ərsəyə gətirməsi və Astananın təkcə Qazaxıstanın yox, türk dünyasının da fəxr yeri olması olduqca mürəkkəb hesab edilən dövrdə təqdirəlayiq hadisə idi. Ulu öndər çıxışında Nursultan Nazarbayevi təbrik edərək qazax xalqının sevincini bölüşmüşdür. Türkdilli dövlət başçılarının V Zirvə toplantısı zamanı da Heydər Əliyev türk xalqlarının birliyindən bəhs etmiş və bir sıra layihələr üzrə atılan addımlardan söhbət açmışdır: "Türkdilli dövlətlərin başçılarının zirvə görüşü yaxşı ənənəyə çevrilmişdir və bu ənənə bizə problemlərimizi birlikdə, qardaşlıq şəraitində müzakirə etməyə, məsələlərin geniş dairəsi barədə fikir mübadiləsi aparmağa, gələcək üçün planlar müəyyənləşdirməyə imkan verir".

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında əlaqələrin inkişafında 1994-cü il oktyabrın 19-da türk dövlətləri başçılarının II Zirvə toplantısı mühüm rol oynadı. Zirvə toplantısında Türkiyə Prezidenti Süleyman Dəmirəl, Azərbaycan Prezidenti Heydər Əliyev, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Özbəkistan Prezidenti İslam Kərimov, Türkmənistan Prezidenti Saparmurad Niyazov və Qırğızıstan Prezidenti Əsgər Akayev bəyannamə imzaladılar. İstanbul bəyannaməsini imzalamaqla türkdilli dövlət başçıları iqtisadi əməkdaşlığı, mədəni əlaqələri daha da inkişaf etdirmək yolunda mühüm addım atdılar. Burada Prezident Heydər Əliyevin müstəqil Azərbaycanın rəhbəri kimi Qazaxıstan Prezidenti Nursultan Nazarbayevlə ilk görüşü oldu. Dövlət başçılarının növbəti görüşü 1995-ci il fevralın 9-da Almatıda keçirilən MDB ölkələri dövlət başçılarının zirvə toplantısında reallaşdı. Həmin il dövlət başçıları faşizm üzərində qələbənin 50 illik yubiley tədbirində yenidən görüşdülər. Növbəti dəfə, 1995-ci il oktyabrın 25-də BMT-nin 50 illik yubileyi ilə bağlı keçirilən tədbirdə Prezidentlər Heydər Əliyev və Nursultan Nazarbayev qarşılıqlı maraq doğuran məsələləri və Azərbaycan-Qazaxıstan münasibətlərinin gələcək inkişafını müzakirə etdilər.

1996-cı il mayın 14-də İqtisadi Əməkdaşlıq Təşkilatının (EKO) üzvü olan ölkələrin dövlət başçılarının zirvə toplantısında Heydər Əliyev və Nursultan Nazarbayev yenidən görüşdülər və bu zaman ulu öndər Qazaxıstan Prezidentini Azərbaycana rəsmi səfərə dəvət etdi. 1996-cı il sentyabrın 16-da baş tutan səfər çərçivəsində iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığa dair sazişlər imzalandı.

Azərbaycan ilə Qazaxıstan arasında diplomatik, mədəni, sosial, siyasi və iqtisadi sahədə münasibətlər uğurla inkişaf etməkdədir. Müasir dövrümüzdə ikitərəfli əlaqələrdə Heydər Əliyev ideyalarının rolu danılmazdır. Ulu öndər Heydər Əliyevin türk xalqının böyük oğlu kimi əziz xatirəsi Qazaxıstanda da ehtiramla anılır. Buna əsas kimi Qazaxıstan Respublikası Prezidentinin tapşırığına əsasən paytaxtın ən iri küçələrindən birinə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adının verilməsini göstərmək olar. Astana şəhərində Heydər Əliyev küçəsinin təntənəli açılış mərasimi zamanı Prezident Kasım-Jomart Tokayev demişdir: "Biz yaxşı xatırlayırıq, o, qazaxlar haqqında həmişə səmimi sözlər deyir, bizim soykökümüzün və irsimizin ortaq olmasını vurğulayırdı".

Bununla yanaşı, yaxın tarixdə Qazaxıstan Respublikasının Milli Akademik Kitabxanasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Beynəlxalq Türk Akademiyası və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun birgə təşkilatçılığı ilə "Heydər Əliyev və Türk Dünyası" adlı beynəlxalq konfrans da keçirildi. Konfransda çıxış edən Qazaxıstan Respublikasının informasiya və sosial inkişaf naziri Darhan Kıdırali bildirdi ki, Qazaxıstanla Azərbaycan arasındakı tarixi və mədəni əlaqələrin inkişafının təməlini Heydər Əliyev qoymuşdur. Nazir çıxışında Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana səfəri zamanı Heydər Əliyevin 100 illik yubileyinin qeyd olunmağa başladığını və il ərzində Qazaxıstanda bir çox tədbirlərin keçiriləcəyini diqqətə çatdırmışdır.

**Nurlan ABDALOV,**
**"Respublika".**

***1993**-cü il iyunun 9-da hər zaman xalqının yanında olan və onun arzu-istəklərinin reallaşdırılması üçün öz canını belə əsirgəməyən ulu öndər Heydər Əliyev Naxçıvandan Bakıya qayıtmaqla xalqın ölməkdə olan ümidlərini özünə qaytardı. Həmin gün ölkəmizin taleyində dönüş anı oldu, böyük qurtuluşa doğru mühüm addım atıldı. Xalqımızın ümummilli lideri Heydər Əliyevin ölkə paytaxtına qayıdışı ilə müstəqil dövlətçiliyimiz parçalanmaq və məhv olmaq təhlükəsindən, iqtisadi tənəzzüldən, beynəlxalq təcriddən xilas edildi.*



# Nicata aparan yol

1993-cü ilin iyununda Gəncədə baş verən hadisələrin üzərindən xeyli müddət keçməsinə baxmayaraq, hələ də onun təhlilinə ehtiyac duyulur. Bu hadisələr, ilk növbədə, ciddi təəssüf hissi ilə xatırlanır. Çünki ötən əsrdə ikinci dəfə öz müstəqilliyini qazanmış Azərbaycan Gəncə hadisələri fonunda yenidən suverenliyini itirmək təhlükəsi ilə üzləşmişdi. Bunun da başlıca səbəbi ovaxtkı hakimiyyətin səriştəsizliyi, idarəçilik təcrübəsinin olmaması idi. AXC-Müsavat hakimiyyətinin yaratdığı anarxiya, xaos, özbaşınalıq, cəbhə bölgələrində bir-birinin ardınca baş vermiş uğursuzluqlar Gəncə hadisələrini şərtləndirən başlıca faktorlar sırasında yer alırdı. Hadisələrin xronoloji ardıcıllığı belə idi.

4 iyun 1993-cü ildə Gəncədə Azərbaycan ordusunun keçmiş korpus komandiri Surət Hüseynovun başçılıq etdiyi hərbi qüvvələrlə hökumət qüvvələri arasında silahlı toqquşma baş verdi. S.Hüseynovun nəzarətində olan 709 saylı hərbi hissənin tərk-silah edilməsi ilə bağlı həyata keçirilən əməliyyat uğursuz oldu, silahlı toqquşmada 35 nəfər həyatını itirdi. Gəncəyə göndərilmiş hökumət rəsmiləri S.Hüseynovun dəstəsi tərəfindən girov götürüldülər. Bu hadisə Azərbaycanda dərinləşməkdə olan hərbi-siyasi böhranı kritik həddə çatdırdı, ölkə vətəndaş müharibəsi astanasına gəldi. 8 iyun 1993-cü ildə Gəncə hadisələri ilə bağlı ölkədə böhran dərinləşdi. Surət Hüseynovun tabeçiliyindəki silahlı birləşmələr Gəncəbasar bölgəsində yerli hakimiyyət strukturlarını devirərək Bakıya doğru hərəkət etməyə başladılar.

Ölkədə vəziyyət son dərəcə ağırlaşmışdı. Hətta bir sıra ərazilərdə, Gəncədə, Lənkəranda, Qusarda və digər regionlarda bəzi silahlı birliklər separatçı iddialarla çıxış edir, mərkəzi hakimiyyətə tabe olmadıqlarını bildirirdilər. Azərbaycan ikinci dəfə qazandığı müstəqilliyini əldən vermək üzrə idi. 1992-ci ildə iqtidara gələn AXC-Müsavat cütlüyü hakimiyyətdə qaldığı bir il ərzində ölkəni bərbad vəziyyətə salmışdı. Ölkədə qanunsuz silahlı quldur dəstələri meydan sulayır, iqtidarın səriştəsizliyi nəticəsində xalq iqtisadi böhranın məngənəsində boğulurdu.1993-cü il iyunun 4-də Gəncədə başlayan qanlı hadisələr Azərbaycan xalqını milli istiqlalını itirmək təhlükəsilə üz-üzə qoymuşdu. AXC-Müsavat iqtidarı bu təhlükənin qarşısını almaq gücündə deyildi.

7 iyun 1993-cü ildə Naxçıvan MR Ali Məclisi və Nazirlər Kabineti Rəyasət heyətlərinin birgə iclası oldu. Ali Məclisin Sədri Heydər Əliyev iclasda çıxış edərək bildirdi ki, Gəncədə baş vermiş hadisələrə Naxçıvan MR Ali Məclisi münasibət bildirməli və bəyanat qəbul olunmalıdır. Bizim bəyanatımız xalq birliyinə, sülhə və barışığa yönəlməlidir. Bu cinayətkarlığın təşkilatçıları məsuliyyətə cəlb olunmalıdır. Biz bu bəyanatda hadisələrə siyasi qiymət verməliyik. Xalq faciə - vətəndaş müharibəsi qarşısındadır. Buna heç cür yol vermək olmaz.

Gəncə hadisələrindən sonra ölkədə hər kəs ulu öndərin Bakıya qayıtmasını israrla tələb edir, itirilmiş dövlətçiliyin xilasını Heydər Əliyevdə görürdü. Təkcə Bakıdan deyil, ölkənin hər yerindən Heydər Əliyevə göndərilən minlərlə məktubun məzmunu belə idi: "Sizin Bakıya qayıtmağınız bizlərdən çox Anamız Azərbaycana lazımdır". Həmin vaxt deputatlar, hökumət üzvləri, hətta o zamankı prezident başda olmaqla, bütün dövlət mənsubları ümummilli liderə müraciət göndərib onu paytaxta dəvət edirdilər. Ulu öndər sonralar həmin vaxtları xatırlayaraq deyirdi: "1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı, ovaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi, qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycan ərazisinin, demək olar ki, yarıdan çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək, məni Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən ovaxtkı iqtidar belə bir zamanda əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri, ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər".

Belə bir ağır vəziyyətdə, 1993-cü il iyunun 9-da Ulu Öndər Heydər Əliyevin xalqın çağırışına səs verərək Bakıya qayıdışı ölkəmizi bəlalardan, müsibətlərdən xilas etdi. İyunun 13-də Heydər Əliyev vəziyyətlə yerində tanış olmaq üçün Gəncə şəhərinə gəldi, döyüş meydanına çevrilmiş hərbi hissələrin ərazisini gəzdi. Bu müdrik siyasətçinin şəhərə gəlişi əhalidə gələcəyə böyük inam yaratdı. O, şəhər sakinləri, hərbi qulluqçularla görüşüb, söhbət etdi. Hər şeyi ətraflı öyrənəndən sonra, iyunun 15-də Milli Məclisin növbəti iclasında Gəncə hadisələri barədə öz qəti sözünü dedi: "Hadisələr dəhşətlidir, qan tökülüb, cinayət edilib. Bunlar araşdırılmalıdır və bütün qanunu pozmuş adamlar, cinayətdə iştirak etmiş adamlar, cinayəti təşkil etmiş hansı tərəfdən asılı olmasına baxmayaraq, qanun qarşısında məsuliyyət daşımalıdır".

O dövrün təhlili belə bir fikri təsdiq edir ki, xalqımızı nicata aparan yol bilavasitə iyunun 9-da başlandı. Həmin gün ulu öndər Heydər Əliyev Azərbaycanın milli dövlətçilik ənənələrinin bərpa edilməsi və möhkəmləndirilməsi istiqamətində çox mühüm bir addım atdı. Bütün siyasətçilər haqlı olaraq bu addımların qurtuluş məfkurəsinə istinad edərək atıldığını söyləyirlər. İyunun 13-də çağırılan Azərbaycan Respublikasının Milli Məclisinin fövqəladə sessiyası iyunun 15-də öz işini davam etdirdi. Gündəlikdə bir məsələ dururdu: Respublika Ali Soveti sədrinin seçilməsi. Bəzi təkliflərin olmasına baxmayaraq, deputatlar bir səslə Ali Sovet sədrinin seçilməsi məsələsini gündəliyə daxil etməyi qərara aldılar. Gizli səsvermə yolu ilə Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini, Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əlirza oğlu Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. 15 iyun günü xalqı məşəqqətlərdən qurtaran Heydər Əliyevin Bakıya dönüşü milli-mənəvi dəyərlərimizə, məfkurəmizə, varlığımıza, tarixi qəhrəmanlığımıza qayıdış günü oldu. 1993-cü ilin 15 iyunu tariximizə Milli Qurtuluş Günü kimi yazıldı. O zaman Heydər Əliyev hakimiyyətə qayıdışı ilə yaranan vətəndaş müharibəsinin qarşısını almaqla Azərbaycanı bölünmək, yox olmaq təhlükəsindən bir daha qorudu.

Dövlət başçımız bildirib ki, "1993-cü ildə ölkəmizin düşdüyü ağır vəziyyət ölkə həyatının bütün sahələrinə mənfi təsir göstərirdi. Tənəzzülün nəticələrini aradan qaldırmaq, sabitliyə nail olmaq, əlbəttə ki, böyük siyasi təcrübə, bacarıq, cəsarət tələb edirdi. Ulu öndər Heydər Əliyevin qətiyyəti, onun siyasi müdrikliyi, dünyadakı nüfuzu, cəsarəti və təcrübəsi, Azərbaycan xalqının Heydər Əliyev siyasətinə öz dəstəyini verməsi bu gün Azərbaycanı nəinki bölgədə, dünyada ən dinamik və sürətlə inkişaf edən ölkələrdən birinə çeviribdir". Əminliklə demək lazımdır ki, əgər Ümummilli Lider həmin vaxt Bakıya qayıtmasaydı, hakimiyyət daxilində gedən didişmələrin nəticəsi çox ağır olacaqdı. Heydər Əliyev güclü Lider kimi Azərbaycanı fəlakətdən qurtarıb inkişaf yoluna yönəltdi, müstəqilliyimizi əbədi etdi. İlham Əliyev isə güclü Lider olaraq Azərbaycanı qüdrətli dövlətə çevirdi, ərazi bütövlüyümüz bərpa olundu.

**Mustafa KAMAL,**
**"Respublika".**

# Ümummilli Lider
## xaosa sürüklənən Azərbaycanı xilas etdi

**"Xəstə Azərbaycan sizin əlinizdə şəfa tapacaq", "Heydər baba, qurtar bizi bu bəladan". 1993-cü il iyunun 9 da hava limanının qarşısına toplaşan insanlar bu şüarlarla Heydər Əliyevi qarşılamağa gəlmişdilər. Ümummilli lider təyyarədən düşən kimi qurbanlar kəsilmiş, insanlar onu əhatəyə almışdı. Uzun zamandan bəri gözlədikləri bir xilaskarın gəlişinə sevinirdi insanlar. Şərq coğrafiyasında yerləşən xalqlar hər zaman dar günlərində bir xilaskarın gələcəyinə, həmin rəhbərin çətin məqamda onları qaranlıq gecələrdən aydın səhərlərə çıxaracağına inanırdılar. Xalqımız da belə durumda idi.**

Belə situasiyalarda yalnız Yaradan tərəfindən seçilmiş insanlar bu ağır məsuliyyəti çiyinlərində daşımağa müvəffəq olublar. Tanrı Azərbaycanda xilaskarlıq missiyasını yerinə yetirə bilən dahi şəxsiyyət bəxş etmişdi. Həqiqətən də dünyada çox az sayda rəhbər var ki, uçurumun kənarında olan bir məmləkəti, bu gün qloballaşan dünyamızın ən vacib ölkələrindən birinə çevirsin. Əslində ulu öndər 1993-cü ildə hakimiyyətə qayıtması ilə təkcə Azərbaycanı və onun xalqını deyil, Avrasiya materikinin ən vacib regionunu, bu gün Azərbaycanla strateji müttəfiq və tərəfdaş olan ölkələri də müəyyən mənada hansısa problemlərdən xilas edib.

XX əsrdə 2-ci dəfə müstəqillik qazanan ölkəmiz yenə eyni aqibətlə üzləşməyə çox yaxınlaşmışdı. Məlum Gəncə hadisələri dövlətin varlığına təhdidləri artırırdı. Təhdidlər isə Bakının astanasında dayanmışdı. Bir dövlətin paytaxtına verilən ultimatum belə idi: "Bakıya gəlib dar ağacı qurub hər kəsi asacam". Vəziyyətin çıxılmaz olduğunu görən rəhbərlik çıxış yolu kimi Naxçıvan Ali Sovetinin sədri Heydər Əliyevi Bakıya dəvət etmişdi. Şəxsən Əbülfəz Elçibəy ümummilli liderin Bakıya gəlməsini istəyirdi. Həmin ərəfədə iqtisadi-siyasi kollaps dövrünün ən pik həddini yaşayan Azərbaycana şəfa verəcək tək insan da Heydər Əliyevdən başqası deyildi. Hər zaman olduğu kimi, Azərbaycan xalqı da bu məsələdə eyni çağırışa qoşulmuş, Naxçıvanda yaşayan rəhbəri ikinci dəfə siyasi hakimiyyətə qayıtmağa səsləyirdi. Problemlərdən, iqtisadi-siyasi gərginliklərdən təngə gələn, sosial rifah halının hər gün geriyə getdiyini görən insanlar vətəndaş müharibəsinin qurbanına çevrilmək istəmirdi.

Ona görə də tez bir zamanda böyük-kiçik, cavan-qoca hər kəs Heydər Əliyevin ətrafında bir yumruq kimi birləşdi və bütöv Azərbaycan qurmağa nail oldu. O Azərbaycan ki, bir vaxtlar siyasi xəritədən silinmək təhlükəsi ilə üz-üzə qalmışdı və heç bir xarici ölkənin də marağında deyildi. Zəngin sərvətə malik olsaq da, xarici dövlət və şirkətlər vətəndaş müharibəsinin cənginə aldığı, hakimiyyətin idarə edə bilmədiyi ölkəyə investisiya qoyuluşu etmək böyük risk tələb edirdi.

Surət Hüseynovun qarşısını almaqda acizlik göstərən AXC-Müsavat rəhbərlərinin ölkə daxilində sabitliyi qoruyub saxlaya bilməməsi separatizm meyillərinin güclənməsinə səbəb olmuşdu. Həmin məqamda da ən böyük təhlükə təbii ki, bədxah qonşumuzdan gəlirdi. Surət Hüseynovun hakimiyyətlə çəkişməsi və ordunun böyük bir qismini cəbhədən geri çəkərək vətəndaş müharibəsinə təhrik etməsi müharibədə məğlubiyyətimizi qaçılmaz edirdi. Ümummilli liderimizin qarşısında ölkənin hər sahəsində hökm sürən xaos və anarxiyanı müalicə etmək kimi çətin çağırışlar dururdu. Niyyəti və amalı vəzifə olmayan Heydər Əliyev Bakıya gəldikdən sonra ona vəzifə təklif olunsa da dərhal Gəncəyə gedib silahlı qarşıdurmaların səbəbini araşdırmaq üçün tez bir zamanda işə başlamışdı. Dönəmin dövlət başçısının öz postunu tərk edərək Kələkiyə qaçması faktiki olaraq bütün yükü onun üzərinə qoymuşdu. Azərbaycanın belə ağır məqamlarında yüksək dözümlülük göstərən, səbir və təmkinlə xalqının xilasını fikirləşən ulu öndər təktənha bütün problemlərdən çıxış yolu tapmaq üçün gecə-gündüz çalışaraq yenicə qazanılmış müstəqilliyimizi qoruyub saxlaya bildi. Ulu öndər Heydər Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində Azərbaycan dünyaya inteqrasiya olundu. Məhz Azərbaycan xalqı Heydər Əliyev ilə birlikdə öz tarixinin ən şərəfli və ən mürəkkəb dövrünü uğurla başa vurdu.

Daxili və xarici düşmənlərimiz Azərbaycan Respublikasının müstəqil bir dövlət kimi yaşamasının qarşısını almaq, onun daha da inkişaf edib yüksək tərəqqiyə qovuşmuş dövlətlərin sırasına çıxmasına maneə olmaq üçün əllərindən gələni edirdilər. Siyasətdə olduğu gündən xalqın yanında olan və xalqın arzu-istəklərinin həyata keçməsi üçün öz sağlamlığını belə əsirgəməyən ulu öndər 1993-cü il iyunun 9-da muxtar respublikadan Bakıya qayıtmaqla xalqın ölməkdə olan ümidlərini özünə qaytarmışdı. 9 iyun tarixi birmənalı olaraq, ölkəmizin taleyində mühüm dönüş nöqtəsi oldu.

**Musa BAĞIRLI,**
**"Respublika".**




# Möhtəşəm Qayıdış

*Hər bir millət üçün onun azadlığı, müstəqilliyi ən ümdə vəzifələrdən biridir. Xalqımızın da dövlətçilik tarixi qədimdir. Məskunlaşdığımız bölgədə müəyyən mərhələdə baş verən hadisələr xarici təcavüz və müharibələr nəticəsində Azərbaycan dövlət müstəqilliyi müvəqqəti olaraq itirilmişdir. Lakin xalqımız müstəqilliyin, istiqlalın bərpası ideyası və onun reallaşması uğrunda mübarizəni davam etdirmişdir. Rusiya imperiyasının tərkibinə daxil olduğu dövrdə 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi də xalqımızın müstəqillik, demokratiya uğrunda apardığı mübarizənin məntiqi nəticəsi idi. Cəmi 23 ay fəaliyyət göstərsə də, Azərbaycan Xalq Cümhuriyyəti xalqın yaddaşında böyük iz qoydu. Demokratik Azərbaycan dövlətinin süqutundan sonra ölkəmiz 70 il sovet kommunist rejiminin tərkibində oldu. 1991-ci ildə bu rejimin süqutundan sonra ittifaqa daxil olan digər müttəfiq respublikalar kimi, Azərbaycan da öz müstəqilliyini bərpa etdi. Onu qoruyub saxlamaq isə o qədər də asan olmadı. Bu taleyüklü məsələnin həlli xalqımızın ümummilli lideri Heydər Əliyevin üzərinə düşdü. O, bu missiyanı layiqincə yerinə yetirdi. Çünki ulu öndər hələ respublikaya rəhbərliyinin sovet dönəmində ölkəmizin gələcək müstəqilliyini öncədən görür və həyata keçirdiyi tədbirlərin çoxunu məhz buna hədəfləyirdi.*

## 1993-cü il iyunun 9-da ulu öndər Heydər Əliyev Naxçıvandan Bakıya gəldi

1991-ci ildə müstəqillik əldə olunsa da, bu, formal xarakter daşıyırdı, çünki hakimiyyətdə olan dairələr əslində, suverenliyin əleyhinə fəaliyyət göstərirdilər. 1992-ci ildə hakimiyyətə gələn Xalq Cəhbəsi isə ölkənin problemlərini həll etmək iqtidarında deyildi. 1992-1993-cü illərdə ölkədə siyasi böhran daha da dərinləşmişdi.

1993-cü ilin iyun ayında Gəncədə Surət Hüseynovun rəhbərlik etdiyi hərbçilərin Xalq Cəbhəsi hakimiyyətinə qarşı qiyamı Azərbaycan dövlətini mənəvi, siyasi, hərbi böhran vəziyyətinə saldı. Müstəqilliyimizin itirilməsi təhlükəsi yarandı.

Belə bir çətin zamanda xalqın nəzəri Naxçıvana yönəlmişdi, çünki nicatını Heydər Əliyevdə görürdü. Beləliklə, ulu öndər Heydər Əliyev xalqın və respublikanın ovaxtkı rəhbərliyinin təkidli dəvətini qəbul edib iyunun 9-da Bakıya gəldi, çox qısa zamanda Azərbaycanda vətəndaş müharibəsinin qarşısını ala bildi. Ümummilli lider Heydər Əliyevin Bakıya gəlişi respublika əhalisində gələcəyə böyük ümidlər yaratdı. Ulu öndər Gəncəyə getdikdən, hər şeyi yerli-yataqlı öyrəndikdən sonra Milli Məclisin növbəti iclasında hadisələr barədə öz qəti sözünü dedi: "Hadisələr dəhşətlidir, qan tökülüb, cinayət edilib. Bunlar araşdırılmalıdır və bütün qanunu pozmuş adamlar, cinayətdə iştirak etmiş, cinayəti təşkil etmiş adamlar, hansı tərəfdən asılı olmasına baxmayaraq, qanun qarşısında məsuliyyət daşımalıdır".

Bu gün Gəncə hadisələrindən 30 il ötür. İllər ötsə də, tariximizin bu qara ləkəsi unudulmur. 4 iyun Gəncə qiyamı o dövrdə Azərbaycanın müstəqilliyini, bütövlüyünü istəməyən qüvvələr tərəfindən məqsədli şəkildə istiqamətləndirilən proseslərin məntiqi nəticəsi idi.

Hələ ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəli keçmiş ittifaqın dağılması dövrü idi və təəssüf ki, bu proses müəyyən konfliktlər, gərginliklər, xalqların öz müqəddəratını həll etmələrinə ciddi maneələr törədilməsi fonunda gedirdi. Bu baxımdan, ən ağrılı hadisələr məhz Azərbaycanda baş verdi. Belə ki, qonşu Ermənistan Moskvadakı havadarlarının, ilk növbədə, keçmiş SSRİ-nin o zamankı rəhbəri Mixail Qorbaçovun dəstəyilə Azərbaycanın Qarabağ bölgəsinə iddialar səsləndirməyə başladı. Sonradan bölgədə silahlı dəstələr yerləşdirildi və həmin torpaqların zorla Azərbaycandan qoparılması üçün hərbi əməliyyatlara başlandı.

1991-ci ildə Mütəllibovun, 1992-ci ildə Xalq Cəbhəsinin hakimiyyətə gəlməsilə respublikada vəziyyət daha da idarəolunmaz hal aldı. AXC-Müsavat hakimiyyətinin daxilində bir-birilə mübarizə aparan qruplar yaranmışdı və onların məqsədləri də fərqli idi. Xarici kəşfiyyat orqanları da istədikləri kimi hərəkət edir, daxili siyasətə ciddi təsir göstərirdi. Qarşıdurmalar getdikcə artır, hakimiyyətin parçalanması daha da intensivləşirdi. Azərbaycan özünün müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmişdir. Ən qorxulu hal isə siyasi qarşıdurmanın artıq hərbi qarşıdurmaya çevrilməsi idi. Ordu faktiki olaraq bir neçə səhra komandirinin nəzarəti altına keçmişdi. Hadisələrin belə gedişatı 1993-cü il iyunun 4-də hakimiyyətin ayrı-ayrı qolları arasında hərbi qarşıdurmaya gətirib çıxardı. Surət Hüseynovun başladığı 4 iyun qiyamı həm də Azərbaycanda AXC-Müsavat iqtidarının heç bir təsirə və rola malik olmadığının göstəricisi idi.

Beləliklə, iyunun 9-da Bakıya gələn ulu öndər iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Bu dahi şəxsiyyət Azərbaycan dövlətinin varlığını qorudu.

Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan xalqının böyük xoşbəxtliyi həlledici anlarda düzgün seçim edərək ulu öndərə üz tutması və Onu hakimiyyətə dəvət etməsi idi. Əgər Heydər Əliyev o illərdə Azərbaycan rəhbərliyinə gəlməsəydi, ölkə tamamilə dağıla bilərdi.

Ulu öndərin qurub yaratdığı müstəqil Azərbaycan bu gün torpaqlarını 30 illik işğaldan azad edən qalib ölkədir. Prezident İlham Əliyevin rəhbərliyilə ölkəmiz tarixinin ən gözəl məqamlarını yaşayır.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**




# Arxiv milli yaddaşın xəzinəsidir

*Beynəlxalq Arxivlər Şurasının (BAŞ) 2007-ci ildə qəbul etdiyi qərarla - 9 iyun hər il dünyanın 200-ə yaxın ölkəsində, o cümlədən bizim respublikamızda Beynəlxalq Arxivlər Günü kimi qeyd edilir. Bəşəriyyətin arxiv irsinin qorunması, inkişafı və istifadəsinə xidmət edən BAŞ-ın cari ildə 75 ili tamam olur. Dünya arxiv təşkilatlarının, cəmiyyətlərinin peşəkar təşkilatı olaraq BAŞ öz fəaliyyətini arxivlərin effektiv idarə olunması, bəşəriyyətin mədəni irsi olan arxiv sənədlərinin mühafizəsi, qaydaya salınması və istifadəsi sahəsində yeni norma və standartların müəyyən edilməsinə, arxivçilərin peşəkarlığının yüksəldilməsinə töhfə verən mötəbər qurumdur.*

Azərbaycan arxivçiləri də dünyada arxiv işi sahəsindəki yeniliklərin öyrənilməsində bu beynəlxalq təşkilatın təcrübəsindən bəhrələnir. Əlamətdar günlə bağlı hər il müzakirələr, ekskursiyalar, açıq qapı günləri təşkil olunur və digər maarifləndirici tədbirlər həyata keçirilir.

Cəmiyyət üçün vacib sosial institut rolunu oynayan arxivlər həm də çoxsahəli və universal informasiyanın saxlanıldığı elmi mərkəzlər olaraq dövlətin, vətəndaşların retrospektiv informasiyaya əlçatanlığını təmin edir, ölkənin siyasi, ictimai-iqtisadi və mədəni inkişafına təsir göstərir, idarəetmənin effektivliyini artırır, sosial hüquqların təminatçısı rolunu oynayırlar. Arxiv sənədləri insanın mənəvi zənginliyinin, dünyagörüşünün genişlənməsində, tarixi şüurun, milli özünüdərkin, milli qürurun formalaşmasında əvəzsiz mənbə, tarixi tədqiqatların aparılması üçün etibarlı informasiya bazası rolunu daşıyır. Arxivlərdə təkcə ciddi mədəni və tarixi informasiya resursları mühafizə olunmur, həm də hər birimizin həyatında bu və ya digər dərəcədə rolu olan çeşid-çeşid informasiya mühafizə edilir. Burada fərdi xarakterli məlumatlar, doğum, ölüm, nikah, boşanma, təhsil, əmək fəaliyyəti, əmlak münasibətləri, təltif və digər əməliyyatlara dair məlumatlar da saxlanılır.

Arxivlərin bütövlükdə cəmiyyətin sosial-mədəni fəaliyyət sahələrinin inkişafındakı rolunu nəzərə alaraq qeyd edə bilərik ki, Beynəlxalq Arxivlər Günü təkcə bu sahədə çalışanların peşə bayramı deyil, həm də arxiv işinin inkişafına töhfə verən, ondan faydalanan və onu qiymətləndirə bilən hər bir fərdin, vətəndaşın bayramıdır.

Qeyd olunduğu kimi, xalqın hafizəsi və yazılı yaddaşı olan arxiv sənədləri və arxivlər millətin mədəni dəyərlər toplusudur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin qeyd etdiyi kimi, mədəni irsin tərkib hissəsi olan arxiv sənədləri xalqımızın tarixini əks etdirən yeganə mənbə, həm də tariximizi təhrif edənlərin qarşısının alınması üçün mühüm vasitədir. Bu gün Milli arxivlərimiz cəmiyyətin intellektual inkişafının məhsulu olan mədəni irsin qorunmasını və onun elmi məqsədlər üçün istifadəsi missiyasını ləyaqətlə həyata keçirən mühüm dövlət təşkilatlarıdır.

102 illik inkişaf yolu keçmiş Azərbaycan arxivləri xalqımızın dövlətçilik tarixinin, onun sosial-mədəni inkişafının öyrənilməsi üçün qiymətli arxiv materiallarının saxlanıldığı xəzinədir. Çoxsaylı arxiv sənədləri təsdiq edir ki, tarixi torpaqlarımıza göz dikmiş yadelli qüvvələr təkcə ölkəmizin maddi resurslarını istismar etməklə kifayətlənməmiş, həm də mədəni sərvətlərimizə göz dikmişlər.

Belə faktlardan birini respublikamızın Dövlət Tarix Arxivində (DTA) mühafizə olunan tarixi "Türkmənçay" müqaviləsinin 3-cü bəndi təsdiq edir. 1828-ci il fevralın 10-da Təbriz yaxınlığındakı Türkmənçay kəndində Rusiya ilə İran arasında imzalanmış müqavilə təkcə Azərbaycan xanlıqlarının Rusiyaya birləşdirilməsi ilə nəticələnməmiş, İran tərəfi Azərbaycan xanlıqlarına məxsus arxiv sənədlərinin 6 ay müddətində Rusiyaya təhvil verilməsini öhdəlik götürmüşdür. Bu faktın özü arxiv sənədlərinin dövlətlər üçün nə qədər əhəmiyyət kəsb etməsini bir daha təsdiq edir. Vaxtilə talan edilərək ölkədən çıxarılmış Azərbaycanla bağlı arxiv materiallarına bu gün dünyanın bir çox ölkələrinin arxivlərində rast gəlmək mümkündür. Respublikamızın dövlət arxiv xidməti təşkilatları əməkdaşlıq etdikləri ölkələrin dövlət arxivlərində mühafizə olunan Azərbaycanla bağlı sənədlərin müəyyən olunması, onların siyahılarının əldə edilməsi və xüsusi əhəmiyyətli arxiv sənədlərinin ölkəmizə gətirilməsi istiqamətində fəal iş aparmaqdadırlar.

Azərbaycanda arxiv sənədlərinin sistemli şəkildə toplanılması, mühafizəsi və istifadəsi işinə Azərbaycan Xalq Cümhuriyyəti dövründə başlanılmışdır. Hökumətin Xarici İşlər Nazirliyinin tərkibində Azərbaycanda fəaliyyət göstərmiş çar Rusiyasının yerli idarələrindəki sənədlərin toplanması və publikasiyası məqsədilə xüsusi komissiya yaradılmışdır. Qısa müddətdə fəaliyyət göstərmiş həmin komissiyanın topladığı sənədlər hazırda DTA-nın fondlarında nadir sənədlər kimi qorunub saxlanılır.

AXC hökuməti tərəfindən yaradılan Fövqəladə Təhqiqat Komissiyasının topladığı materiallar 1918-ci ilin əvvəllərində erməni vandalları tərəfindən xalqımıza qarşı törədilən soyqırımı aktının nəticələrinin öyrənilməsində və vəhşiliklərin beynəlxalq səviyyədə ifşa edilməsində əvəzedilməz tarixi mənbə kimi qiymətləndirilir.

Dövlətin universal informasiya resursları kimi dəyərləndirilən arxiv sənədlərində milli dövlətçiliyimizin inkişaf tarixinin müxtəlif mərhələlərinin öyrənilməsində ilkin tarixi mənbə kimi xüsusi əhəmiyyət daşıyan çoxsaylı məlumatlar vardır. Bu sənəd xəzinəsi bizə vətən tarixinin son üç yüz illik dövrünü göz önünə gətirməyə, onu öyrənməyə, baş vermiş hadisə və faktların elmi təhlilini aparmaqla nəticələr əldə etməyə, gələcəyə baxışımızı formalaşdırmağa imkan verir.

Cəmiyyətdə arxivlərin daşıdığı tarixi rolun aydın təsəvvürünü yaratmaq üçün dövlət arxivlərimizdə saxlanılan və bu gün də öz aktuallığı ilə seçilən bəzi qiymətli sənədlər barədə dəyərli oxuculara qısaca məlumat vermək istəyirəm. Arxivlərimizdə mühafizə edilən qiymətli və nadir sənədlərin siyahısına Qarabağ xanlığının Rusiyaya birləşdirilməsinə dair 1805-ci ildə imzalanmış "Kürəkçay" müqaviləsi, Azərbaycanın iki hissəyə parçalanması ilə nəticələnən və Rusiya ilə İran arasında imzalanmış "Gülüstan" və "Türkmənçay" müqavilələrinin nüsxələri, respublikamızın ərazi bütövlüyü, sərhəd koordinatlarının müəyyən edilməsində xüsusi əhəmiyyət kəsb edən Qars, Moskva müqavilələrinin surətləri, Azərbaycan İnqilab Komitəsi Mərkəzi İcraiyyə Komitəsinin qərarları, XIX əsrdə Azərbaycanda yerli idarəetmə, məhkəmə quruculuğu, təhsil, səhiyyə sahəsində həyata keçirilmiş tədbirlər, görülmüş işlər barədə materiallar saxlanılır. Həmçinin, şəhər əhalisinin tərkibi, məşğuliyyəti, şəhərlərin planlaşdırılması, mülki binaların tikintisi, bank, sənaye, ticarət, nəqliyyat, kənd təsərrüfatı, sığorta təşkilatlarının fəaliyyətinə dair son dərəcə zəngin materiallar mühafizə edilir.

Dövlət arxivlərimizdə mühafizə olunan xüsusi qiymətli sənədlərin siyahısına Azərbaycan tarixinin bir çox qaranlıq məqamlarının öyrənilməsi və tədqiqi üçün son dərəcə əhəmiyyətli və oxucu üçün maraqlı olan Zaqafqaziya Seyminin Müsəlman fraksiyası və Azərbaycan Milli Şurasının fəaliyyətinə dair arxiv materialları da vardır. Bu sənədlər xalqımızın fədakar oğulları və ideya sahiblərinin Azərbaycanın müstəqilliyi uğrunda apardıqları şərəfli mübarizənin şahidi olmaqla, bizlərə həmin illərdə bölgədə gedən gərgin siyasi proseslər barədə ətraflı məlumat almağa imkan verir. Həmin sənədlərdən məlum olur ki, 1918-ci ilin fevralında Zaqafqaziyada hakimiyyət orqanı kimi yaradılmış Seymin müsəlman fraksiyasının iclaslarında Zaqafqaziyanın müstəqil dövlət elan edilməsi, Türkiyə ilə münasibətlər, Rusiyadan gələn bolşevik təcavüzü, Bakıda, İrəvan quberniyasında ermənilər tərəfindən müsəlman əhalisinə qarşı törədilən qırğınlar, vəhşiliklər və digər məsələlər geniş müzakirə edilmişdir.

Məsələn, Seymin müsəlman fraksiyasının aprelin 10-da keçirilmiş iclasında İrəvan quberniyasında müsəlmanlara qarşı ermənilərin və erməni ordusunun məqsədyönlü şəkildə apardığı əməliyyatların mahiyyətində ərazilərimizin boşaldılması və ermənilərin yerləşdirilməsi dayandığı barədə məlumatlar verilmişdir. Aprelin 15-də keçirilən digər iclasda Seym üzvü Əlixan Qantəmirov çıxış edərək Qars vilayətində müsəlmanlara qarşı törədilən soyqırımı hadisələri barəsində ətraflı məlumat vermişdir. O, çıxışında hadisələrin şahidi olmuş yunanların dediklərinə əsaslanaraq qeyd edir ki, türk ordusunun qarşısından geri çəkilən ermənilər yol boyu vəhşiliklər törədir, müsəlman-türk uşaqlarını, qadınları güllələyir, kəndləri yer üzündən silirdi. Qars vilayəti nəhəng qəbiristanlığa çevrilmiş və buradakı hər bir daş erməni vəhşiliklərinin şahidi olmuşdur.

Sənədlərin təhlili göstərir ki, XVII əsrdən başlayaraq, ermənilər xristian dini etiqadlarından istifadə edərək qərb dövlətlərinin köməyi ilə "böyük ermənistan" dövləti yaratmaq xülyasına düşmüş, bu işdə onlara qərb dövlətləri və çar Rusiyası himayədarlıq etmişdir. XVIII əsrdən Zaqafqaziyanı ələ keçirmək üçün geniş hərbi fəaliyyətə başlayan Rusiya XIX əsrin birinci yarısında buna nail ola bilmiş və tarixi Azərbaycan torpaqlarını parçalayaraq bir hissəsini imperiyaya qatmağa müvəffəq olmuşdur. Ərazilərimizin işğalı tarixi Azərbaycan torpaqlarında kəskin demoqrafik dəyişikliklərin baş verməsi ilə nəticələnmişdir. Rus ordusunda xidmət edən erməni millətindən olan zabit və generalların dəstəyi ilə ermənilərin tarixi Azərbaycan torpaqlarına köçürülməsi ərazidə demoqrafik mənzərənin tədricən ermənilərin xeyrinə dəyişməsinə səbəb olmuşdur. Tarixi sənədlər təsdiq edir ki, 1929-cu ilin dekabr ayınadək 8 mindən yuxarı erməni ailəsi (40 min nəfər) Arazı keçərək Rusiyanın tutduğu İrəvan, Naxçıvan, Qarabağ torpaqlarında məskunlaşmışdır.

Eyni zamanda, həmin ildə Rusiya ilə Türkiyə arasında imzalanan Ədirnə müqaviləsindən sonra türk xalqına qarşı törətdikləri cinayətlərindən qorxaraq 14 mindən artıq erməni ailəsi (84600 nəfər) rus ordusunun köməyi ilə tarixi Azərbaycan torpaqlarına köçürülmüşlər. Dövlət arxivlərimizdə saxlanılan o dövrün statistik hesabatları, məlumat kitabları həyata keçirilən bütün köçürmələrə baxmayaraq, XX əsrin əvvəllərində hazırkı Ermənistan ərazisində yaşayan əhalinin əksəriyyətinin doğma torpaqların əbədi və əzəli sakinləri olan azərbaycanlılardan ibarət olduğunu təsdiq edir. Bu ərazidə azərbaycanlıların say tərkibinin azalması bədnam daşnak partiyasının 1918-1920-ci illərdə yaratdığı Ararat respublikası dövründə daha böyük vüsət almışdır. Ermənistan dövləti öz mövcudluğunun ilk günündən qədim Azərbaycan torpaqlarını işğal etməyə çalışmış, daşnaklar İrəvan quberniyası, Zəngəzur, Cavanşir, Şuşa qəzalarının yüzlərlə kəndini yandıraraq məhv etmiş və yerli azərbaycanlı əhaliyə qarşı misli görünməyən vəhşiliklər, qırğınlar törətməklə 100 mindən artıq azərbaycanlını öz yurd yerlərini tərk etməyə məcbur etmişdir.

1919-cu ilin noyabrında Azərbaycanla Ermənistan arasında silahlı toqquşmaların dayandırılması və mübahisəli sərhəd məsələlərinin dinc yolla həll edilməsinə dair razılıq əldə edilməsinə baxmayaraq, Ermənistan tərəfi bu razılaşmanı pozaraq Azərbaycan torpaqlarını ələ keçirmək cəhdlərindən əl çəkməmişdir.

Arxiv sənədləri təsdiq edir ki, Ermənistan hökuməti bolşevik donu geyinərək məkrli niyyətlərini həyata keçirməkdə davam etmişdir. 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə görə Zaqafqaziya respublikaları arasında dövlət sərhədləri müəyyən edilməsinə baxmayaraq, Ermənistan qonşu dövlətlərin tarixi torpaqlarına olan iddialarından bu günədək əl çəkməmişdir. Arxiv sənədləri təsdiq edir ki, 1920-1922-ci illərdə Azərbaycan SSR-in Qazax qəzasından Ermənistan SSR-ə 379.984 desyatin, Zəngəzur qəzasından Ermənistana 405 min desyatin torpaq sahəsi verilmişdir. Bu siyasət sonrakı illərdə də davam etmiş, ermənilər öz himayədarlarının vermiş olduğu ədalətsiz qərarlarla zaman-zaman Azərbaycanın sərhəd boyu kəndlərinin torpaqları hesabına öz ərazilərini genişləndirmiş, müxtəlif siyasi don geyindirməklə azərbaycanlı əhalinin öz dədə-baba torpaqlarından çıxardılmasına, Ermənistanın monoetnik dövlətə çevirilməsinə nail ola bilmişlər.

Arxiv fondlarımızda saxlanılan Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında SSRİ Nazirlər Sovetinin sədri tərəfindən 1947-ci və 1948-ci illərdə imzalanmış qərarlar belə faktları bir daha təsdiq edir.

Dırnaqarası "Köçürmə" adlanan bu tədbirin mahiyyətində bir neçə ildə Ermənistanın səfalı yerlərindən 100 min nəfərdən yuxarı azərbaycanlı ailəni Kür-Araz ovalığına köçürməklə, Ermənistanı etnik cəhətdən türklərdən təmizləmək niyyəti dururdu. Arxiv sənədləri təsdiq edir ki, yerli azərbaycanlı əhalinin ciddi etirazlarına baxmayaraq, qərar icra edilirdi. Kür-Araz ovalığı rayonlarını işçi qüvvəsi ilə təmin etmək adı ilə başlanan məkrli köçürmə tədbiri həm də Ermənistandakı bir çox Azərbaycandilli tədris müəssisələrinin bağlanması, ali və orta ixtisas təhsili müəssisələrinin Azərbaycan dili bölmələrinin respublikamıza köçürülməsi ilə nəticələndi.

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Qarabağ və Qərbi Azərbaycan məsələləri ilə bağlı ölkə daxilində və beynəlxalq səviyyədə apardığı ardıcıl və məntiqli dövlət siyasəti erməni xislətinin beynəlxalq miqyasda ifşasına və tarixi ədalətin bərpasına istiqamətlənmişdir. Müzəffər Ali Baş Komandanın rəhbərliyilə beynəlxalq səviyyədə aparılan işlər, həyata keçirilən tədbirlər 44 günlük Vətən müharibəsində olduğu kimi, çox tezliklə dünyada erməni mifinin darmadağın edilməsi və soydaşlarımızın tarixi torpaqlara qayıdışı ilə nəticələnəcəkdir. Bu şərəfli missiyanın həyata keçirilməsi və tarixi ədalətin bərpasında dövlətin mötəbər informasiya resursu olaraq arxiv sənədlərinin əvəzsiz əhəmiyyəti vardır. Bütün bu qeyd olunanlar son iki yüz ildən artıq bir dövrdə Ermənistan-Azərbaycan münasibətləri kontekstində regionda baş vermiş hadisələrin obyektiv təhlili və həlli üçün arxiv sənədlərində tutarlı faktların mövcudluğunu ortaya qoyur və bu sahədə fundamental elmi araşdırmaların aparılması üçün qiymətli mənbə olduğunu təsdiq edir.

Dövlət arxivlərimizdə peşəkar tədqiqatçılar tərəfindən elmi araşdırmaların aparılması üçün zəngin sənəd bazası mühafizə olunduğu kimi, həm də sənədlərdən səmərəli istifadə üçün lazımi şərait yaradılıb. Bu sahədə qabaqcıl dünya ölkələrinin təcrübəsi öyrənilərək normativ-hüquqi baza təkmilləşdirilib, istifadəçilərin, tədqiqatçıların arxiv sənədlərinə əlçatanlığı və çıxış imkanlarının genişləndirilməsi məqsədilə informasiya texnologiyalarının nailiyyətlərindən istifadəyə başlanılıb.

Milli yaddaşın xəzinəsi olan arxivləri və arxiv sənədlərini qoruyan, onlardan istifadə etməklə xalqına və dövlətinə şərəflə xidmət edən hər kəsi Beynəlxalq Arxivlər Günü münasibətilə təbrik edir, onlara şərəfli və məsuliyyətli işlərində uğurlar arzulayırıq.

**Həsən HƏSƏNOV,**
**Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəis müavini.**

# "Türk əsri"nin yeni yüksəliş mərhələsi




**Azərbaycan 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa edəndən sonra noyabrın 1-də ölkənin müstəqilliyinin tanınması ilə bağlı təklifini Türkiyəyə rəsmi olaraq çatdırıb və Türkiyə Respublikası Nazirlər Kabinetinin 1991-ci il noyabrın 9-da keçirilən iclasında Azərbaycan Respublikasının müstəqilliyinin tanınması haqqında qərar qəbul edilib. Bununla da Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət olub.**

Ümummilli lider Heydər Əliyevin Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının əbədi və daimi olduğunu təcəssüm etdirən "Biz bir millət, iki dövlətik" müdrik kəlamı bu gün də hər iki dövlətin vətəndaşları üçün örnəkdir. Qeyd etmək lazımdır ki, Türkiyə və Azərbaycan siyasi əlaqələrlə yanaşı, iqtisadi münasibətləri də daim inkişaf etdirib. Belə ki, Xəzər dənizi enerji qaynaqlarının dünya bazarlarına çıxarılmasını nəzərdə tutan layihələrin reallaşdırılması Azərbaycan və Türkiyə arasında strateji ortaqlığa gedən yolda mühüm addım olub. 16 avqust 2010-cu il tarixində "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması haqqında Birgə Bəyannamə" imzalanıb.

30 il ərzində iki ölkə arasında beynəlxalq arenada qarşılıqlı dəstək ənənəsi hər zaman davam etdirilib. Azərbaycan Respublikasının ən ağrılı problemi olan Qarabağ məsələsində qardaş Türkiyə daim Azərbaycanın yanında olub, ölkəmizin haqlı mövqeyini beynəlxalq arenalarda dəstəkləyib. Ölkələrimiz arasındakı qarşılıqlı münasibətlər nə bu günün, nə də dünənin iqtisadi maraqları əsasında formalaşıb. Bu əlaqələr dərin tarixi köklərə bağlanır. Azərbaycan xalqı 2020-ci ildə Ermənistanın 30 illik təcavüzünə son qoyulmasında, işğal olunmuş torpaqların azad olunmasında, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində Türkiyə Respublikasının diplomatik və mənəvi-siyasi dəstəyini yüksək qiymətləndirir. 15 iyun 2021-ci il tarixində Şuşa şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan "Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasındakı müttəfiqlik münasibətləri haqqında" Bəyannamə imzalayıblar. Beləliklə, Azərbaycan və Türkiyə müttəfiqliyi rəsmən bəyan edilmiş oldu.

Qeyd etmək lazımdır ki, bu il fevralın 6-da Türkiyənin cənubunda baş verən 7.9 bal gücündə dağıdıcı zəlzələ nəticəsində çoxsaylı insan tələfatı ölkəmizdə dərin hüznlə qarşılandı. Türkiyənin qarşılaşdığı bütün çətin məqamlarda ona hər cür dəstək və yardım göstərən Azərbaycan bu çətin zamanlarda da qardaşının köməyinə çatan ilk ölkə oldu. Biz dövlət və xalq olaraq qardaşlarımızın ağır günündə səfərbər olduq.

Aprelin 29-da Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İstanbulda keçirilən TEKNOFEST aerokosmik və texnologiya festivalında iştirak ediblər. Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva məkana qardaş ölkənin texnoloji inkişafının daha bir göstəricisi olan "Togg" avtomobili ilə gəldilər.

Kahramanmaraşda təməli qoyulan evlərə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirən Türkiyə Prezidenti dedi: "Kahramanmaraşda təməlini bir az əvvəl birlikdə qoyduğumuz evlər üçün İlham qardaşıma da çox təşəkkür edirəm. Azərbaycan dövləti və xalqı bu müddətdə dostluğun və qardaşlığın nə demək olduğunu göstərdi".

Qeyd edək ki, mayın 28-də Türkiyədə Prezident və Parlament seçkiləri oldu. İyunun 3-də isə seçkilərdə qalib gələn Rəcəb Tayyib Ərdoğanın səlahiyyətlərinin icrasına başlaması mərasimi keçirildi. Mərasimdə Rəcəb Tayyib Ərdoğan və İlham Əliyevin səmimi görüşü zalda əyləşənlər tərəfindən alqışlarla müşayiət olunub. Seçkilər zamanı İlham Əliyevin öz qardaşı, dostu, müttəfiqi Rəcəb Tayyib Ərdoğana dəstəyi, yanında olduğunu bəyan etməsi danılmazdır. Dünya bir daha Azərbayan-Türkiyə qardaşlığının nümunəsinin şahidi oldu.

Seçkilərdə millətin iradəsinin əksini tapdığını, "Türk əsri"nin və ölkənin yeni inkişaf mərhələsinin başladığını vurğulayan Prezident Rəcəb Tayyib Ərdoğan siyasi və dini baxışlarından, etnik mənsubiyyətindən asılı olmayaraq 85 milyonluq əhalinin etimadını boşa çıxarmamaq üçün səylə çalışacağını qeyd etdi. Türkiyə Respublikasının yaradılmasının 100-cü ildönümündə sarsılmaz həmrəyliyə daha böyük ehtiyac duyulduğunu diqqətə çatdırdı.

Son 20 ildə qardaş Türkiyənin bütün sahələrdə qazandığı uğurlar davamlılığı ilə diqqətdədir. Azərbaycan-Türkiyə birliyinin, həmrəyliyinin fonunda daim bu məqam xüsusi vurğulanır ki, Türkiyənin gücü Azərbaycanın, Azərbaycanın gücü Türkiyənin gücüdür. Son 20 ilin uğurlarına söykənərək qardaş ölkənin daha sürətlə inkişaf edəcəyinə, hər bir sahədə dünyaya nümunə olacağına əminik.

Türkiyə-Azərbaycan əlaqələri bundan sonra da yüksələn xətlə inkişaf edəcək. İki qardaş ölkə arasında münasibətlərin ölkəmizin başçısının bildirdiyi kimi, bir düsturu var: "Bir millət, iki dövlət, bir yumruq!".

**Röya RÜSTƏMLİ,**
**"Respublika".**

# Qardaşlıq bağı: "Bir millət, iki dövlət"

**Bu il may ayının 28-də ikinci mərhələsi keçirilən prezident seçkilərində Rəcəb Tayyib Ərdoğan 52,18 faiz səs toplayaraq yenidən Türkiyə Prezidenti seçildi. İyunun 7-də isə parlament seçkiləri üçün gizli səsvermənin üçüncü turunda Ədalət və İnkişaf Partiyası ilə Milliyyətçi Hərəkat Partiyasının ortaq namizədi Numan Kurtulmuş 321 səslə qalib gəlib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyə Böyük Millət Məclisinin sədri seçilən Numan Kurtulmuşa zəng vuraraq onu təbrik edib. Bütün dünyada siyasi aktora çevrilən Türkiyədə seçkilərin nəticələri mühüm siyasi hadisədir. Türkiyə dünyaya növbəti dəfə demokratiya dərsi keçdi. Bir daha sübut olundu ki, qardaş ölkə kənar müdaxilələrə baxmayaraq, demokratiya yoluna sadiqdir və bundan sonrakı müddətdə də bu yolu inkişaf etdirəcək.**

Seçkilərin nəticəsi bəlli olan kimi Rəcəb Tayyib Ərdoğana ilk təbrik zəngini Prezident İlham Əliyev edib. Türkiyə ilə münasibətlərin inkişafı ölkəmizin xarici siyasət kursunun əsas prioritetlərindəndir. Hər iki ölkə liderinin arasındakı qardaşlıq münasibətləri xalqlar arasında dostluq bağlarının daha da möhkəmlənməsinə xidmət edir. Cənab İlham Əliyev seçkilərdəki qələbəni Türkiyə xalqının Rəcəb Tayyib Ərdoğanın həyata keçirdiyi siyasətə göstərdiyi etimad kimi dəyərləndirib. Dövlət başçımız Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə növbəti illərdə də Türkiyənin hərtərəfli inkişafının davam etdiriləcəyini deyib. Prezidentimiz Rəcəb Tayyib Ərdoğana Türkiyə xalqının firavanlığı və ölkənin tərəqqisi naminə fəaliyyətində yeni-yeni uğurlar arzulayıb. Türkiyə Prezidenti təbrikə və xoş sözlərə görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edib, eyni zamanda Müstəqillik Günü münasibətilə təbriklərini çatdırıb. Azərbaycan Prezidenti təbrikə görə təşəkkürünü bildirib və Rəcəb Tayyib Ərdoğanı ölkəmizə rəsmi səfərə dəvət edib. Dəvət minnətdarlıqla qəbul edilib. Dövlət başçıları ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə bundan sonra da uğurla inkişaf edəcəyinə bir daha əminliklərini bildiriblər.

Qeyd etmək lazımdır ki, Rəcəb Tayyib Ərdoğan iyunun 3-də rəsmən and içib və səlahiyyətlərinin icrasına başlayıb. Paytaxt Ankarada Prezident Sarayında Rəcəb Tayyib Ərdoğanın səlahiyyətlərinin icrasına başlaması ilə bağlı təntənəli mərasim keçirilib. Mərasimdə Türk Dövlətləri Təşkilatı, NATO və İslam Əməkdaşlığı Təşkilatı da daxil olmaqla bir sıra beynəlxalq təşkilatların və ümumilikdə 78 ölkənin nümayəndələri iştirak ediblər. Tədbirə 21 dövlət başçısı və 13 baş nazirlə yanaşı, bir çox nazirlər və xüsusi nümayəndələr də qatılıb. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan mərasimdə iştirak edən Azərbaycan Prezidenti İlham Əliyevi, birinci xanım Mehriban Əliyevanı, digər dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini salamlayıblar. Rəcəb Tayyib Ərdoğanın İlham Əliyevlə xüsusi səmimi görüşməsi qonaqların alqışı ilə qarşılanıb. Ümumiyyətlə, tədbirin gedişində Azərbaycan Prezidentinə və birinci xanım Mehriban Əliyevaya xüsusi diqqətin göstərilməsi müşahidə olunub. Təbii ki, bu, iki qardaş dövlətin rəhbərlərinin arasındakı doğma, isti münasibətdən irəli gəlir. Bu, həmçinin Türkiyə-Azərbaycan münasibətlərinin dünyada analoqu olmayan bir səviyyəyə yüksəlməsinin nəticəsidir. Diqqətçəkən digər məqam isə tədbirdə Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı olub. Ən mühümü isə odur ki, mərasimdə Ermənistanın Türkiyə üçün hansı yerdə qərarlaşdığı bir daha nümayiş olunub. Belə ki, Ermənistan baş naziri Nikol Paşinyana ondan ön cərgədə əyləşən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin arxasında yer verilib. Bu isə subliminal mesaj kimi qəbul edilməlidir. Bu mesajla Ermənistan bir daha anlamış oldu ki, Türkiyə və Azərbaycan daim bir-birinin yanındadır.

Prezident Rəcəb Tayyib Ərdoğan mayın 28-də keçirilmiş seçkilərdə millətin iradəsinin əksini tapdığını, artıq "Türkiyə əsri"nin başladığını və ölkənin sıçrayış mərhələsinin qapılarının açıldığını vurğulayıb. Türkiyə xalqı seçkilərdə sabitlik, firavanlıqla yanaşı, həm də Azərbaycana, Azərbaycanla gələcəkdə qoşa addımlanacaq yola, birliyə, qardaşlığa səs verdi. Türkiyə xalqı sübut etdi ki, Azərbaycanı diqqətdən kənarda saxlamaq istəyən hər hansı bir siyasətçi ölkənin hakim dairələrində yer ala bilməz. Bu gün dünyada Azərbaycan və Türkiyə kimi dost, qardaş, yaxın müttəfiq olan dövlətlər yoxdur. Türkiyə-Azərbaycan dostluğunda məhz İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan faktoru mühüm rol oynayır. Bu həm də xalqlarımızın maraqlarının beynəlxalq miqyasda təmin olunmasına xidmət edir. Türkiyə-Azərbaycan müttəfiqliyi tarixin sınaqlarından keçərək "bir millət, iki dövlət" tezisini qardaşlıq bağına çevirib.

**Nuranə DAXİLQIZI,**
**"Respublika".**



# İQTİSADİYYAT

Aqrar sahə

## "AĞ QIZIL"a MARAQ ARTIR

**XX əsrin 70-ci illərinin əvvəllərindən başlayaraq respublikamızda pambıqçılıq strateji əhəmiyyətli sahə kimi çox sürətlə inkişaf etmiş, illik pambıq istehsalı bir milyon tona çatdırılmış, ölkəmiz sovetlər dövrünün ali mükafatına - "Keçici Qırmızı Bayrağ"a layiq görülmüşdür.**



Kənd təsərrüfatında mövsümi işlərin qızğın çağıdır. Əkinçilərin dediyinə görə, bu il barlı-bərəkətli olacaq. Tarlalarda, bağlarda bol məhsul yetişir, pambıqçılar da iş başındadır, becərmə işlərini aqrotexniki qaydalara uyğun aparırlar. Son illərdə rayonlarda pambıq əkininə maraq daha da artıb, bu da səbəbsiz deyil. Aqrar sahəyə, o cümlədən pambıqçılığa göstərilən dövlət dəstəyinin nəticəsində fermer və torpaq mülkiyyətçiləri təsərrüfatlarını genişləndirir, kənd təsərrüfatı məhsulları istehsalı ilbəil artır.

Qeyd edək ki, pambıqçılıq strateji əhəmiyyətli, əməktutumlu və iqtisadi cəhətdən səmərəli istehsal sahəsi olduğu üçün daha çox maraq kəsb edir. İmişli rayonunda da pambıqçılığa maraq ildən-ilə artır. Vaxtilə bu rayonda əlli min tondan çox pambıq istehsal edilib, adlı-sanlı əmək adamlarının zəhməti sayəsində "ağ qızıl" şöhrət qazanıb.

Kənd təsərrüfatının bu gəlirli sahəsi ilə məşğul olan **Aranlı kənd sakini Mehman Əliyev** deyir ki, respublikamızda pambıqçılığın inkişafı bilavasitə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ötən əsrin 70-ci illərində respublikamızda pambıqçılığın böyük sənaye potensialı yaradılıb, həm də torpaqlarda geniş meliorativ tədbirlər görülərək irriqasiya sistemi qurulub. Eyni zamanda, pambıqçılıqdan əldə etdikləri qazancla öz ailə-məişət problemlərini yüksək səviyyədə həll edən, əmək qəhrəmanı kimi şan-şöhrət qazanan, orden və medallarla təltif olunan insanların yaxşı ənənəsi yaranıb və bu gün də həmin ənənələr yaşayır. Bildirmək istəyirəm ki, pambıq mahlıcı toxuculuq sənayesində ən əhəmiyyətli təbii xammal hesab olunur. Çiyiddən alınan bitki yağı mətbəximizdə əsas yerlərdən birini tutur, digər tərəfdən, çiyidin özü və qabığı heyvandarlıqda qüvvəli yem kimi əvəzedilməzdir. Bitkinin gövdəsindən isə kənd adamları təndirdə çörək bişirəndə əvəzedilməz yanacaq kimi istifadə edirlər.

Qeyd edək ki, Mehman Əliyev hər il sahələrdən bol məhsul götürməyə nail olur. Ötən il onun başçılıq etdiyi təsərrüfatı 67 hektar sahədən 200 tondan artıq məhsul tədarük edib. Bitkilərə vaxtında göstərilən yüksək aqrotexniki tədbirlər nəticəsində hər hektardan 30 sentner "ağ qızıl" əldə olunub. Səriştəli mütəxəssis cari təsərrüfat ilində "AZ-Təsərrüfat" MMC ilə müqavilə bağlayıb, çiyid səpinində ərazini 40 hektar genişləndirərək 107 hektara çatdırıb. Eyni zamanda, çiyid səpinini uğurla başa çatdırıb. Hazırda əkin sahələrində yaxşı çıxış əldə olunub. Havalar qeyri-sabit keçsə də, sahələr Mil-Muğan kanalı vasitəsilə suvarılıb, digər becərmə işləri də ardıcıl və vaxtında həyata keçirilir. Fermer Mehman Əliyevin dediyinə görə pambığın çıxışını mütəşəkkil əldə etmək üçün əsas çıxış suyudur. İmişli Rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayev ölkə rəhbəri cənab Prezident İlham Əliyevin tapşırığına əsasən kəndlərdə keçirdiyi səyyar qəbullar zamanı bu işlərə xüsusi diqqət yetirir. Bu səbəbdən suvarma suyu ilə bağlı heç bir problemimiz olmayıb. Səpilən 107 hektar çiyid təcrübəli suçular Arif Atakişiyevin və Hamel Qəhrəmanovun sayəsində suvarılıb, əla çıxış əldə olunub. Belə ki, əkin sahələrinin yemlənməsi, kultivasiyası və alaq otlarından təmizlənməsi işləri optimal müddətdə aparılır. Kultivasiyanın yüksək səviyyədə aparılmasında mexanizator Əmirxan Məmmədov və kollektivin digər üzvləri üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirirlər. Bir sözlə, pambıqçılar bol məhsul əldə etmək üçün var qüvvələrini sərf edirlər.

Təcrübəli təsərrüfatçı Mehman Əliyev söhbət zamanı qeyd etdi ki, pambıqçılıqla məşğul olmaq ənənəsi bizim ailəyə atam Əliyev Qədir Salman oğlundan miras qalıb. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə atam uzun müddət pambıqçılıq üzrə təsərrüfat rəhbəri işləyib. Ailəmizdə olan söhbətlərdən mənə məlum olub ki, yaşadığımız İmişli rayonunun Aranlı kəndində "Lenin" adına kolxoz təkcə rayonda yox, respublikamızda qabaqcıllar sırasında olub. Ona görə də Heydər Əliyev pambıq mövsümü vaxtı rayonlara səfəri zamanı İmişli rayonuna gələndə bizim yaşadığımız Aranlı kəndinə bir neçə dəfə gəlib. Dahi rəhbər pambıq sahələrində zəhmətkeşlərlə görüşüb, onların problemləri ilə yaxından tanış olub, qabaqcıl işçilərə onun tapşırığı əsasında qiymətli hədiyyələr verilib. Pambıq sahələrində zəhmətkeşlərlə çəkdirdiyi xatirə şəkillərində atamın da olduğu görünür. Bu şəkillər hazırda İmişli rayonunun bir çox idarə-müəssisələrində çox böyük hörmət və sevgi ilə unudulmaz xatirə kimi qorunub saxlanılır. Həmin vaxtlarda kolxozda beş min tondan çox "ağ qızıl" tədarük edilərmiş. Kənd sakinlərinin zəhməti nəzərə alınaraq İmişli pambıqtəmizləmə zavodunun nəzdində olan Aranlı pambıq qəbulu məntəqəsi həmin vaxt kolxozun ixtiyarına verilib, burada xeyli sayda kənd sakini işlə təmin edilib.

Təcrübəli fermer Mehman Əliyev söhbətimizin sonunda bildirdi ki, möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən verilən dəstək sayəsində pambıqçılıqla məşğul olan fermerlər ölkə iqtisadiyyatına öz töhfələrini verirlər. Belə ki, pambıqçılığın inkişaf etdirilməsi məqsədilə yeni texnikalar alınmış və bu sahə üzrə Dövlət Proqramı qəbul olunmuşdur. Fermerlər onlara yaradılan bu münbit şəraitə və dəstəyə görə ölkə Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını bildirirlər. Qeyd edək ki, gələcək bol məhsulun möhkəm bünövrəsi artıq qoyulub. Havalar əlverişli keçsə, bu il hər hektardan azı 35-40 sentner "ağ qızıl" əldə etmək mümkün olacaq. Yaxşı iş həmişə üz ağardar, torpağa qulluq edəndə birə-beş əvəzini qaytarar.

**Ərəstun ABDULOV,**
**"Respublika".**

## Taxıl yığımına 2 min kombayn cəlb olunacaq

### Artıq 24 rayonda arpa biçini davam edir



**Əvvəlki yazılarımızda xəbər verdiyimiz kimi, Mərkəzi Aran bölgəsində bəzi fermerlər artıq arpa biçininə başlayıblar. Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti bildirir ki, respublikada taxıl biçininə hazırlıq işləri tamamilə başa çatıb. Bu il ölkə ərazisində 1 milyon 58,4 min hektar sahədə taxıl əkilib ki, bunun 658,4 min hektarı buğda, 400 min hektardan bir qədər artığı isə arpa sahəsidir.**

Taxıl biçini prosesinin idarə olunması məqsədilə Kənd Təsərrüfatı Nazirliyində və Dövlət Aqrar İnkişaf Mərkəzlərində qərargahlar yaradılıb. Biçinin optimal müddətdə başa çatdırılması, məhsulun vaxtında və itkisiz yığılması üçün Nazirliyin prosesdə iştirak edən qurumlarının fəaliyyətləri qərargah tərəfindən koordinasiya olunur, taxıl biçininin gedişatı gündəlik olaraq nəzarətdə saxlanılır və operativ zəruri tədbirlər həyata keçirilir.

"Aqroservis" Açıq Səhmdar Cəmiyyəti tərəfindən biçinlə bağlı hazırlıqlar yekunlaşıb. Hazırlıq ərəfəsində bütün rayonlar üzrə biçinə cəlb ediləcək mövcud kombaynlara texniki baxış keçirilib, nasaz vəziyyətdə olan texnikalarda təmir, sazlama işləri həyata keçirilib. Hazırlıqların ilkin mərhələsində cari ildə taxıl biçininin itkisiz və mütəşəkkil həyata keçirilməsi məqsədilə kombaynları idarə edəcək mexanizatorlara ödənişsiz təlimlər keçirilib. Cari ildə müxtəlif markalı kombaynlar üzrə ümumilikdə, 283 mexanizator təlimlərdə iştirak edib. Həmçinin, biçin zamanı dislokasiya planına nəzarət edilməsi üçün kombaynlar GPS nəzarət sistemi ilə təchiz edilib.

Bu il taxıl biçini prosesinə 2 minədək taxılbiçən kombaynın cəlb olunması nəzərdə tutulur. Bunlardan 670 ədədi "Aqroservis" ASC-nin balansında olan kombaynlardır. Hazırda respublikanın 24 rayonunda arpa biçini davam edir.

**Nəriman CAVADOV,**
**"Respublika".**

Qobustan

## Təklə kəndində güzəran yaxşılaşır

**Təklə kəndində əməli işi, dövlətə və xalqa bağlılığı ilə tanınan Hüseynovlar nəsli bu gün də ənənəsinə sadiqliyi ilə seçilir. Məhz bu səbəbdən də nəslin yetirməsi Hüseynağa müəllimin icra nümayəndəsi təyin olunması kənd sakinlərinin sevincinə sevinc qatdı. Çünki Prezidentin diqqəti və qayğısı sayəsində digər kəndlər kimi, Təklə və Çuxanlı kəndlərinin də inkişafı üçün hərtərəfli şərait yaradılıb. Kəndlərin yolları müasir tələblər səviyyəsində çəkilib. Uzun illər ərzində sakinləri narahat edən su problemi aradan qaldırılıb. Sərəncama uyğun olaraq yeni artizan su quyusu qazılaraq istifadəyə verilib. Yeni məktəb binaları inşa olunub.**



Kəndə gedərkən yolboyu əkilən ağaclar ilk öncədən diqqəti cəlb edir. Həmsöhbətim - **Qobustan Rayon İcra Hakimiyyəti başçısının Təklə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Hüseynağa Hüseynov** söhbətə yolların abadlaşdırılması üçün görülən işlərdən başladı. Bildirdi ki, dövlət başçısının sərəncamı ilə bu yolun çəkilməsi ərazidə yaşayan hər bir sakinin ürəyincə oldu. Biz də öz dəstəyimizi cəmləşdirərək dövlətin qayğısına işimizlə cavab vermək qərarına gəldik. Mütəmadi olaraq kənd sakinləri ilə keçirdiyimiz görüşlərdə qərara gəldik ki, yol boyu yaşıllıq zonası yaradaq. Belə də oldu, rayon icra hakimiyyətinin başçısı bu işdə hərtərəfli köməklik göstərəcəyini deyərək bizi xeyli həvəsləndirdi. Beləliklə də Bakı-Şamaxı magistral avtomobil yolundan kəndimizə qədər olan 4 min metr yolun kənarında ağaclar əkdik və becərilməsini qərara aldıq. Kənd sakinlərinin iştirakı ilə keçirilən bu aksiyada rayon rəhbərinin də iştirakı bizi xeyli həvəsləndirdi. Ağacların qorunması üçün artıq 1500 metr əraziyə tikanlı məftillərlə çəpər çəkmişik. Sulanmasını da öz üzərimizə götürmüşük. İstəyirik ki, dövlətin qayğısı sayəsində abad olan yolumuzun ətrafı yaşıllıq məkanına çevrilsin.

Kənddə su probleminin həlli üçün görülən işlərdən danışan Hüseynağa müəllim qeyd etdi ki, suyun əhaliyə çatdırılması üçün çox çalışdıq. 3500 metr uzunluğunda xətt çəkməli idik. Rayonun daxili imkanları hesabına bu işi də həll etməyi bacardıq. 75-110 mm diametr ölçüdə su xəttini quraşdırdıq. Anbardan bütün evlərə su xətti çəkdik. Çuxanlı kəndində su təminatı xeyli yaxşıdı, Təklə kəndində isə növbəlilik əsasında həyata keçirilir. Belə ki, anbara arteziandan saatda 15 ton su vurulur və 400 ailə arasında bərabər prinsiplər əsasında bölünür.

Kəndarası yolların təmir olunduğunu və yenidən çəkildiyi deyən icra nümayəndəsi bu gün kənddə problemsiz yaşamağın vacibliyinə toxundu. Bildirdi ki, kənddə aztəminatlı ailə, demək olar ki, yoxdur. Zəhmətə qatlaşanın güzəranı durmadan yaxşılaşır. Kəndimizin sakinləri əsasən əkinçiliklə və heyvandarlıqla məşğul olur. Hətta elə ailə var ki, 500 baş qoyunu, 50-100, bəzisinin isə 200 baş mal-qarası var. Dövlət təsərrüfatla məşğul olmaq üçün subsidiya verir. Hərə öz təsərrüfatı üçün çalışır. Kənd sakinlərinin böyük hissəsinin müasir şəraitdə çardaqları var. Toylarımızı artıq öz həyətlərimizdə edirik. Gözəl tarixi ənənələrimizi qoruyuruq və şən günlərimizi ürəyimiz istədiyimiz şəraitdə qeyd edirik. Kənd sakini üçün bundan yaxşı nə ola bilər. Bununla yanaşı, rayon rəhbərliyi daxili imkanlar hesabına aztəminatlı ailələrə də qayğı göstərir. Rayonda bu istiqamətdə də çoxsaylı layihələr həyata keçirilir.

Kəndarası yollar da yenidən çəkilib. İcra nümayəndəsi bildirdi ki, qısa zamanda kənd yollarında 7 min kvadratmetr asfalt döşənib. Yolu, suyu, qazı, müasir məktəb binası və sağlamlıq mərkəzi olan kənddə yaşamaqdan gözəl nə ola bilər. Bu səbəbdən də uzunömürlülər diyarı kimi tanınan Təklə kəndində həyat tərzi durmadan yaxşılaşır. İcra nümayəndəsi kənd sakinlərinin qarşılaşdığı problemlərin həlli üçün mövcud şəraitdən maksimum faydalanmağın vacibliyinə toxundu. Qeyd etdi ki, rayon rəhbərliyi ilə mütəmadi keçirilən görüşlərimiz işgüzar və demokratik şəraitdə keçir. Bütün istək və arzularımızın reallaşması üçün fikrimizi bildiririk. Yaxın zamanlarda kəndimizdə müasirtipli uşaq bağçası və körpələr evinin tikilərək kənd sakinlərinin ixtiyarına veriləcəyinə də əminik. Biz çox şad oluruq ki, rayon səviyyəsində olan məsələlərin həlli yerindəcə həll olunur, respublika səviyyəli problemlər isə dövlət qarşısında qaldırılır və ölkə rəhbərinin xalqa yüksək qayğısı sayəsində həll edilir. Budur dövlət başçısının xalqa yüksək qayğısının real mənzərəsi.

Respublika Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə dövlət qulluğunda səmərəli fəaliyyətinə görə icra nümayəndəsi Hüseynağa Hüseynovun "Tərəqqi" medalına layiq görülməsi zəhmətə verilən dövlət qiymətinin məntiqi nəticəsi kimi yüksək dəyərləndirilir.

**Mikayıl NƏRİMANOĞLU,**
**"Respublika".**

## Əkin torpaqlarının münbitliyi artırılır

**Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti bildirir ki, ölkə ərazisində meliorativ tədbirlərin doğru zamanda aparılması nəticəsində torpaqların münbitliyi hər keçən il artır.**

Artıq əvvəlki illərdə əkin aparılmayan sahələrdə də müxtəlif növ kənd təsərrüfatı bitkiləri əkilir. Şoranlaşan torpaqlar kollektor-drenaj sistemlərinin vaxtında təmizlənməsi ilə əkinəyararlı vəziyyətə gətirilir. Hazırda bu istiqamətdə Sumqayıt Melioservis İdarəsi tərəfindən Xızı rayonu ərazisində müvafiq işlər həyata keçirilir. Rayon ərazisindən keçən və uzunluğu 20 kilometr olan kollektor şəbəkəsi idarənin texnikaları vasitəsilə lildən təmizlənir. İdarə bu işləri bir neçə istiqamətdə davam etdirir.

İdarə tərəfindən bu ilin əvvəlindən etibarən kollektor-drenaj sistemlərində aparılan lildən təmizləmə işləri kollektorlarda qrunt və səth sularının normal axıdılmasına, torpaqların meliorativ cəhətdən yaxşılaşdırılmasına müsbət təsirini göstərib. Qeyd edək ki, Sumqayıt Melioservis İdarəsi Xızı rayonu ilə yanaşı, Ağstafa və Qazax rayonlarında da 9 kəndin suvarma təminatını yaxşılaşdırmaq üçün meliorativ tədbirlərini davam etdirir.

**N.CAVADOV,**
**"Respublika".**

## Ağdaşda barama tədarükü

***Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən aqrar sektora göstərilən qayğı və dəstək kənd təsərrüfatının bütün sahələrində olduğu kimi, ixracyönümlü sahə olan baramaçılığın inkişafına da öz müsbət töhfələrini verməkdədir.***





"Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında ölkə Prezidenti İlham Əliyevin 27 noyabr 2017-ci il tarixli Sərəncamı da bu sahənin inkişafına yönəldilib. Proqramın uğurlu icrası ölkəmizdə barama istehsalını ildən-ilə artırır.

Ağdaş rayonunda baramaçılığın inkişafı istiqamətində mühüm işlər görülür. Cari ildə 99 kümçüyə bu mövsüm 250 qutu ipəkqurdu paylanılıb. Artıq may ayının 31-dən etibarən rayonda barama tədarükünə başlanılıb. Cari barama mövsümü ərzində kümçülər tərəfindən 10 ton barama tədarükü nəzərdə tutulub. Qəbulun ilk günündən kümçülər tərəfindən "AzSİLK" MMC-yə 5320 kiloqram yaş barama təhvil verilib. Hazırda barama tədarükü davam edir.

**"Respublika".**

### Yanvar-aprel aylarında cari ilin məhsulu üçün yazlıq bitkilərin əkini, hektar

| | 2023-cü il yanvar-aprel | 2022-ci il yanvar-aprel | 2023-cü ilin yanvar-aprel ayları 2022-ci ilin yanvar-aprel aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| Buğda | 3310.4 | 4160.8 | 79.6 |
| Vələmir (yulaf) | 4880.2 | 5935.0 | 82.2 |
| Çəltik | 311.0 | 201.0 | 154.7 |
| Qarğıdalı | 21687.2 | 20973.9 | 103.4 |
| Dən üçün günəbaxan | 7643.4 | 7946.3 | 96.2 |

Dövlət Statistika Komitəsinin məlumatları əsasında hazırlanıb



# SOSİAL həyat






**Şəhidlik ən ali, uca zirvə olduğu kimi, həm də ən həssas məqamdır. Şəhidlərin şücaətindən, döyüş yolundan nə qədər yazılsa, yenə də azdır. Onlar qəhrəmanlıqlarını, igidliklərini öz əməlləri ilə tarixin ən şərəfli səhifəsinə yazıblar. Rauf İlyasoğlunun "Asimana ucalan şəhidlər" kitabı da bu mənada böyük əhəmiyyət kəsb edir.**

Şəhidlərin döyüş yolundan bəhs edən kitab müəllifin oxucularla sayca 17-ci görüşüdür. Kitabda istər 1990-cı illərdə, istər Aprel döyüşlərində, istərsə də 2020-ci il Vətən müharibəsi zamanı torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə şəhid olan Vətən oğullarının bir qisminin döyüş yolu və qəhrəmanlığı yer alır. Kitabda müəllifin ayrı-ayrı dövrlərdə müxtəlif mətbuat səhifələrində şəhidlər haqqında yazdığı məqalə və şeirlər toplanmışdır.

Birinci Qarabağ müharibəsində şəhid olan Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Teymur oğlu Bağırovun şərəfli döyüş və ömür yolu, həmçinin, Azərbaycan gəncliyinin stimuluna çevrilən şəhid Mübariz İbrahimovun qəhrəmanlığından söhbət açılır. Azərbaycan əsgərinə əsl nümunə olan general-mayor Polad Həşimovun həyat və fəaliyyəti, Əliyar Əliyev, Aqil Quliyev, Bayram Məmmədov, polkovnik Raqub Orucov, Pəncəli Teymurov, Şükür Həmidov kimi bir çox şəhid qəhrəmanlarımızın döyüş yolu kitabda geniş şəkildə verilmişdir. Kitabın fərqli cəhətləri bunlarla bitmir. Burada 20 Yanvar faciəsi, Birinci Qarabağ və 44 günlük Vətən müharibəsi, həmçinin 30 illik işğal dövründə ordumuzun verdiyi qurbanlardan da söhbət açılır. Müəllif qazilərimizi, veteran döyüşçülərimizi də yaddan çıxarmamışdır.

Onu da qeyd edək ki, müəllifin qardaşı oğlu gizir Asiman Allahverdiyev də ərazilərimizin bütövlüyü uğrunda mübarizədə şəhidlik zirvəsinə ucalmışdır. "Asimana ucalan şəhidlər" kitabında şəhid Asimana bir sıra qələm sahiblərinin həsr etdikləri şeirlər də yer alır.

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**

*Düşünmək insan xarakterinə xasdır. Düşünüb dərk etmək isə fərdlərə görə dəyişir. Burada insanın dünyagörüşü, intellektual səviyyəsi, cəmiyyətə baxışı rol oynayır. İstedadlı insanların düşüncə tərzi isə bir qədər daha fərqlidir. Xüsusən şair, yazıçı və alimlərin düşünüb dərketmə trayektoriyası daha geniş, dərin və böyük miqyasda olur.*



## Ədəbiyaşar və əbədiyaşar yazıçı

Xalq yazıçısı İsa Muğannanın düşüncələri və idrakı fərqliliyi ilə hər zaman diqqət çəkmişdir. İsa Muğanna adilikdən aliliyə, xəlqilikdən bəşəriliyə, elmilikdən fəlsəfiliyə doğru düşünüb dərk etmiş, düşündüklərini ərsəyə gətirdiyi əsərlər vasitəsi ilə oxucularla bölüşmüşdür. Yaradıcılığa hekayə ilə başlayan nasir zaman-zaman povest və romanlar qələmə almışdır. Ədib əsərlərində xalqın həyatını təsvir etmiş, müəyyən bir dönəmdən sonra ("Məhşər" romanından başlayaraq) bəşəri ideyaları bədii təxəyyülü ilə vəhdətdə yazdığı ədəbi nümunələrdə əks etdirmişdir. Bəşəri ideyalar fonunda yazıçının elmi və fəlsəfi düşüncələri meydana çıxmağa başladı. Ustad sənətkar "Saz", "Tütək səsi", "Quru budaq", "Kollu Koxa", "Şəppəli", "Faciə", "Dan ulduzu" və "Sürgün" povestlərində bir ölkənin daxilində olanları bədii sözün ecazı ilə ədəbiyyat nümunəsinə çevirirdisə, "Məhşər", "İdeal", "Qəbiristan", "Cəhənnəm" və "GurÜn" romanlarında dünyəvi məsələlərə toxunaraq, mütəfəkkir yazıçı düşüncəsini də ortaya qoyurdu. Ədibin bədii nəsrində müharibə dövrünün təsviri geniş yer almışdır. Yazıçının uşaqlıq və yeniyetməlik dövrü müharibə illərinə təsadüf etdiyindən, nasir əsasən görüb, eşidib və yaşadıqlarını bədii təxəyyülü ilə vəhdətdə ədəbi nümunəyə çevirmişdir. İsa Muğanna "Saz" povestində müharibə illərinin yaratdığı ağrı-acıları detalları ilə əks etdirmişdir. Ədib əsərdə göstərir ki, dəmirçiliklə məşğul olan İsfəndiyar kişi oğlanları müharibəyə gedənə qədər nəvələri ilə birgə xoş gün keçirərdi. Oğlanları Rəhman və Bəhmən müharibəyə getdikdən sonra İsfəndiyar kişinin gözləri yolda, qulağı səsdə oğlanlarından xəbər gözləyərdi. Povestdə əsasən yarımçıq qalan ailələrin maddi və mənəvi problemləri önə çəkilmişdir.

"Tütək səsi" povestində müəllif müharibənin gətirdiyi çətinliklərdən bəhs etmiş, kolxoz sədri Cəbrayılın hərəkətlərinin pisləndiyini göstərməklə dövrün mənzərəsini canlandırmışdır. Cümrü və Tapdığın obrazları fonunda ədib psixologizimlər ərsəyə gətirmişdir. İ.Muğanna ilk qələm təcrübəsindən başlayıb, sonrakı əsərlərində də avtobioqrafizmlər yaratmışdır. Müəllif yazdığı əsərlərdə mühitinin və dövrünün əksini avtobioqrafik obrazlar hüdudunda daha aydın, canlı, realistcəsinə təqdim etmişdir. Avtobioqrafik obraz yaratmaq ənənəsi İsa Muğanna yaradıcılığının ana xətti hesab olunur. Nasir "Tütək səsi" povestində Nuru obrazını yaratmaqla öz taleyindən müəyyən məqamları əsərdə əks etdirmişdir. "Quru budaq" əsərində canlandırdığı məktəb direktoru Nuru obrazında isə atası Mustafa Hüseynovun portretindən müəyyən cizgiləri vermişdir. Yazıçı "İdeal" və sonrakı əsərlərində də avtobioqrafik surətlərdən yararlanmışdır. "İdeal"da Səməd Əmirli, "Qəbiristan" romanında polis kapitanı Səmi, "Cəhənnəm" əsərində Səməd obrazında müəllif avtobioqrafiyasının təzahürünü görmək olur. Yaradılan bu obrazlar bütövlükdə İsa Muğannanın tale daşıyıcısı deyil. Bu obrazlarda müəllif taleyindən və xarakterindən irəli gələn müəyyən cizgiləri əks etdirmişdir. İ.Muğanna mütəfəkkir yazıçı olaraq ədəbiyyat tarixində müqtədir yerlərdən birini tutmaqda, eyni zamanda əsərlərində öz avtobioqrafik portretini yaratmaqla ədəbiyyat səhifələrində bədii obraz kimi də yer almaqdadır. Yazıçı hər iki mənada (ədəbi şəxsiyyət və bədii obraz) ədəbiyaşarlıq missiyasını qazanmışdır. İsa Muğannanın ədəbi şəxsiyyət olması fikri hələ 60-cı illərdə gündəmə gələn bir məsələ idi. Ədəbiyyatda altmışıncılar nəsli adlanan bir neçə yazıçı İsa Muğannanı özlərinə ustad olaraq qəbul etmişdilər. Yazıçı o dönəmdə gənc olsa da, onun qələminin təsir gücü geniş arenaya səs sala bilmişdir. Yazıçı Mehdi Hüseyn İ.Muğannanı etiraf olunmayan dahi adlandırmışdır. Yazıçını dahiləşdirən mühüm cəhətlərdən biri o idi ki, nasir bədii təxəyyüllə yanaşı, elmi biliklərini də artırır və yazdığı əsərlərdə elmiliklə bədiiliyi sintez halında təqdim etməyi bacarırdı. Ədib sovet rejimi dövründə yazıb yaratsa da, milli kimlik məsələsinə və mənəvi dəyərlərə əsərlərində yer ayırırdı. Bu səbəbdən də rejim tərəfdarları onu haqsız tənqidlərə məruz qoyurdu.

Bilindiyi kimi, yazıçı bir neçə ssenarinin də müəllifi olmuşdur. Ssenarisini yazdığı filmlərin Azərbaycan ədəbiyyatı və mədəniyyəti, bütövlükdə tariximiz üçün böyük əhəmiyyəti vardır. "Doktor Nərimanov" və ya "Ulduzlar sönmür" ssenarisini yazdıqdan sonra İ.Muğanna Mərkəzi Komitə üzvləri tərəfindən haqsız tənqidlərə məruz qalmışdır. Ümummilli lider Heydər Əliyevin məsələyə müdaxiləsindən sonra ədalət bərqərar olmuş, "Doktor Nərimanov" filmi Bakının kinoteatrlarında nümayiş olunmuşdur. Heydər Əliyevin yazıçıya olan bu diqqəti onun sonrakı həyatında yeni və işıqlı bir yol oldu. Bu hadisədən sonra ümummilli lider Heydər Əliyev "Nəsimi" filminin ssenarisinin yazılmasını şəxsən İsa Muğannaya tapşırdı. Ssenarini yazdıqdan sonra ədib tarixi-fəlsəfi əsər olan "Məhşər" romanını qələmə aldı. "Məhşər" yazıçının yaradıcılığında yeni bir istiqamətin əsasını qoydu. Ədib "Məhşər"dən başlayaraq tarixi əsər yazma ənənəsini inkişaf etdirdi. İsa Muğanna "İdeal" və sonrakı əsərlərində dünyəvi əhəmiyyəti olan məqamları daha çox önə çəkir, ölümsüzlük və ikinci doğuluş anlayışlarını əsərlərində əks etdirirdi. Yazıçı vurğulayırdı ki SafAğ elmi tədris olunsa ölümlü insanlar ikinci həyatın nə şəkildə başlandığını, həyatın davamını dərk edər. İ.Muğanna ölümsüzlük anlayışında da SafAğ elminin əhəmiyyətindən bəhs edirdi. Ustad sənətkar müsahibələrində qeyd edirdi ki, "İdeal" və sonrakı əsərləri "Ün" eşidərək qələmə alıb. Məsələyə bu yöndən yanaşdıqda ədibin "İdeal" və sonrakı əsərləri ("Qəbiristan", "İsaHəq MusaHəq", "Cəhənnəm", "GurÜn", "Türfə", "İlan dərəsi", "Qırx kisə qızıl", "Söz yarası") "Ün" ədəbiyyatı kimi dəyərləndirmək olar. "İdeal" və sonrakı əsərlərdə İsa Muğanna düşüncəsinə xas olan "SafAğ" elmi və "OdƏr" dili konsepsiyası aydın şəkildə görünməyə başladı. Qələm sahibi hələ "Məhşər"dən başlayaraq insanları qandan, müharibədən uzaq duraraq, elmə istinad etməyə çağırırdı. Bütün problemlərin həllində elmi əsas götürür, "İdeal" və sonrakı əsərlərində "SafAğ" elmindən bəhs edirdi. İ.Muğannanın bədii nəsrində humanist fikirlər geniş yer aldığından onun əsərlərini humanizm ədəbiyyatı nümunələri kimi də şərh etmək olar.

İsa Muğanna "İdeal"la başlayan dövr yaradıcılığında yazıçı təxəyyülü və elmi idrakının gücü ilə alt qatlara enir, alt qatlara endikcə yazıçının düşüncələri daha da üst mərtəbələrə yüksəlirdi. Ədib "İdeal"dan başlayaraq dil və dinlə bağlı yeni mülahizələr irəli sürdü ki, bu da nasirin yaradıcılığını yalnız ədəbiyyatşünaslıq üçün deyil, digər elm sahələri üçün də tədqiqat obyekti olaraq əhəmiyyətli etdi. İ.Muğanna ömrünü bütövlükdə ədəbiyyata bağlamış, heç vaxt şöhrət arxasınca getməmişdir. Yazdığı əsərlər və geniş dünyagörüşü ona şöhrət qazandırdı. Özünün də qeyd etdiyi kimi, yaxşı insanların onun qarşısına çıxması bu şöhrəti qazanmaqda mühüm rol oynadı. Ədib müsahibələrində qeyd edirdi ki, ulu öndər Heydər Əliyev, yazıçılar Mehdi Hüseyn və Mirzə İbrahimov onun taleyində və yaradıcılığında mühüm rol oynamış, bu insanların dəstəyi yazıçını daim yazıb yaratmağa ruhlandırmışdır. İ.Muğannanın yaradıcılığında milli mənəvi dəyərlərin və tarixiliyin yer alması onu yalnız ədəbiyaşar yox, həm də əbədiyaşar yazıçıya çevirdi. Yazıçı əbədi yaşayacağını əvvəldən bilir və buna inanırdı. Ədibin həyat yoldaşı Firuzə xanım söhbətlərinin birində qeyd etmişdir ki, Allah mənə elə ömür versin ki, İsa nə qədər yaşayır, mən də yaşayım. Onu heç kimə etibar edə bilmərəm. İsa Muğanna da zarafatla bildirmişdir ki, onda gərək əbədi yaşayasan. Bu il 95 yaşı tamam olan İsa Muğannanı yazdığı əsərlər ədəbi və əbədi yaşadır.

**Ülvi AYDIN,**
**Bakı Dövlət Universitetinin doktorantı,**
**AYB-nin və AJB-nin üzvü.**



*DAŞKƏSƏN*

## "MÜHARİBƏ VETERANI" VƏSİQƏLƏRİ TƏQDİM EDİLİB

**Daşkəsən Rayon İcra Hakimiyyətinin, Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) rayon bölməsinin birgə təşkilatçılığı ilə "Müharibə veteranı" statusu almış Vətən müharibəsi iştirakçılarına "Müharibə veteranı" vəsiqələrinin təqdim edilməsi mərasimi keçirilib. Rayonun Heydər Əliyev Mərkəzində keçirilən toplantıda Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev, Müdafiə Nazirliyinin məsul əməkdaşı polkovnik-leytenant Elbrus Mehdixanov, SHXÇDX-nin rayon bölməsinin rəisi Səbuhi Abdullayev, veteranlar, qazilər, şəhid valideynləri, ağsaqqallar, ziyalılar, gənclər və ictimaiyyət nümayəndələri iştirak ediblər.**



İlk öncə Dövlət Himni səsləndirilib, xalqımızın ümummilli lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü, suverenliyi uğrunda həlak olmuş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad olunub. Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev çıxış edərək qeyd edib ki, müstəqil Azərbaycanın qüdrətli və nizami orduya malik olması xalqımızın ümummilli lideri Heydər Əliyevin gərgin zəhmətinin bəhrəsidir. Ulu öndərimizin siyasi kursu bu gün onun ən layiqli davamçısı, möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilir, ölkəmizin mövqeləri beynəlxalq aləmdə daha da möhkəmlənir.

Dövlət başçısı cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırığına əsasən 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə rayonda olan şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları ilə bağlı genişmiqyaslı sosial dəstək paketi icra olunur, onların qayğıları və problemləri daim öyrənilir, yüksək səviyyədə həll edilir. Rayon rəhbəri çıxışının sonunda rayonun şəhid ailələrinə, qazilərinə və müharibə iştirakçılarına hər zaman göstərdikləri diqqət və qayğıya görə qədirbilən daşkəsənlilər adından ölkə Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlığını bildirib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun salamlarını və təbriklərini çatdıran nazirliyin məsul əməkdaşı polkovnik-leytenant Elbrus Mehdixanov və digər çıxış edənlər Vətən müharibəsi iştirakçısı olmuş igid daşkəsənlilərə xoş arzularını söyləyiblər. Tədbirin sonunda 400 nəfərdən çox müharibə iştirakçısına alqış sədaları altında "Müharibə veteranı" vəsiqələri təqdim edilib.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

*İsmayıllı*

## İctimai Şura fəaliyyətini genişləndirir

**Rayon icra hakimiyyəti yanında İctimai Şuranın tərkibi 2021-ci ilin iyul ayında seçilmiş və multikultural prinsiplər əsasında formalaşmışdır. Belə ki, azsaylı xalqların nümayəndələri - İvanovka kəndində yaşayan rus əsilli Olqa Jabina, ləzgi əsilli Arzu Mirzəyeva və başqaları üzv seçilmişlər və üzvlərin hamısı rayonda nüfuzu və təcrübəsi olan insanlardır. İctimai Şura olaraq rayonun qəsəbə və kəndlərinin, İsmayıllı şəhərinin təmizliyi və abadlığı üçün təkliflərlə çıxış etmişik.**

Rayona turistlərin çox gəlməsi ilə əlaqədar müzakirələr aparılmışdır. Qədim Lahıc və Basqal qəsəbələrinin inkişafı və əvvəlki görkəminin saxlanması diqqət mərkəzində olmuşdur. Bu işdə Lahıc qəsəbəsində yaşayan İctimai Şuranın üzvü Nəzər Əliyevin və Təzəkənd kəndindən Eynulla Babayevin xidmətləri böyükdür. İctimai Şurada vatsap qrupu yaradılıb və qrup üzvləri bir-biri ilə daim əlaqədədir.



İctimai Şurada sahibsiz heyvanların saxlanması üçün sığınacaq tikintisi haqqında təklif irəli sürülmüşdür. Beləliklə də 2022-ci ildə məişət tullantıları poliqonunda sahibsiz heyvanlar üçün sığınacaq tikilmişdir və hazırda istifadə olunur.

İctimai Şuranın üzvləri əhali arasında maariflənmə işini həyata keçirir, onların rəy və təkliflərini toplayaraq müvafiq orqanlara göndərir. İnsanların nədən narazı qaldıqlarına və təkliflərinə çox həssaslıqla yanaşılır. 2008-ci ildən çıxan "İsmayıllı Xəbərləri" qəzetinin təsisçisi və baş redaktoru şair Şahməmməd Dağlaroğlunun əməyinin qiymətləndirilməsi üçün İctimai Şura təkliflə çıxış edib. İşlədiyimiz dövrdə vətəndaşlardan 8 müraciət daxil olub və 6-sı yerindəcə həll edilib, ikisi isə əlaqədar təşkilatlara göndərilib.

Küçələrin abadlaşması və asfaltlanması üçün bələdiyyə sədri və baş memarla birlikdə şəhərə bir neçə dəfə baxış keçirilmiş, rəy və təkliflərimizi təqdim etmişik.

İsmayıllı şəhərinin baş planı işlənilir. Bununla əlaqədar rayon icra hakimiyyətinin memarlıq şöbəsinin müdiri Vüsal Abdullayevlə birlikdə ictimai şuranın üzvləri müzakirələr aparmış, İsmayıllının turizm mərkəzinə çevrilməsi ilə əlaqədar şura üzvləri Ələləm Babayev, Ağaəhməd Əhmədov, Arzu Məmmədova İsmayıllı şəhərini necə görmək istədikləri haqqında rəy və təkliflərini vermişlər.

Sürücülərin yol hərəkəti qaydalarına əməl etməməsi səbəbindən şəhər bazarının, mərkəzi univermağın ətrafında və Cavanşir küçəsində maşın və insanların hərəkətində çətinlik yaranır. Saat meydanı ləğv edilməli və həmin ərazidə maşınların park edilməsi üçün abadlıq işləri aparılmalı, intizamsız sürücülər haqqında daha təsirli tədbirlər görülməlidir.

İctimai Şura tərəfindən ictimai rəyin öyrənilməsi, dövlət siyasətinin formalaşması və həyata keçirilməsi üçün rəy və təkliflərimiz davam edir.

**Vidadi MƏMMƏDOV,**
**İsmayıllı Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın sədri.**

*Bölgələrimiz*

**Şimal bölgəsinin sosial-iqtisadi, mədəni mərkəzlərindən biri də qədim Xudat şəhəridir. Geniş turizm məkanında yerləşən bu şəhərin siması son illər xeyli dəyişib. Şəhər getdikcə yeni bir görkəm alır. Burada son 2-3 il ərzində bir çox tikinti, abadlıq, quruculuq işləri görülüb. Şəhərin xəritəsinə yeni-yeni tikililər əlavə olunub. Müasir istehsal müəssisələri yaradılıb. Parklar salınıb, küçələr abadlaşdırılıb. Yolların asfalt örtüyü təzələnib. Şəhərdə müasirtipli işıqlandırma sistemləri yaradılıb. Bütün bunlar barədə Xaçmaz Rayon İcra Hakimiyyəti başçısının Xudat Şəhər İnzibati Ərazi Dairəsi üzrə nümayəndəsi Budaq Əliyev məlumat verərək deyir:**



## Xudat şəhəri yeni görkəm alır



- 18 min 300 nəfər sakini olan şəhərimizdə son 3 ildə əhalinin rahatlığının təmin olunması, sosial infrastrukturun yaradılması, yeni iş yerlərinin açılması istiqamətində əməli addımlar atılıb. Ən əvvəl küçələrin sahmana salınmasından başlamışıq. İndiyə kimi 26 küçəyə yeni asfalt örtük çəkilib. Piyada səkiləri qaydaya salınıb. Yollar asfaltlanıb. Şəhərdə köhnə elektrik dirəkləri 3 kilometr uzunluğunda müasirtipli işıqlandırma sistemi ilə əvəz olunub. 16 mənzilli 2 yaşayış binası əsaslı surətdə təmir olunaraq sakinlərin istifadəsinə verilib. Şəhər 1 saylı tam orta məktəbi üçün tikilmiş 537 yerlik ikimərtəbəli məktəb binası da son üç ilin tikililərindəndir.

Əhalinin içməli suya olan tələbatını yaxşılaşdırmaq məqsədilə 3 yerdə artezian quyusu istifadəyə verilmiş, 2200 metr uzunluğunda içməli su xətti çəkilmişdir. Şəhərin bəzi küçələrində ümumi görünüşə xələl gətirən müxtəlif təyinatlı binaların fasadları dəyişdirilərək müasir görkəmə salınmış, bu məqsədlə həmin binalarda xeyli təmir, yenidənqurma işləri aparılmışdır. Şəhərsalma qaydaları gözlənilməklə yerli arxitekturaya uyğun yeni binalar tikilmişdir. "Bayraq meydanı" adlanan ərazi yenidən qurulmuşdur. Ötən müddət ərzində yaşıllaşdırma işlərinə də diqqət yetirilmiş, yol kənarlarında xeyli dekorativ ağac əkilmişdir.



Şəhərdə ən çox diqqətçəkən abadlıq işlərindən biri "Nizami" parkının əsaslı surətdə yenidən qurulmasıdır. Dahi şairin adını daşıyan bu park 1 hektar ərazidə yerləşir. Burada Nizami Gəncəvinin heykəli bərpa olunmuş, ətraf tamamilə abadlaşdırılmışdır. Parkda inşa olunan ikimərtəbəli 240 kvadratmetr ərazidə "Nizami Gəncəvi" muzey-kitabxanası yaradılmışdır. Xudat-Nabran yolunun üstündə - görkəmli yerdə Qarabağ şəhidlərinin xatirəsinə həsr olunmuş "Abidə-bulaq kompleksi" tikilib istifadəyə verilmişdir. Onu da qeyd edim ki, burada 27 şəhidin adını əks etdirən lövhələr yaradılmışdır.




İstehsal müəssisələrinin tikintisi də sürətlənmiş, xeyli yeni iş yerləri açılmışdır. Ötən il 2,5 min ton qabıqlı fındıq emal gücünə malik olan fındıq emalı fabriki istifadəyə verilmişdir. Şəhərimizdə istehsal xarakterli nəhəng bir müəssisənin - "Foodcity Agropark"ın tikintisi başa çatmaq üzrədir. Bu geniş aqrokompleksdə meyvə-tərəvəz qəbul edəcək iri soyuducu anbar kompleksi və digər xidmət sahələri də fəaliyyət göstərəcəkdir. Aqrokompleks 12 hektar ərazidə yerləşir. Müəssisədə 700 nəfər şəhər sakini özünə iş yeri tapacaqdır. Hazırda burada gedən tikinti işlərinə 200 nəfər cəlb olunmuşdur. Aqrokompleksin tikintisi yaxın vaxtlarda başa çatdırılacaqdır.

**Ziyafəddin BAYRAMOV,**
**"Respublika".**

# Qaçılmaz fürsət

(əvvəli 1-ci səhifədə)

Qarabağdakı separatçılara amnistiyanın mümkünlüyü məsələsini ABŞ da dəstəkləyir. ABŞ Dövlət Departamentinin mətbuat katibi Metyu Millerin "Ermənistan və Azərbaycan arasında sülh danışıqları davam edir" sərlövhəli mətbuat bəyanatında qeyd olunur ki, Ermənistanla Azərbaycan arasında danışıqların davam etdiyini görməkdən məmnunuq. M.Miller dövlət katibi Antoni Blinkenin sözlərini xatırladıb və bildirib ki, Cənubi Qafqazda sülhə nail olmaq mümkündür: "Biz bu yaxınlarda baş nazir Paşinyanın sülhə sadiqliyinə görə minnətdarlığımızı bildirdik və Prezident İlham Əliyevin amnistiya ilə bağlı son açıqlamalarını alqışlayırıq. Ermənistan və Azərbaycan liderləri bu həftənin sonunda Kişineuda avropalı tərəfdaşlarımızla görüşəcək və ümid edirik ki, bu, zorakılıq yolu ilə deyil, danışıqlar masası arxasında mövcud məsələlərin həlli üçün məhsuldar addım olacaq. Aqressiv ritorika yalnız keçmişin zorakılığını davam etdirə bilər; Konstruktiv dialoq - həm ictimai, həm də özəl - sülh, imkan və ümid yarada bilər.

Birləşmiş Ştatlar davamlı və layiqli sülh sazişi bağlamaq üçün hər iki tərəfin səylərini dəstəkləməyə hazırdır". Millerin açıqlaması deməyə əsas verir ki, Qarabağda erməni əhalisinin Bakı ilə reinteqrasiya müzakirələrini dəstəkləyən Vaşinqton separatçıların da bağışlanmasını istəyir. Prezident bunun yalnız onların təslim olacaqları təqdirdə müzakirəsinin mümkün olduğunu bəyan etdi. Bu, separatçıların son şansıdır. ABŞ-ın amnistiya məsələsini rəsmi səviyyədə dəstəkləməsi o deməkdir ki, separatçılar bunu qəbul etməyəcəyi təqdirdə, rəsmi Bakının onların zərərsizləşdirilməsi istiqamətində atacağı praktiki addımlar beynəlxalq səviyyədə də legitim olaraq qəbul olunacaq. Politoloqlar bildirirlər ki, bu şərtlər daxilində həmin adamlara, hətta separatçı qurumun "başçısı"na da amnistiya tətbiq edilməsi düşüncəsi yarana bilər. Yəni ilk addımı onlar atmalı, Azərbaycan cəmiyyətinə inteqrasiya barəsində mesajlar verməlidirlər ki, biz də onların məsuliyyətdən azad edilməsi istiqamətində addımlar atmağa başlayaq. Bu, normal və humanist bir çağırışdır. Lakin hələ ki, separatçılardan buna müsbət bir cavab gəlməyib. Ermənistanın bəzi mətbuat orqanları isə qızışdırıcı yazılar yazmaqla, bu kontekstdə Azərbaycanı təhdid edirlər.

Postmüharibə dövründə Azərbaycanın sülhə doğru bütün təşəbbüslərinə rəğmən Ermənistan ancaq aqressiya, pozuculuq nümayiş etdirib. Hər dəfə sülh danışıqları ərəfəsində və ya ondan dərhal sonra sərhəddə, Qarabağda təxribatlar törədirlər. Prezident İlham Əliyev Laçında səfərdə olarkən Ermənistana, Qarabağ ermənilərinə sülhdən, dinc yaşamaq qərarı verməkdən başqa çıxış yollarının olmadığını konkret şəkildə dedi. Lakin görünən budur ki, ermənilər ya xəstə təfəkkürdən qurtula bilmir, ya da xarici dairələrin təsiri nəticəsində təxribatçılıq ənənələrindən, pozuculuqdan əl çəkmək istəmirlər. Bir neçə gündür sosial şəbəkələrin erməni seqmentində bu yanaşma müşahidə edilir. Erməni istifadəçilər Azərbaycan Prezidentinin bu çıxışını açıq şəkildə Azərbaycanın növbəti addımlarının anonsu kimi qiymətləndirirlər. Bildirirlər ki, həm Ermənistan, həm də Qarabağdakı separatçı qüvvələr İlham Əliyevin bu təklifindən, bu şansdan istifadə etməyəcəklərsə, Azərbaycanın beynəlxalq hüququn, eyni zamanda Azərbaycan qanunvericiliyinin tələblərinə uyğun olaraq daha sərt davranışlar həyata keçirməsini görəcəklər. Beynəlxalq hüquq da sülhə məcburetmə prosesini dövlətlər üçün tanıyır.

## *Qarabağdakı separatçılara amnistiyanın mümkünlüyü məsələsini ABŞ da dəstəkləyir*



**Mustafa KAMAL,**
**"Respublika".**

# Qanunsuz taksi fəaliyyəti yolverilməzdir

**Zaman keçdikcə dünya dəyişir, bir sıra çətinliklər yaranır. Bu çətinliklər isə özünü gündəlik həyatımızda daha qabarıq şəkildə büruzə verir. Belə ki, son zamanlarda ölkəmizdə fəaliyyət göstərən taksi xidmətləri, taksi sürücülərinin qanunsuz davranışları və davamlı qəzalara səbəb olmaları ilə bağlı çoxsaylı narazılıqlar meydana gəlib.**





Şikayətlər arasında sərnişinlərin taksi xidmətlərinin keyfiyyətsiz və təhlükəli olması ilə bağlı fikirləri daha çox üstünlük təşkil edir. Həmçinin taksi sürücülərinin kartla ödəniş əməliyyatlarına müsbət yanaşmaması, bəzən məhz buna görə sərnişinlərlə kobud rəftarı da narazılıq yaradan məqamlardandır. Mövzu ilə bağlı danışan **nəqliyyat məsələləri üzrə ekspert Aslan Əsədov** son zamanlar taksi fəaliyyətinin analizi, prosedur qaydalarının təyin edilməsi ilə bağlı mühüm addımlar atıldığını bildirib. "Son iki ildə həm sosial şəbəkələrdə, həm də televiziyalarda taksilərlə bağlı xoşagəlməz videoçarxların paylaşımlarına daha çox rast gəlinir. Bunun başlıca səbəbləri müəyyən aqreqatorların işlərini düzgün qura bilməməsi, ölkəmizdəki yol hərəkət qaydalarına tam şəkildə riayət olunmamasıdır. Xüsusi vurğulamaq lazımdır ki, taksi sürücülərinin qadın sərnişinlərlə aqressiv rəftarı da təsadüf olunan hallar arasındadır. Bu cür taksi şirkətlərində gediş haqlarının ucuz olmasına baxmayaraq, keyfiyyət o qədər də ürəkaçan deyil. İctimai nəqliyyatda müşahidə edilən sıxlıq əhalinin taksilərə daha çox meyil etməsinə səbəb olur ki, bu da taksi sürücüləri arasında sui-istifadə hallarının artmasına gətirib çıxarır. Bu situasiyanın qarşısının alınması məqsədilə dövlətimiz tərəfindən mühüm addımlar atılır. Düşünürəm ki, bu cür taksi şirkətləri ancaq nəzərdə tutulmuş qayda-qanuna riayət etməklə fəaliyyətini davam etdirə biləcəklər. Qardaş ölkə Türkiyədə də işini düzgün qura bilməyən taksi şirkətləri ilə bağlı müvafiq tədbirlər görülür, həmin şirkətlərin lisenziyalarına xitam verilir. Hazırda Azərbaycanda kifayət qədər xarici və yerli taksi xidməti göstərən şirkətlər mövcuddur. Əksər şirkətlərin məlumat bazası xarici ölkələrdə yerləşir ki, bu da "Fərdi məlumatlar haqqında" Qanuna zidd hesab olunur".

Xatırladaq ki, ölkəmizdə taksi şirkətlərinin fəaliyyətinin düzgün tənzimlənməsi ilə bağlı qanun layihəsi hazırlanır. Layihənin əsas məqsədi taksi fəaliyyətində keyfiyyətin yüksəldilməsi, eləcə də qiymətlərin əhalinin büdcəsinə uyğunlaşdırılmasıdır. Hazırda həmin məsələ ilə bağlı geniş müzakirələr aparılır. Şübhəsiz, dövlətimiz hər sahəyə diqqətlə yanaşdığı kimi, bu problem də tez zamanda öz həllini tapacaqdır.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**

# Avropa İttifaqı Hayastandakı missiyasını genişləndirir



**Ötən ilin oktyabr ayında Azərbaycan, Ermənistan, Avropa İttifaqı və Fransa liderləri arasında Praqada əldə edilmiş razılaşmaya əsasən durumun monitorinqi, təhlili və yerlərdə vəziyyətlə bağlı hesabatların təqdim edilməsi məqsədilə oktyabrın 20-də Azərbaycanla beynəlxalq sərhədin Ermənistan tərəfi boyunca Aİ-nin Monitorinq Missiyası (EUMCAP) yerləşdirilib. Prezident İlham Əliyev ölkəmizin ərazisində belə bir fəaliyyətə icazə verməsə də, missiyanın Ermənistan tərəfində fəaliyyəti 2 ay müddətinə nəzərdə tutulmuşdu və elə də oldu.**

Dekabrın 19-da 40 nəfərlik heyətin işi tamamlandı. Əlbəttə, Hayastanın istəyilə Avropa İttifaqının sülh missiyası adı altında bölgəyə göndərilən qrup heç bir statusa malik olmadan sülhün deyil, Qərbin, xüsusilə də Fransanın məkrli ermənipərəst mövqeyinin növbəti təzahürüdür. Lakin missiya bölgədə olan zaman Ermənistanın istəklərini yerinə yetirməkdən boyun qaçırıb. Şübhəsiz ki, Hayastan üçün bu, qəbuledilməz hal idi.

Bundan sonra məlum oldu ki, Aİ bölgəyə uzunmüddətli missiya göndərmək niyyətindədir. Hiyləgər Hayastan hakimiyyəti istədikləri nəticəni ala bilmədikləri üçün növbəti dəfə də missiyanı bölgəyə çağırdılar.



Fevralın 20-də Avropa İttifaqının növbəti 100 nəfərlik missiyası Ermənistanda fəaliyyətə başlayıb. Əlbəttə, rəsmi Bakı bu halları qınayır və atılan addımların sülhə maneə olduğunu bildirir. Lakin beynəlxalq ictimaiyyət regionda öz hakimiyyətini qurmaq üçün daha bir yola əl atıb. Aİ-nin İrəvandakı nümayəndəliyinin mətbuat xidmətindən məlumat verilib ki, Avropa İttifaqının missiyası yaxın aylarda Cermuk, İcevan və Yeqqnadzorda üç əlavə əməliyyat mərkəzi açmağı planlaşdırır. Hazırda Missiyanın qərargahı Yeqqnadzorda yerləşir, İrəvanda 6 əməliyyat mərkəzi və əlaqə ofisi fəaliyyət göstərir. Əlbəttə, Azərbaycan Aİ-nin bu addımlarını kəskin qınayır və hazırda missiya ilə əməkdaşlıq etməkdən imtina edib.

**Politoloq Amid Əliyev** bildirir ki, Aİ-nin mülki missiyası bölgəyə gəldiyi gündən indiyə qədər əsas hədəfi Rusiya Federasiyasına qarşı yönəlib: "Belə ki, missiyanın əsas heyətinin hərbçi polis nəfərlərindən ibarət olması və son zamanlar şərti dövlət sərhədində baş verən təxribatlar zamanı missiyanın ciddi bəyanatlar səsləndirməməsi bunu deməyə əsas verir. Missiyanın Ermənistandakı rəhbəri Markus Ritterin bəyanatında diqqətçəkən məqamlar olub. Birincisi, Rusiya Federasiyası bu gün də maraqlıdır ki, həm Azərbaycanla sərhəddə, həm də Zəngəzur dəhlizi boyunca məhz Rusiya sərhədçiləri dayansın. Bu isə Qərbin və Ermənistanın maraqlarına tam ziddir. Ona görə də bu istiqamətdə əməli addımlar atmağa məcburdurlar. İkincisi, Rusiya KTMT qüvvələrinin bölgəyə, xüsusilə də sərhəddə yerləşdirilməsində olduqca maraqlıdır. Bu günlərdə Minskdə keçirilən KTMT-nin iclasında bu fikir Rusiya müdafiə naziri tərəfindən də səsləndirilib. Bu hal da Qərbin marağına uyğun deyil. Üçüncüsü, bu fikrin məhz Toyvo Klaarın bölgəyə səfəri ərəfəsində səslənməsi də əbəs deyil. Görünür, Aİ bu məsələdə Rusiyaya güzəştə getmək fikrində deyil. Nəhayət, bir müddət öncə Rusiya tərəfindən irəli sürülən Qafanda konsulluğun açılması haqqında fikirlər də bu siyasətin diplomatik yolla həllini tapmasına yönəlib.

Ümumilikdə isə Ermənistan və Qərb sərhəd məsələsində Rusiyanın iştirakını tamamilə minimal səviyyəyə salmaq istəyirlər. Bu, eyni zamanda Ermənistanın dövlət maraqlarından çıxış etməsinə də xidmət edir ki, bunu da Qərb dəstəkləyir. Baş verən proseslərin Ermənistan və Rusiya arasında sərhədə nəzarətin kim tərəfindən icra ediləcəyi sualını ortaya çıxarmış olur. Bu məsələ Azərbaycanın da marağındadır ki, Ermənistanla sərhəddə məhz erməni sərhədçiləri dayansın, nəinki Aİ mülki missiyası və ya Rusiya sərhədçiləri. Görünən odur ki, Rusiya bu məsələdə Ermənistan və onun Qərb tərəfdaşları ilə ciddi mübarizəyə girməli olacaq".

**T.SƏMƏDOVA,**
**"Respublika".**



# Ermənistan yeni ekoloji terrora hazırlaşır

**Otuz il müddətində doğma torpaqlarımıza dəyən ziyanın nəticələri bu gün də göz önündədir. Meşələrimiz yandırılıb, təbii sərvətlərimiz talan olunub, tarixi abidələrimiz dağıdılaraq məhv edilib. Lakin Ermənistan tərəfinin törətdiyi vandalizm bununla da sonlanmır. Sərhəd bölgəsində qurulan zavodların tullantıları ərazidən keçən çaylara atılıb və ətraf mühitə zərər vurulub. Həmçinin işğal dövründə Qarabağda törədilmiş genişmiqyaslı ekoloji faciələr, yüksək kimyəvi tərkibli istehsalat sularının təmizlənmədən Oxçuçaya axıdılması nəticəsində çayın Azərbaycan ərazisi boyu keçdiyi hissənin ekoloji sistemini bərpaolunmaz deqradasiyaya məruz qoyub. Əlbəttə Hayastanın bu əməlləri BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə də tamamilə ziddir. Yəni düşmən hər kəsin sağlamlığının təmin edilməsinə dair 3-cü, təmiz su və sanitariya ilə bağlı 6-cı, iqlim dəyişikliyinin fəsadlarına qarşı mübarizəyə dair 13-cü, torpaq ekosisteminin mühafizəsi üzrə 15-ci məqsədlərin ziddinə hərəkət edir.**

Təmiz təbiətdə yaşamaq hər bir insanın hüququdur. Ötən il BMT tərəfindən də bu, belə tanınıb. Lakin Ermənistanın bu əməlləri insan hüquqlarının kobud formada pozulması deməkdir. İndi də Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd ərazidə - Arazdəyən kəndində illik istehsal gücü 180 min ton olan iri metallurgiya zavodunu inşa etməyə hazırlaşır. Qeyd edək ki, hündürlüyü 30 metr, sahəsi 16500 kvadratmetr olacaq zavodun tikintisinə 70 milyon ABŞ dolları yatırılacaq. Zavodun ərazidə tikilməsi nəticəsində zəhərli kimyəvi tullantılar bölgədəki ekosistemə böyük zərbə vura bilər. Həmçinin zavoddan ixrac olunan tullantıların Araz çayına axıdılması ilə həm çaydakı canlı aləmə, həm də onun suyundan suvarma üçün istifadə edilən təsərrüfatlara zərərli ola bilər. İstehsalat səviyyəsinin aşağı düşməsi nəticəsində bölgədə yaşayan insanlar üçün ciddi problemlərin yaranması ehtimalı böyükdür. Buna görə də, iyunun 8-də Bakıda ekoloji yönümlü QHT-lər layihə əleyhinə birgə bəyanat səsləndiriblər. Toplantıda 20-dən çox ictimai birliyin nümayəndəsi iştirak edib. Birgə bəyanatda bildirilir: "Biz Azərbaycanda fəaliyyət göstərən ekoloji yönümlü qeyri-hökumət təşkilatları olaraq, başda BMT-nin Ətraf Mühit Proqramı, Ümumdünya Səhiyyə Təşkilatı, BMT-nin ətraf mühit üzrə xüsusi məruzəçisi, BMT-nin zərərli maddələr və insan hüquqları üzrə xüsusi məruzəçisi olmaqla, müvafiq beynəlxalq təşkilatlara müraciət edərək, onları bu fakta reaksiya verməyə və Ermənistanı növbəti ekoloji terror törətməkdən çəkindirməyə çağırırıq.

Amerika Birləşmiş Ştatları hökumətinə müraciət edirik ki, Arazdəyəndə iri metallurgiya zavodu tikməyə hazırlaşan, ərazisində qeydiyyatda olan şirkəti məsuliyyətli davranışa dəvət etsin, onun qanunsuzluqlarına göz yummasın. Amerika Birləşmiş Ştatları rəsmiləri, o cümlədən ABŞ-ın Azərbaycandakı və Ermənistandakı səfirlikləri susmamalı, məsələyə münasibət bildirməlidirlər.

Biz buradan Ermənistandakı ekofəallara da müraciət edirik. Bu, ilk növbədə, Ermənistanın özünün də ekoloji vəziyyətinə mənfi təsir edəcək. Bölgəni təhlükəyə sürükləyən bu prosesi durdurmaq üçün hərəkət zamanıdır".

Qeyd edək ki, Oxçuçayla yanaşı, Qarabağ iqtisadi rayonunda faydalı qazıntı yataqlarının qanunsuz istismarına qarşı Laçın-Xankəndi yolunda dekabrın 12-də ekoloji aksiya başladılıb. Həmçinin onu da bildirək ki, dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb. Buna əsasən də, dekabrın 12-dən etibarən dinc aksiya başlayıb. Ekofəallar soyuq hava şəraitinə baxmayaraq, öz haqlı mübarizələrindən geri dönməyərək aksiyalarına 138 gün davam ediblər. Ekofəalların tələbləri isə belə olub: Ermənistanla sərhəddə Laçın istiqamətində ayrıca sərhəd və gömrük nəzarəti postlarının yaradılması, torpaqlarımızda ekoloji terrora son qoyulması, Azərbaycan ərazisinə qanunsuz silah daşınmasının qarşısının alınması, nəticədə dinc aksiya iştirakçıları bir sıra mühüm nailiyyətlər əldə edib. Buna əsasən, Laçın-Xankəndi yolunun başlanğıcında sərhədçilərimiz tərəfindən sərhəd-nəzarət mexanizminin təhlükəsizliyinin yaradılması, bununla da yolda hərəkət üzrə şəffaflığın, qanunun aliliyinin və hərəkətin təmin edilməsi məsələsi öz əksini tapıb. Ekofəallar bu dinc aksiyanın məqsədini ilk gündən dünya ictimaiyyətinə düzgün formada çatdırıb. Onların bu etirazı sona qədər dinc formada aparılıb. Ekofəallar nə silah, nə də top-tüfəngdən istifadə edib. Dinc formada bölgədə həm iməcilik işləri görüb, həm də doğma torpaqları üçün ədalət mübarizəsi aparıb. Hayastan isə dinc aksiyanı orada yaşayan insanlara qarşı yönəlmiş bir aksiya kimi göstərməyə çalışırdı. Lakin aksiyaçıların toplaşdığı ərazidən keçən yolda ilk gündən sona qədər sərbəst hərəkətə heç bir maneə olmayıb və yol humanitar məqsədlər üçün tam olaraq açıq qalıb. Lakin qondarma media iddia edirdi ki, biz guya yolu bağlamışıq.

Qeyd edək ki, ekoloji aksiyaya bir çox dövlət və qurumlardan, Türkiyə, Gürcüstan, Qırğızıstan, İsveçrə, Avstriya, həmçinin Pakistandakı Dayanıqlı İnkişaf üzrə Qlobal Strateji İnstitut və Gənc Diplomatlar Forumu, İndoneziyanı təmsil edən İndoneziya Milli Gənclər Şurası, İndoneziya İƏT Gənclər Təşkilatı, Gürcüstan Müsəlman Gənclər Mərkəzi, Qırğızıstanın Gənclər Təşkilatı da dəstək bəyanatı gəlib. Həmçinin İsveçrənin Davos, Avstriyanın Vyana şəhərində həmyerlilərimiz tərəfindən ekofəallara dəstək aksiyası keçirilib.

Aksiya iştirakçıları ruh yüksəkliyi və vətənpərvərlik eşqi ilə öz dinc aksiyalarını başa vurublar. 138 gün müddətində ekofəallar günlərini Azərbaycan Himni ilə açıb, vətənpərvər mahnılar ilə davam etdiriblər. Aksiya iştirakçıları: "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Azərbaycan vahiddir, sərvətinə sahibdir!", "Ekoloji cinayətə son!", "Стоп экотеррор!", "Берегите природу!", "Экоциду нет! Мониторингу да!" və s. kimi şüarlar səsləndiriblər. Əlbəttə, Azərbaycan gəncliyi bir daha dünyaya öz gücünü göstərib.

**Töhfə SƏMƏDOVA,**
**"Respublika".**

### "KORGÖZ-TİKİNTİ-MATERİAL" ATSC
### MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
**31 dekabr 2022-ci il tarixə**

*manatla*

| N | Bölmə/Maddələrin adları | 2022 | 2021 |
|---|---|---|---|
| | **AKTİVLƏR** | | |
| | **Uzunmüddətli aktivlər** | | |
| | Torpaq, tikili və avadanlıqlar | 397237.98 | 445373.17 |
| | **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | **397237.98** | **445373.17** |
| | **Qısamüddətli aktivlər** | | |
| | Ehtiyatlar | 2347.36 | 2347.36 |
| | Qısamüddətli debitor borclar | 2832.00 | 2832.00 |
| | Pul vəsaitləri və onların ekvivalentləri | 1428.16 | 17.24 |
| | **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | **6607.52** | **5196.60** |
| | **CƏMİ AKTİVLƏR** | **403845.50** | **450569.77** |
| | **Xalis aktiv (Kapital)** | | |
| | Ödənilmiş nizamnamə ( nominal) kapitalı | 568659.53 | 568659.53 |
| | Geri alınmış kapital (səhmlər) | | |
| | Kapital ehtiyatları | | |
| | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | -1471183.80 | -1288897.24 |
| | **CƏMİ XALİS AKTİVLƏR (KAPİTAL)** | **-902524.27** | **-720237.71** |
| | **Uzunmüddətli öhdəliklər** | | |
| | **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | **0.00** | **0.00** |
| | **Qısamüddətli öhdəliklər** | | |
| | Qısamüddətli kreditor borcları | 23832.15 | 49000.00 |
| | Sair qısamüddətli öhdəliklər | 1282537.62 | 1121807.48 |
| | **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | **1306369.77** | **1170807.48** |
| | **CƏMİ ÖHDƏLİKLƏR** | **1306369.77** | **1170807.48** |
| | **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **403845.50** | **450569.77** |

### "KORGÖZ-TİKİNTİ-MATERİAL" ATSC
### MALİYYƏ FƏALİYYƏTİNİN NƏTİCƏLƏRİ HAQQINDA HESABAT
**(xərclərin xüsusiyyətləri üzrə)**
**31 dekabr 2022-ci il tarixə**

*manatla*

| N | Bölmə/Maddələrin adları | 2022 | 2021 |
|---|---|---|---|
| 1 | GƏLİRLƏR | | |
| | Malların, xidmətlərin, işlərin təqdim edilməsindən gəlirlər (Əsas əməliyyat gəlirləri) | 173173.77 | 218762.82 |
| | **Cəmi gəlirlər** | **173173.77** | 218762.82 |
| 2 | XƏRCLƏR | | |
| | Əmək haqqı xərcləri və dövlət sosial sığorta ayırmaları | 71851.35 | 76952.51 |
| | Maliyyə yardımları və sair transfer ödənişləri | 0.00 | 0.00 |
| | Sərf edilmiş materialların dəyəri | 0.00 | 0.00 |
| | Amortizasiya xərcləri | 48135.19 | 35794.44 |
| | Sair əməliyyat xərcləri | 219926.42 | 202184.39 |
| | **Cəmi xərclər** | **339912.96** | **314931.34** |
| 3 | **Ümumi mənfəət (zərər)** | **-166739.19** | **-98 278.89** |
| | Əmlakın əvəzsiz verilməsindən (alınmasından) itgilər (qazanc) | 0.00 | 0.00 |
| | Bölüşdürülməmiş mənfəət və ya zərər | -166739.19 | -96168.52 |
| | **Kapital Ehtiyatları** | **-166739.19** | **-96168.52** |
| | **Xalis mənfəət (zərər)** | **-166739.19** | **-96168.52** |

### "KORGÖZ-TİKİNTİ-MATERİAL" ATSC
### XALİS AKTİVLƏR/ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
**31 dekabr 2022-ci il tarixə**

*manatla*

| N | Bölmə/Maddələrin adları | 2022 | 2021 |
|---|---|---|---|
| 1 | **Əvvəlki hesabat dövrünün əvvəlinə balans** | -1036894.39 | -910804.39 |
| 2 | Uçot siyasətində dəyişikliklər | 0.00 | 0.00 |
| 3 | Əvvəlki hesabat dövrünün əvvəlinə düzəliş edilmiş balans | **-1036894.39** | **-910804.39** |
| 4 | Əvvəlki hesabat dövrü üzrə xalis aktivlər (kapitalda) dəyişikliklər | 0.00 | 0.00 |
| 5 | Əmlakın yenidənqiymətləndirilməsindən qazanc | 0.00 | 0.00 |
| 6 | Əmlakın əvəzsiz verilməsindən(alınmasından) qazanc (itkilər) | 0.00 | 0.00 |
| 7 | İnvestisiyaların yenidənqiymətləndirilməsindən qazanc (itkilər) | 0.00 | 0.00 |
| 8 | Əvvəlki hesabat dövrü üzrə xalis mənfəət zərər) | -96168.52 | **-126090.00** |
| 9 | Xalis aktivlərdə (kapitalda) tanınan gəlirlər | -155834.33 | |
| 10 | **Əvvəlki dövrə aid cəmi tanınan gəlirlər və xərclər** | **- 252002.85** | **-126090.00** |
| 11 | **Əvvəlki hesabat dövrünün sonuna balans** | **- 1288897.24** | **-1036894.39** |
| 12 | Uçot siyasətində dəyişikliklər | 0.00 | 0.00 |
| 13 | Hesabat dövrünün əvvəlinə düzəliş edilmiş balans | 0.00 | 0.00 |
| 14 | Hesabat dövrü üzrə xalis aktivlər (kapitalda) dəyişikliklər | 0.00 | 0.00 |
| 15 | Əmlakın yenidənqiymətləndirilməsindən qazanc | 0.00 | 0.00 |
| 16 | Əmlakın əvəzsiz verilməsindən(alınmasından) qazanc (itkilər) | 0.00 | 0.00 |
| 17 | İnvestisiyaların yenidənqiymətləndirilməsindən qazanc (itkilər) | 0.00 | 0.00 |
| 18 | Hesabat dövrü üzrə xalis mənfəət zərər) | -166739.19 | -96168.52 |
| 19 | Xalis aktivlərdə (kapitalda) tanınan gəlirlər | -15547.37 | -155834.33 |
| 20 | **Dövrə aid cəmi tanınan gəlirlər və xərclər** | **-182286.56** | **- 252002.85** |
| 21 | **Hesabat dövrünün sonuna balans** | **-1471183.80** | **- 1288897.24** |

### "KORGÖZ-TİKİNTİ-MATERİAL" ATSC
### PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
**31 dekabr 2022-ci il tarixə**

*manatla*

| N | Bölmə/Maddələrin adları | 2022 | 2021 |
|---|---|---|---|
| | **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | |
| | Pul daxilolmaları: | | |
| | Vergilər, rüsumlar və cərimələr nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları | 0.00 | |
| | Mal və xidmətlərin qiymətləri üzrə yaranan pul vəsaitlərinin daxilolmaları | 216891.05 | |
| | Sair əməliyyatla bağlı daxilolma | | |
| | **CƏMİ DAXİLOLMALAR** | **216891.05** | |
| | Pul xaricolmaları: | | |
| | Fəaliyyətin maliyyələşdirilməsi üçün büdcə təşkilatlarının digər təsərrüfat subyektlərinə pul vəsaitlərinin ödənilməsi (kreditlər istisna olunmaqla) | 0.00 | |
| | Mallara, xidmətlərə görə təchizatçılara pul vəsaitlərinin ödənişləri | 121498.43 | |
| | İşçilərə və onların adından pul vəsaitlərinin ödənişləri | 39060.81 | |
| | DSMF, İşsizlik və İcbari tibbi sığorta ödənişləri | 9520.90 | |
| | Əməliyyat fəaliyyəti ilə əlaqədar olan müvafiq vergilərin, tədiyələrin ödənilməsi ilə bağlı pul vəsaitlərinin ödənişləri | 49676.65 | |
| | Bank xərcləri | 723.34 | |
| | **CƏMİ XARİCOLMALAR** | **220480.13** | |
| | **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkətləri** | | |
| | Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin satılmasından əldə olunan pul vəsaitlərinin daxilolmaları | 0.00 | |
| | Borc alınmış pul vəsaitlərinin daxilolmaları; | 5000.00 | |
| | İnvestisiyaların satılmasından gəlirlər | 0.00 | |
| | **CƏMİ DAXİLOLMALAR** | **5000.00** | |
| | Pul xaricolmaları: | | |
| | Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi məqsədilə pul vəsaitlərinin ödənişləri | 0.00 | |
| | Digər tərəflərə təqdim edilən avanslar və borc vəsaitləri | 0.00 | |
| | Xarici valyutada qiymətli kağızların alınması | 0.00 | |
| | **CƏMİ XARİCOLMALAR** | **0.00** | |
| | **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **0.00** | |
| | **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | |
| | Pul daxilolmaları: | 0.00 | |
| | Pul xaricolmaları: | 0.00 | |
| | **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin xalis hərəkəti** | **0.00** | |
| | Pul vəsaitləri və onların ekvivalentlərinin xalis artması (azalması) | 1410.92 | |
| | Pul vəsaitləri və onların ekvivalentləri üzrə ilin əvvəlinə olan qalıq | **17.24** | |
| | **Pul vəsaitləri və onların ekvivalentləri üzrə ilin sonuna olan qalıq** | **1428.16** | **17.24** |

### "KORGÖZ-TİKİNTİ-MATERİAL" AÇIQ TİPLİ SƏHMDAR CƏMİYYƏTİN
**Rəhbərliyinə, Direktoruna:**

***Rəy***

Biz, Azərbaycan Respublikası Auditorlar Palatasının AT/237 qeydiyyat nömrəli "İcazə"sinə əsasən auditor fəaliyyəti göstərən "HL COMPANY" Məhdud Məsuliyyətli Cəmiyyətin işçi qrupu, "KORGÖZ-TİKİNTİ-MATERİAL" Açıq Tipli Səhmdar Cəmiyyətinin 2022-ci il üzrə 31 dekabr tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatından və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları "KORGÖZ-TİKİNTİ-MATERİAL" Açıq Tipli Səhmdar Cəmiyyətinin 2022-ci il üzrə 31 dekabr tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini, kapitalda dəyişiklikləri və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

***Rəy üçün əsaslar***

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq "KORGÖZ-TİKİNTİ-MATERİAL" Açıq Tipli Səhmdar Cəmiyyətindən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu və IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Əsas audit məsələləri***

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

***Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti***

Rəhbərlik maliyyə hesabatlarının IFRS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır. Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik "KORGÖZ-TİKİNTİ-MATERİAL" Açıq Tipli Səhmdar Cəmiyyətini ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik "KORGÖZ-TİKİNTİ-MATERİAL" Açıq Tipli Səhmdar Cəmiyyətinin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır, iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər "KORGÖZ-TİKİNTİ-MATERİAL" Açıq Tipli Səhmdar Cəmiyyətinin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

***Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti***

Bizim məqsədimiz maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda, yaxud məcmu olaraq, istifadəçilərin belə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsiretmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

**"HL Company" MMC-nin direktoru - Auditor H.Həsənov**

**25 may 2023-cü il**
**Bakı, Azərbaycan**

## TENDERDƏ İŞTİRAKA DƏVƏT

09.06.2023-cü il tarixdə "Bakımənzilavtomat" İxtisaslaşdırılmış İstehsalat İdarəsi lift ehtiyat hissələrinin satınalınması üzrə Açıq tender elan edir.

**Tender 1 lotda keçirilir.**

**LOT 1. Lift ehtiyat hissələrinin satınalınması**

Tender iştirakçılarına təklif edilir ki, http://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplsunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə bilərlər.

**Hər bir iddiaçı tenderdə iştirak haqqı kimi:**

**LOT 1 – 250 manat**

məbləğində pul vəsaitini aşağıdakı Bank hesabına köçürməlidir:

İştirak haqqının ödənilməsi yalnız Asan Ödəniş vasitəsilə həyata keçirilə bilər.

*Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:*

*Hesab AZ25IBAZ38060019449873117206*
*VÖEN 1400294761*
*Bank "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Nərimanov filialı*
*Kodu 805540*
*VÖEN 9900001881*
*M/H AZ03NABZ01350100000000002944*
*SWIFT IBAZAZ2X*

**İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.**

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:**

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə sənəd;*
*- vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən bank arayışı);*
*- iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
*- tender təklifini və satınalma müqaviləni imzalamaq salahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
*- iddiaçının analoji iş təcrübəsini təsdiq edən sənədlər, təqdim olunacaq malların mənşə və uyğunluq setifikatları;*
*- tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
*- iddiaçının tender təklifi. Təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
*- iddiaçının tender təklifinin bank təminatı (zərflər açıldığı gündən ən azı 60 bank günü müəyyən edilir və təklifin qiymətinin ən azı 1 (bir)%-ni təşkil etməlidir).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə və ya razılaşma, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istina olmaqla) 05 iyul 2023-cü il saat 11:00-dək, tender təklifini və tender təklifinin bank təminatını isə 13 iyul 2023-ci il saat 17:00-dək dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təklflər dövlət satınalmalarının vahid internet Portalında nəzərə alınmayacaqdır.

İddiaçıların təklifləri 14 iyul 2023-cü il saat 11:00-da dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL VASİTƏSİLƏ aparılır.*

**Tender Komissiyası.**

## İDMAN — DAİM ZİRVƏLƏRDƏ




### "Əziz Şuşa" beynəlxalq velosiped yarışı

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş "Əziz Şuşa" beynəlxalq velosiped yarışı davam edir. Turnirin ikinci mərhələsi Qəbələ Rayon İcra Hakimiyyətinin qarşısından start götürüb. Velosipedçilər bu dəfə 176,2 kilometr məsafə qət edərək Qəbələ - Şəki - Qəbələ marşrutu ilə hərəkət edəcəklər. Qeyd edək ki, birinci günün qalibi Bakıdan Şamaxıya 150 kilometr məsafəni qət edərək bolqarıstanlı Martin Papanov olub.




### Ölkə çempionatına yekun vurulub

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Azərbaycan Kapoeyra Federasiyası, Gənclər və İdman Nazirliyinin birgə təşkil etdiyi kapoeyra üzrə Azərbaycan çempionatı keçirilib. İki gün davam edən yarışlarda uşaq, yeniyetmə və gənclər arasında müxtəlif çəki və yaş kateqoriyalarında qaliblər müəyyənləşib. Qızların yarışında Səma Tahirli, Yağmur İsmayılova, Asya Atayeva, Mehriban Hacıbabayeva, oğlanların mübarizəsində isə Nail Ənvərli, Məhəmməd Cabbarlı, Mikayıl Tağıyev, Fikrət Dadaşov, Davud Hüseynli, Nicat Cəfərli və digərləri fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Qaliblər milli komandanın heyətinə cəlb olunub və qarşıdakı beynəlxalq turnirlərdə ölkəmizi təmsil etmək hüququ əldə ediblər.



### Gimnastlarımız beynəlxalq turnirdə

Bu gün Misirin paytaxtı Qahirədə bədii gimnastika üzrə "Pharaohs Cup" beynəlxalq turnir start götürür. Azərbaycanın bədii gimnastları da turnirdə iştirak edəcəklər. Gənclərdən ibarət yığma komandanın tərkibində fərdi gimnastlar Nuray Əhmədzadə və Şəms Ağahüseynova, eləcə də qrup hərəkətləri komandasının üzvləri Gövhər İbrahimova, Səkinəxanım İsmayılzadə, Mədinə Aslanova, İlahə Bahadırova, Ayan Sadıqova və Zəhra Cəfərova yarışa yollanıblar. Yarışlar 3 gün davam edəcək.

**Nərgiz İSMAYILOVA, "Respublika".**

## DÜNYA XƏBƏRLƏRİ

### RUSİYAYA SANKSİYALARDAN YAYINMAĞA KÖMƏK EDƏN ÖLKƏLƏRİN ADI AÇIQLANIB



Rusiya sanksiyalara baxmayaraq, əsas elektron avadanlıqların idxalını istədiyi həcmdə bərpa edə bilib. "Teleqraf.com"-un verdiyi xəbərə görə, bu barədə "Politico" qəzeti məlumat yayıb.

ABŞ Dövlət Departamentinin sanksiyalar üzrə koordinatoru Cim Obrayn nəşrə bildirib ki, Rusiyaya əsas mikroçiplərin və elektron avadanlıqların idxalı müharibədən əvvəlki səviyyəyə qayıdıb.

"Problem ondan ibarətdir ki, Avropa şirkətləri materialları başqa ölkələrə satır, onlar da öz növbəsində bunları Rusiyaya satırlar. Bu ilin əvvəlində Rusiya bəzi əsas kateqoriyalı elektron avadanlıqları idxal edə bilib", - deyə Cim Obrayn bildirib.

Eyni zamanda, koordinator bura çiplər, prosessorlar və inteqral sxemlərin daxil olduğunu bəyan edib.

ABŞ rəsmisi qeyd edib ki, bu komponentlər müasir silahların istehsalında olduqca vacibdir. Onun sözlərinə görə, ABŞ sanksiyalardan yayınmağa kömək edən beş ölkə müəyyən edib: onlar Türkiyə, Qazaxıstan, Gürcüstan, Birləşmiş Ərəb Əmirlikləri və Ermənistandır.

### XERSON VİLAYƏTİNİN 600 KVADRATKİLOMETR SAHƏSİNİ SU BASIB



Müharibə gedişində Rusiyanın nəzarəti altına keçən Ukraynanın Xerson vilayətinin 600 kvadratkilometr sahəsini su basıb. "Report" agentliyinin verdiyi xəbərə görə, bunu Xerson vilayətinin dövlət administrasiyasının başçısı Aleksandr Proskudin bildirib.

Bununla yanaşı, Ukraynalı vilayət rəhbərinin sözlərinə görə, Dnepr çayının sağ sahilinin 32 faizini, sol sahilinin isə 68 faizini su basıb.

Aleksandr Proskudinin sözlərinə görə, həmin ərazidə suyun səviyyəsi 5,61 metrdir. Ərazidən 2000 nəfərə qədər insan artıq təxliyə edilib. O, bu prosesin davam etdiyini də vurğulayıb.

Rusiya mediasının məlumatına əsasən isə 14 min ev su altında qalıb, 4300-ə yaxın sakin təxliyə olunub.

Qeyd edək ki, Ukraynada Kaxovka SES-in bəndi iyunun 6-da partladılıb.

Bu stansiya Ukraynanın cənubundakı rayonların elektrik, enerji, suvarma və su təchizatı, eləcə də Dnepr çayının axınının tənzimlənməsini təmin edirdi. Kaxovka SES-i 2022-ci ilin fevralında Şimali Krım kanalı ilə birlikdə Rusiyanın nəzarətinə keçib.

### FRANSA HƏRBİ BUDCƏSİNİ KƏSKİN ŞƏKİLDƏ ARTIRMAQ NİYYƏTİNDƏDİR



Birinci oxunuşda təsdiq edilən silahlı qüvvələrin modernləşdirilməsi üçün Fransanın müdafiə büdcəsinin artırılmasına dair yeddiillik plan Fransa Milli Assambleyası üzvlərinin səs çoxluğu ilə dəstəklənib. "Trend" agentliyinin məlumatına görə, bu barədə "Le Figaro" qəzeti xəbər verib.

Bildirilir ki, qanun layihəsinə əsasən, 2024-cü ildən 2030-cu ilə qədər ölkənin müdafiə sahəsinə 413,3 milyard avro ayrılacaq.

Məlumata əsasən, 408 deputat sənədin lehinə, 87 nəfər isə əleyhinə səs verib. İndi sənəd baxılmaq üçün Senata təqdim olunacaq. Fransa mətbuatının yazdığına görə, bununla bağlı iyulun 14-dən əvvəl qərarın veriləcəyi gözlənilir.

Fransa mətbuatının qeyd etdiyinə görə, müdafiə xərclərinin əvvəlki illərlə müqayisədə xeyli yüksək olması sadəcə inflyasiya ilə əlaqədardır.

### AVROPADA NATO TARİXİNİN ƏN BÖYÜK HƏRBİ-HAVA TƏLİMLƏRİ KEÇİRİLƏCƏK



NATO tarixinin ən böyük hərbi-hava təlimlərini keçirəcək. "Air Defender 2023" təlimləri 12-23 iyun tarixlərində Almaniya və Şərqi Avropada 250-dən çox döyüş təyyarəsinin iştirakı ilə keçiriləcək. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Verilən xəbərə görə, Amerika Birləşmiş Ştatları Hərbi Hava Qüvvələrinə məxsus təxminən 110 təyyarə təlimlə əlaqədar Avropaya gedəcək.

Təlimlərdə Avropanın NATO-ya üzv ölkələrindən 80, beynəlxalq tərəfdaşların isə 60 təyyarəsinin iştirakı gözlənilir.

Almaniyanın ev sahibliyində keçiriləcək hərbi-hava təlimlərinin məqsədi alyansın müdafiəsini möhkəmləndirmək, havada çəkindirmə qüvvələrinin olduğunu nümayiş etdirmək və həmrəyliyi gücləndirməkdir.

### DONALD TRAMPA QARŞI CİNAYƏT TƏHQİQATINA BAŞLANILIB



ABŞ federal prokurorları ölkənin keçmiş prezidenti Donald Trampa qarşı cinayət təhqiqatına başlayıblar. "Report" agentliyinin verdiyi xəbərə görə, bu barədə "Politico" qəzeti mənbələrinə istinadən məlumat yayıb.

Bildirilir ki, artıq keçmiş dövlət başçısına proseslə bağlı xüsusi bildiriş də göndərilib.

Qeyd edilir ki, həftənin əvvəlində Donald Trampın vəkilləri ölkənin Baş Prokurorluğu funksiyası yerinə yetirən ABŞ Ədliyyə Nazirliyinin nümayəndələri ilə görüşüb.

Məlumata əsasən, xüsusi prokuror Cek Smit hazırda keçmiş ABŞ liderinin məxfi sənədlərlə düzgün davranmamasını araşdırır. Nəşrin xəbərinə görə, bildirişlə əlaqədar Smit Trampı cinayət işi üzrə ittiham etmək qərarına gələ bilər.

### ALMANİYADA İŞÇİ ÇATIŞMAZLIĞI İQTİSADİ İNKİŞAFA TƏHDİD YARADIR



İşçi qüvvəsi çatışmazlığı Almaniyanın iqtisadi artımını təhdid edir. "Report"un verdiyi xəbərə görə, bu barədə "Bloomberg" agentliyi məlumat yayıb.

Agentlik bildirib ki, Almaniya hökuməti institutunun araşdırmasına görə, ölkənin işçi qüvvəsi hazırda 47 milyon nəfərdir, lakin tezliklə artım dayanacaq və bu, almanların daim yaxşılaşan həyat səviyyəsinin sonu olacaq.

Qeyd olunur ki, ciddi dəyişikliklər olmasa, bu rəqəm növbəti illərdə kəskin şəkildə azalacaq, iqtisadi artım zəifləyəcək, inflyasiya təzyiqləri artacaq və məhsuldar şirkətlər üçün xüsusilə ciddi problemlər yaranacaq.

Eyni zamanda, iqtisadi artımı indiki səviyyədə saxlamaq üçün ölkəyə hər il 400 min yeni işçi lazımdır. Məlumata görə, miqrasiya dalğası da bu problemi həll etməyib.

"Bloomberg"in proqnozlarına görə, ölkə iqtisadiyyatının ümumi artımı çətin ki, on il ərzində 1 faizi keçə bilsin. Almaniya qarşıdakı on il ərzində bütün Qərb həmkarlarından daha böyük demoqrafik azalma ilə üzləşəcək.

### BƏƏ DÖRDGÜNLÜK İŞ HƏFTƏSİNƏ KEÇİR



Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) İnsan Resursları üzrə Federal Qurumunun müəyyən etdiyi yeni iş qaydalarına əsasən, bu ölkədə federal hökumət işçiləri dördgünlük iş həftəsinə keçmək hüququ qazanacaqlar. "Teleqraf.com"un vediyi xəbərə görə, bu barədə "Emirates" informasiya agentliyi məlumat yayıb.

Bildirilir ki, iyulun 1-dən qüvvəyə minəcək yeni qaydalara görə, dövlət işçilərinin artıq təyin olunmuş həftəlik iş saatları dörd gün ərzində gündəlik 10 saatdan və ya həftədə 40 saatdan çox olmayacaq. Bu iş rejimi həm işçinin, həm də işəgötürənin razılığını tələb edir. Özəl sektorda çalışanlar üçün isə heç bir qayda müəyyən edilməyib.

Dördgünlük məhdud iş rejimi BƏƏ-də dövlət işçiləri üçün yeni İnsan Resursları qanununda nəzərdə tutulan bir sıra iş modellərdən biridir. Bu plan həm ölkə daxilində, həm də xaricdə çalışan hökumət işçilərinə uzaqdan işləməyə imkan verir.

BƏƏ-nin rəsmiləri bildiriblər ki, İnsan Resursları haqqında yeni qanun çevik iş modelləri hazırlamaq və dövlət qurumlarını daha səmərəli etmək üçün nəzərdə tutulub.

**Hazırladı: Vamiq ABBASOV, "Respublika".**

# Hava necə olacaq?

Proqnoz
9 iyun




| | |
|---|---|
| Sumqayıt | 19° / 31° |
| Xankəndi | 14° / 26° |
| Masallı | 15° / 28° |
| Salyan | 18° / 31° |
| Cəbrayıl | 16° / 28° |
| Zəngilan | 16° / 30° |
| Qubadlı | 16° / 29° |
| Ağcabədi | 17° / 31° |
| Şəmkir | 17° / 26° |
| Tovuz | 16° / 27° |
| Tərtər | 17° / 29° |
| Balakən | 18° / 28° |
| Oğuz | 16° / 26° |
| Göyçay | 18° / 29° |
| Yevlax | 18° / 30° |
| Qobustan | 13° / 26° |

Yüksək temperatur · Günəşli · Qismən buludlu · Parçalı buldulu · Buldulu · Arabir yağışlı · Yağış yağacaq · İldırım çaxacaq · İldırımlı-yağışlı · Qar yağacaq · Aydın gecə · Buludlu gecə · Külək əsəcək

# Azercell-in dəstəyi ilə "Uşaq Paralimpiya kuboku" turniri

**"Azercell Telekom" MMC-nin dəstəyi, Milli Paralimpiya Komitəsinin təşkilatçılığı ilə Respublika Paralimpiya İdman Kompleksində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Uşaq Paralimpiya kuboku" turniri baş tutub.**

Turnirdə 5 idman növü üzrə (para-cüdo, stolüstü tennis, para-taekvondo, para-üzgüçülük, pauerliftinq) 150-dən artıq paralimpiyaçı uşaq iştirak edib. Gənc idmançılar arasında Bakı və Sumqayıt şəhərləri ilə yanaşı Naxçıvan, Gəncə, Şirvan, Ağcabədi, Ağdaş, Ağsu və Bərdə şəhərlərindən olan uşaqlar da var.




Azercell-in 2014-cü ildən etibarən Azərbaycan Uşaq Paralimpiya Komitəsinə dəstəyi sayəsində sağlamlıq imkanları məhdud olan uşaq və yeniyetmələr kütləvi idman tədbirləri, yerli və beynəlxalq əhəmiyyətli yarışlarda iştirak edirlər. Bu, uşaqların cəmiyyətə inteqrasiya olunması və onların idmana həvəsinin artırılmasında böyük əhəmiyyət kəsb edir.

**Ülvi QARAYEV,**
**"Respublika".**

## İyunun 8-də Azərbaycanda COVID-19 infeksiyasına 4 yoluxma faktı qeydə alınıb

**Son sutkada Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına 4 yoluxma faktı qeydə alınıb, 13 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nəticələri müsbət çıxan 1 nəfər dünyasını dəyişib.

İndiyədək ölkədə ümumilikdə 831 min 873 nəferin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 821 min 572 nəfər müalicə olunaraq sağalıb, 10 min 280 nəfər vəfat edib. Aktiv xəstə sayı 21 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 678, indiyə qədər isə ümumilikdə 7 milyon 629 min 576 test icra olunub. ■

## OXUCULARIN NƏZƏRİNƏ!

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ
RESPUBLİKA
TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ
GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL İQTİSADİ QƏZET

*qəzetinə 2023-cü ilin ikinci yarısı üçün*
*abunə yazılışı kampaniyası davam edir!*

***Abunə yazılışı üçün respublikanın bütün poçt şöbələrinə və özəl mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz.***

| | |
|---|---|
| 1 illik | 187,20 (bir yüz səksən yeddi manat iyirmi qəpik) manat |
| 6 aylıq | 93,60 (doxsan üç manat altmış qəpik) manat |

**Hörmətli oxucular!**
**Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 510-82-52, (012) 493-59-08 və (012) 537-07-06 nömrəli telefonlara zəng vura bilərsiniz.**

**Abunə yazılmağa tələsin!**

Baş redaktor
Hümbət MUSAYEV

Redaksiya ilə əlaqə nömrələri

| | |
|---|---|
| Qəbul otağı | 493-59-08 |
| Katiblik | 538-43-41 |
| Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası | 538-55-20 |
| Rəqəmsal inkişaf, iqtisadiyyat və islahatlar redaksiyası | 434-56-90 |
| Humanitar siyasət redaksiyası | 538-25-70 |
| Xəbərlər, ictimai rəy və sosial problemlər redaksiyası | 538-01-31 |
| Texniki şöbə | 538-61-02 |
| Ümumi şöbə | 510-82-52 |
| Reklam və elan xidməti | 441-20-23 |

Redaksiyanın ünvanı
AZ1073, Bakı, Mətbuat prospekti,
529-cu məhəllə, VII mərtəbə.
www.respublika-news.az
respublikaqezeti@mail.ru, resp.paper@gmail.com

Qeydiyyat №7 | İndeks 0240 | Tiraj: 5429

*"Respublika" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində ofset üsulu ilə çap olunmuşdur.*

Qəzetin saytına keçid üçün QR kodu telefonunuzla oxudun

Sifariş 1444, Satış qiyməti 40 qəpik

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC**

***tabeliyində olan struktur idarələr üçün elektrik mallarının satınalınması məqsədilə***

**AÇIQ MÜSABİQƏ ELAN EDİR**

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il iyun 19-u saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan:** *AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.*

**Əlaqə telefonu:** *(012) 404-37-00, daxili: 1177*

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ
RESPUBLİKA
REKLAM VƏ ELAN XİDMƏTİ
441-20-23

**"Bakımənzilavtomat" İxtisaslaşdırılmış İstehsalat İdarəsi**

"Bakımənzilavtomat" İxtisaslaşdırılmış İstehsalat İdarəsi 04 may 2023-cü il tarixdə dərc etdirdiyi 1 (bir) lot (064241-R2) üzrə keçirəcəyi Açıq Tenderin ləğv olunduğunu elan edir.

**Tender Komissiyası.**

# Bəşəriyyətin təkamülü prosesləri və ya dünya düzənini dəyişdirən hadisələr

## (keçmişdən indiyə)

İnsanlığın yaranışından bəri nə qədər vaxt keçsə də tarixən baş verən bəzi hadisələr öz təsirini itirməyib və bəşəriyyətin formalaşmasında böyük rol oynayıb. Təkcə yaşandığı dövrlərlə məhdudlaşmayan sadədən mürəkkəbə, ibtidaidən aliyə inkişaf yolu keçən bu proseslər həm də keçmişdən gələcəyə dəyərli miras qoyub. Müəyyən şərtlər altında ortaya çıxan müharibələr, ixtiralar kimi, bəzi mühüm olaylar kəpənək effekti yaradaraq bütünlükdə tarixin gedişatına təsir etməklə dünyanın gələcəyini dəyişdirib. Təkərin, yazının ixtirasından sənaye inqilabına, Dünya müharibələrindən insanın Aya ilk ayaq basmasına və bu gün robototexnikadan tutmuş dron, çip, ağıllı cihazların inkişafına qədər bir sıra texnologiyaların istehsalı ilə əl əməyinin getdikcə sıradan çıxması həm bugünkü dünyanın nizamına, həm də həyat tərzimizə böyük təsir göstərib. Bəlkə də bu hadisələrin çoxu yaşanmasaydı dünya indikindən daha fərqli olardı. Həyatımıza və sivilizasiyaya təsir edən təsadüfdənmi, yoxsa zərurətdən doğan bu hadisələrlə planetimizdə yaşamın haradan-haraya gəlməsinə nəzər salmaqla tarixə ekskurs edək...

Bəşəriyyətin təkamülünə səbəb olmaqla tarixin gedişatını dəyişdirən ən mühüm hadisələrdən olan "Berlin divarının dağıdılması"nı oxuculara təqdim edirik.

**"Respublika".**

İkinci Dünya müharibəsində müttəfiq olan ABŞ, Böyük Britaniya və SSRİ birləşərək Hitler Almaniyasına qalib gəldilər. Sovet qoşunlarının ələ keçirdiyi Berlin müttəfiqlər arasında əldə olunan razılaşmaya əsasən, 4 zonaya - Fransa, SSRİ, Böyük Britaniya və ABŞ zonalarına bölündü. Gələcəkdə bu zonaların birləşdirilməsi və ümumalman seçkilərinin keçirilməsi nəzərə tutulurdu. Lakin yuxarıda qeyd olunduğu kimi, Uinston Çörçillin "Fulton nitqi" Sovet İttifaqı ilə gərginliyə yol açdı.

Qərb müttəfiqlərinin nəzarətində olan Almaniya torpaqlarında 1948-ci ildə Almaniya Federativ Respublikası yaradıldı. Cavab olaraq SSRİ öz nəzarətində olan torpaqlarda Almaniya Demokratik Respublikasını yaratdı. Almaniyanın yenidən vahid dövlət halında birləşməsi perspektivləri tamamilə məhv oldu. Münasibətlərin kəskinləşdiyi zamanda Berlin şəhərinin rəsmi statusu da əsas müzakirə mövzularından biri idi. Belə ki, Qərb müttəfiqlərinin Qərbi Berlindəki işğal zonası Almaniya Demokratik Respublikasının mərkəzində yerləşirdi və hər tərəfdən mühasirədə idi.

ABŞ, Fransa və Britaniya işğal zonalarını birləşdirərək Qərbi Berlini sovet təsir dairəsində öz anklavlarına çevirdilər. ADR (Almaniya Demokarik Respublikası) və SSRİ müttəfiqlərin təcriddən bezərək Berlinin Qərbini tədricən tərk edəcəyinə ümid bəsləsələr də bu, baş vermədi. Əksinə, ABŞ Qərbi Berlinə hərbi yardımlar göstərdi. Ümumiyyətlə, Qərbi Berlin xüsusi statusa malik olduğu 1949-1990-cı illər ərzində Almaniya Federativ Respublikasının Konstitusiyasının fəaliyyət göstərmədiyi ərazi idi. Şəhərdə alman ordusu deyil, amerikalı və britaniyalı hərbçilər yerləşdirilmişdi. Qərbi berlinlilər Almaniya seçkilərində səs vermir, hərbi mükəlləfiyyətdən azad hesab olunur və öz qanunverici orqanlarının qərarı ilə idarə olunurdular.



### Berlin divarının dağıdılması

Bəşəriyyətin təkamülünə səbəb olaraq dünyanın düzənini, eləcə də tarixin gedişatını dəyişdirən ən mühüm hadisələrdən biri də 9 noyabr 1989-cu ildə Berlin divarının dağıdılmasıdır. Azadlıq uğrunda gedən mübarizənin simvoluna çevrilən bu hadisə nəticəsində Almaniyada şərq və qərb ayrılığı bitmiş, Almaniya Demokratik Respublikası rəsmi olaraq sonlandırılmışdır.

Şərqi Almaniya vətəndaşlarının Qərbi Almaniyaya getməklərinə əngəl olmaq üçün 1961-ci il avqustun 13-də bir gecə içində hörülən 43 kilometrlik divarın dağıdılması ikinci dünya savaşından sonra mövcud olan "soyuq müharibəyə" simvolik olaraq "yox" deməklə tarixə düşüb. Qeyd edək ki, həmin divar qərbdə illərlə "Utanc divarı" (Schandmauer) olaraq da xatırlanıb.

1946-cı il martın 5-də ABŞ-ın Missuri ştatının Fulton şəhərində çıxış edən Böyük Britaniyanın baş naziri Uinston Çörçill Sovet İttifaqını sərt tənqid edən çıxışı ilə sonradan tarixdə "Soyuq müharibə" adlandırılacaq yarıməsrlik ideoloji, siyasi və hərbi qarşıdurmanın əsasını qoymuş oldu. Birlikdə faşizm üzərində qələbə qazanmış keçmiş müttəfiqlər dünyada yaranmış yeni geosiyasi reallıqda bir-birinə düşmən kəsildilər.

Çörçill çıxışında Varşava, Berlin, Budapeşt, Praqa, Sofiya, Belqrad, Vyana, Buxarest kimi Mərkəzi və Şərqi Avropa paytaxtlarının "sovet təsir dairəsi"ndə olduğunu və rəsmi Moskvanın yerli kommunist partiyalarını hakimiyyətə gətirdiyini bildirmişdi. Bu çıxış demokratik dəyərlərə əsaslanan kapitalist Qərbi sosializm ideyaları ilə idarə olunan Sovet İttifaqına qarşı qoydu.

Bu 2 ideoloji-siyasi sistem arasında mövcud olan rəqabət özünü dünyanın müxtəlif nöqtələrində - Kuba böhranında (1962), Vyetnam müharibəsində (1965-1975), Əfqanıstan müharibəsində (1979-1989) və s. büruzə verirdi. "Soyuq müharibə"nin belə gərgin nöqtələrindən biri də Berlin şəhəri ilə bağlı idi. Uzun illər bu şəhəri iki hissəyə - Qərbi və Şərqi Berlinə ayıran 43 kilometrlik divar "Soyuq müharibə"nin simvolu sayılırdı.



1954-cü ilə qədər sovet nəzarətindəki Şərqi Berlinlə Qərbi Berlin arasında gediş-gəliş sərbəst idi. Şəhəri iki yerə ayıran 43 kilometrlik sərhəd xətti evlərin arasından, çay kanallarından və s. keçirdi. Sərhəd zolağı boyu yerin üstündə 81, metro xəttində isə 13 stansiya keçid məntəqəsi rolunu oynayırdı.

Berlinin Şərqi və Qərbi arasında aydın sərhəd xəttinin olmaması müəyyən anlaşılmazlığa, insanların sərhədi icazəsiz keçməsinə, casusluq fəaliyyətinə səbəb olurdu. Digər tərəfdən Almaniya Demokratik Respublikasında pulsuz təhsil alan gənclər gizli yollarla Qərbi Berlinə keçir və burada çalışaraq, daha çox qazanc əldə edirdilər.

1957-ci ildə AFR kansleri Konrad Adenauer Almaniya Demokratik Respublikasını tanıyan dövlətlərlə diplomatik münasibətlərin kəsiləcəyi ilə bağlı qanun layihəsinin qəbul olunmasına nail oldu. Sovet tərəfinin Qərbi Berlinin hərbsizləşdirilməsi ilə bağlı təklifi də Qərb dövlətləri tərəfindən rədd olundu. Əksinə, 1961-ci ilin mayında NATO Qərbi Berlinə yeni hərbi qüvvələr göndərdi. Cavab olaraq SSRİ rəhbəri Nikita Xruşşov Berlini "ADR-in paytaxtı" adlandırdı və Qərbi Berlinin "azad şəhər" elan olunmasını tələb etdi. ADR-in 1-ci katibi Valter Ulbrixt isə Şərqi və Qərbi Berlin arasında etibarlı sərhədin olmasını tələb edirdi. Ulbrixt təkcə 1961-ci ildə Şərqdən Qərbi Berlinə 270 mindən artıq insanın qaçdığını deyirdi.

1961-cı il avqusutn 3-5-i tarixlərində yaranmış vəziyyətlə bağlı Moskvada Varşava Müqaviləsi Təşkilatına üzv olan kommunist dövlət başçılarının geniş iclası keçirilir. Məhz bu görüş zamanı Berlin şəhərini iki yerə ayıracaq divarın çəkilməsi qərara alınır. Artıq avqustun 7-də şəhərin iki hissəsi arasında sərhəd xətti bağlanır. 1961-cı il avqustun 13-ü gecə saatlarında isə Berlin divarının tikintisinə start verilir. ADR-in 25 minlik hərbləşdirilmiş qrupları Qərbi Berlinlə sərhəd zolağı boyunca mövqe tutur və tikinti işlərinə başlayırlar. Sovet ordusu da tikintinin getdiyi müddətdə döyüş hazırlığına gətirilir. Şəhəri iki yerə ayıran sərhəd xəttindəki bütün evlər sökülür və sakinlər köçürülür. 4 metro xətti və sərhəd keçid məntəqələri də bu müddətdə fəaliyyətini dayandırır. 1961-ci ildən 1975-ci ilə qədər Berlin divarının tikintisi və yenilənməsi davam edir. Tikanlı məftillərdən, beton seqmentlərindən ibarət 3,6 metr hündürlüyə malik divar, müşahidə qalaları, xəbərdarlıq raketlərindən ibarət şəbəkə, projektor-işıqlandırma sistemi və s. mühəndis priyomlarından ibarət Berlin divarı yalnız Berlini deyil, həm də Qərblə Şərqi, kapitalizmlə sosializmi bir-birindən ayıran simvol halına gəlir.

Divarın hörülməsindən sonra Qərbi Berlinə səfər etmək ADR vətəndaşları üçün xeyli çətinləşdi. Təqaüdçülər istisna olmaqla, qalan hər kəs bunun üçün xüsusi icazə almalı idi. 43 kilometrlik divar boyu xüsusi postlar quraşdıran ADR hakimiyyəti sərhədi qanunsuz keçməyə çalışan şəxslərin qarşısını almaq istəyirdi. Lakin ADR hakimiyyəti sərhəd pozuntularının qarşısını tam ala bilmirdi. 1989-cu ilin 8 noyabrına qədər Qərbi Berlinə 5054 dəfə qaçış aksiyası baş tutmuşdu. İnsanlar hazırladıqları uçuş aparatları, deltaplanlar vasitəsilə, kəndirlə, yeraltı tunellərlə, buldozerlə və s. kommunist Almaniyasını tərk etməyə çalışırdılar.

Digər tərəfdən isə 1964-1989-cu illər ərzində Almaniya Demokratik Respublikasının qeyri-rəsmi razılığı əsasında pul qarşılığında 215 min Şərqi Almaniya sakininin Qərbi Berlinə, yaxud Almaniya Federativ Respublikasına buraxılmasına icazə vermişdi. Onu da qeyd edək ki, Berlin divarının mövcud olduğu 28 il ərzində azı 125 nəfər sərhədi keçmək istəyərkən öldürülmüşdü. Həmin dövrdə ADR xüsusi xidmət orqanı olan "Ştazi" divarı Şərqi Berlin istiqamətindən aşmaq istəyən istənilən şəxsin güllələnməsi barədə polisə göstəriş vermişdi. Amma Qərbi Berlindən qaçaraq ADR-ə gələn şəxslərə qarşı silah istifadə olunması qadağan idi. Berlin divarını aşan Qərbi berlinlilər adətən içkili halda bu addımı atanlardan, yaxud divarın mövcud olmasına etiraz edən şəxslərdən ibarət olurdu.





1987-ci il iyunun 12-də Berlinin 750 illiyi ilə bağlı şəhərə gələn ABŞ prezidenti Ronald Reyqan Sovet İttifaqının Baş katibi Mixail Qorbaçova Berlin divarlarını göstərərək, gözlənilmədən: "Cənab Qorbaçov, bu qapıları açın, Cənab Qorbaçov bu divarı dağıdın", - deyə müraciət edir. Nəhayət, 1989-cu ilin mayında sosialist dövlətlərindən olan Rumıniya Qərb qonşusu Avstriya ilə sərhədləri açıq elan edir. Almaniya Demokratik Respublikasının sakinləri bu sərhəddən istifadə edərək böyük axınla Federativ Almaniyaya axışırlar. Almaniyanı mitinqlər və kommunist hakimiyyətinə qarşı etiraz aksiyaları bürüyür. Nəticədə ADR-in bütün rəhbərliyi istefa verir.

1989-cu il noyabrın 9-da xalq qarşısında çıxış edən ADR baş naziri Hünter Şabovski ölkə vətəndaşlarının Qərbi Berlini və AFR-i maneəsiz ziyarət edə biləcəyini deyir. Bundan bir neçə saat sonra polis və sərhədçilərə məhəl qoymayan Berlin sakinləri hər iki tərəfdən şəhəri ayıran Berlin divarı qarşısında toplaşır və divarı aşaraq bir-birilə görüşməyə başlayırlar.

Hadisələr sürətlə inkişaf edir və 1990-cı il oktyabrın 2-də Almaniyanın birləşməsi ilə nəticələnir. Buna həm Qərb, həm də sovet rəhbərliyi razılıq verir. Birləşmədən bir neçə ay sonra 43 kilometrlik Berlin divarı sökülür. Onun yalnız 1,3 kilometrlik hissəsi gələcək nəsillərə xatirə olaraq saxlanılır. Uzun illər "Soyuq müharibə"nin simvolu hesab edilən Berlin divarı sökülməklə həm də müharibənin sonunu və sosializm sisteminin çöküşünü əks etdirdi.

**Hazırladı:**
**Elenora HƏSƏNOVA,**
**"Respublika".**